KLASSİK AZƏRBAYCAN ƏDƏBİYYATI

MƏHƏMMƏD

# FÜZULİ



Əsərləri

**MƏHƏMMƏD FÜZULİ**

# ƏSƏRLƏRİ

## ALTI CİLDDƏ

## IV CİLD

"ŞƏRQ-QƏRB"
BAKI–2005

*Bu kitab “**Məhəmməd Füzuli.** Əsərləri. Altı clddə. IV cild” (Bakı, “Azərbaycan” nəşriyyatı, 1996) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır*

Tərtib edəni: Həmid Araslı

Redaktoru: Teymur Kərimli

**894.3611 - dc 21**
**AZE**
**Məhəmməd Füzuli. Əsərləri.** Altı cilddə. IV cild. Bakı, “Şərq-Qərb”, 2005, 344 səh.

Dünya ədəbiyyatında qəzəlləri, poemaları ilə şöhrət qazanan və qəlb şairi kimi tanınan Füzulinin ədəbi irsində başqa janrlarla bərabər qəsidə şəkli də əhəmiyyətli yer tutur. Ölməz şair türkcə, ərəbcə və farsca yazdığı qəsidələrini bir divan şəklində tərtib etmiş, ona ayrıca dibaçə yazmışdır. Məzmun və forma baxımından həmin rəngarəng qəsidələri üç dildə yazmasına baxmayaraq, şair ana dilinə bu sahədə də üstünlük vermişdir.

Əsərlərinin təqdim olunan cildində şairin ana dilində qələmə aldığı qəsidələri, fars və ərəb dillərində dini-mənqəbəvi səciyyəli qəsidələrinin tərcümələri toplanmışdır. Müxtəlif zamanlarda yazılan və azad fikirli humanist şairin dünya, insan, zaman haqqında düşüncələrini öyrənmək üçün əlavə zəngin material verən bu qəsidələr öz bədii qüvvəti ilə diqqəti cəlb edir. Mütəfəkkir şair burada da aşiq, alim Füzuli olaraq qalır.

**ISBN 9952-418-67-9**

© “ŞƏRQ-QƏRB”, 2005

Azərbaycan Respublikasının Prezidenti

İLHAM ƏLİYEVİN

**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**

12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

# FÜZULİNİN QƏSİDƏLƏRİ

Füzulinin əsərlərinin dördüncü cildinə şairin ana dilində yazdığı qəsidələr, fars və ərəb dillərində qəsidələrinin tərcümələri daxil edilmişdir.

Şairin əsərlərini nəşr edənlər bu vaxta qədər yanlış olaraq Füzulinin "Divan"ı ilə qəsidələrini qarışdırmış, onun ana dilində yazdığı "Divan"ı qəzəl və qəsidələrdən ibarət bilib çap etmiş, farsca "Divan"ını da qəsidə və qəzəllərdən ibarət saymışlar. Halbuki dünya kitabxanalarında mövcud Füzuli "Divan"larının əksəriyyətində qəsidələr ayrı yazılmışdır. Şairin 1589-cu ildə köçürülmüş və Sankt-Peterburq Şərqşünaslıq Institutunda saxlanılan nisbətən mükəmməl külliyyatında da hər üç dildə yazdığı qəsidələr "Divan"larından ayrı yazılmış, tərcüməsi burada nəşr etdiyimiz müqəddimə ilə başqa əsərlərindən fərqləndirilmişdir.

Bu müqəddimədə şair özünün müxtəlif vaxtlarda, müxtəlif dillərdə qəsidələr yazdığını, bunların şöhrət tapdığını və sonralar bu qəsidələri toplayıb müstəqil bir əsər kimi külliyyatına daxil etdiyini qeyd edir. Füzulinin bu qeydi "Qəsaid"in şair tərəfindən ayrıca bir əsər kimi tərtib edildiyini göstərir.

Füzuli dünya ədəbiyyatında qəzəlləri və poemaları ilə şöhrət qazanıb qəlb şairi kimi məşhur olsa da, dövrünün tarixi hadisələrini əks etdirən qəsidələr də yazmışdır. Doğrudur, o:

> Məndən, Füzuli, istəmə əş'ari-mədhü zəm,
> Mən aşiqəm, həmişə sözüm aşiqanədir, –

deyərək, öz yaradıcılığının istiqamətini düzgün müəyyənləşdirmişdir. Lakin əlimizdə olan üç dildə yazılmış qəsidələr şairin "mədh və zəmm" xarakterli əsərlər də qələmə aldığını aydınlaşdırır. Həm də bu, qəsidələrin həcm etibarilə az yer tutmadığını, böyük sənətkarın xüsusən mədh xarakterli qəsidələrə, dini mahiyyətli mənqəbələrə mühüm yer ayırdığını aydın göstərir.

Şairin qəsidələrə yazmış olduğu müqəddimə bu cəhəti aydınlaşdırmaq üçün çox əhəmiyyətlidir.

Müqəddimədə diqqəti cəlb edən əsas məsələ dahi söz ustadının şeirə, sənətə münasibəti, insana yüksək qiymət verməsidir. O yazır: "Əşyanın keyfiyyətini təhqiq üçün fərasət gözümü açdım, hikmət əsərlərinin tamaşası çölünə təfəkkür qədəmi qoydum, aləm sədəfində insandan qiymətli bir gövhər görmədim və insan gövhərində isə sözdən şərəfli cövhər tapmadım".

Şair bədii sözü son dərəcə yüksək qiymətləndirir. O, sözün öz qüdrətini doğruluqdan aldığını göstərir və yazır ki, sözün yüksəkliyinə söz yoxdur, söz

öz-özlüyündə yaxşı olsa da, yaxşı söz kamalı doğruluqdan alar. Biz burada eyni zamanda Füzulinin şerin növlərinə münasibətini də görürük. Füzuli yazır:

"Məlumdur ki, düz sözü təriflə də, məzəmmətlə də demək olar. Çünki söz insanlığın həqiqətindəndir. O da gah tərifə, gah da məzəmmətə layiqdir".

Füzulinin qəsidələrində son dərəcə maraqlı tarixi hadisələr öz əksini tapmışdır.

Onun müxtəlif zamanlarda yazmış olduğu qəsidələr öz bədii qüvvəti ilə diqqəti cəlb edir. Bu qəsidələrdə Füzuli çox zaman saray şairlərindən fərqli olaraq müasirlərini ədalətə çağırır. Müqəddimədə şair qəsidəyə müasirlərindən başqa bir tərzdə baxdığını belə izah edir:

"Nəzm fənlərinin şəhərlərini fəth etmək üçün söz bayrağını qaldırdım.

Allaha şükür ki, müxtəlif dillərin açarları ilə nəzm fənninin qapılarını açmağa başladım. Hansı qapıya ki, çatdım, onu nəzər sahiblərinin üzünə açdım. Gah məsnəvi üslubunun bağçasından gül-çiçək dərdim, gah qəzəl vadisində müşk qoxulu ceyranların dalınca yüyürdüm, gah müəmma fənnində ad çıxardım, gah da qəsidə sehri tərzində böyük və fazil adamların ürəklərini təsxir etdim:

Məsnəvi üsulu, qəzəl sənəti
Qazanmış olsa da aləmdə şöhrət,
Lakin bir eybi var, ifratla təfrit,
Nə onda dad qoymuş, nə bunda ləzzət.
Təkcə qəsidədir hər xeyir işdə
Cilvələr saçaraq sayılır sən'ət.

Həqiqətdə, qəsidə mübhəm ifadələr meydanı və mətin mənalar məkanıdır. Onun sətirlərinin səfləri padşahlara xütbə mənbəridir".

Buradan aydındır ki, Füzuli qəsidə janrından da ümumi mənafe üçün, müasiri olduğu hökmdarlara nəsihət vermək məqsədi ilə istifadə etmişdir.

Füzuliyə görə, öz müasirləri olan şahlara, sultanlara, xanlara nəsihət edib onları ədalətə dəvət etsə, onlar xalqla yaxşı rəftar edər və şairin onlara verdiyi sifətləri doğrultmağa çalışarlar. Bu da ölkənin ədalətlə idarə olunması üçün faydalı olar.

Doğrudan da, Füzulinin qəsidələrində bu cəhət xüsusi nəzərə çarpır. Onun Şah Ismayıl Xətaiyə, Türkiyə sultanına və Bağdadın hakimlərinə ithaf etdiyi qəsidələr saray şairlərinin qəsidələrindən əsaslı surətdə fərqlənir. Bu qəsidələrdə mənasız tariflər azdır. Burada təbiət təsviri və elmi biliklərin təbliği əsas yer tutur. Qalib gəlmiş hökmdarları şair çox zaman ədalət, mərhəmət tələbləri ilə qarşılayır, ölkənin tarixindən danışır, qədim hökmdarları idealizə edərək onları müasirlərinə qarşı qoyur. Odur ki, Füzuli qəsidələrini şairin orta əsr elmi-fəlsəfi görüşlərinin bədii ifadəsi adlandırmaq olar. Füzulinin qəsidələrində ictimai məsələlərdən ətraflı bəhs edilir. Məhz buna görə də şair zamanının hökm

sahiblərindən o qədər də rəğbət görməmişdir. Misal üçün Füzulinin aşağıdakı qəsidəsini nəzərdən keçirək.

Nə mövcud olmasa əsbabi-dünyadən, degil müşkil,
Bu müşkildir ki, mövcud olmaya bir hakimi-adil...

Bu qəsidədə xalqının səadətini arzulayan vətənpərvər şair ölkənin ədalətlə idarə olunması haqqında düşünür. Dünyada tapılmayan hər şeyi əvəz etmək olar, lakin hökmdar adil olmayanda, iş çətindir; dərdi əhli-dilə şərh ilə yüngüllətmək, xəstəliyi yaxşı təbib vasitəsi ilə sağaltmaq olar; hakim zülmkar olsa, iş çətindir, çünki onda ölkə aşiqlərin qəlbi kimi viran qalar, mərhəmət evi dağılar, cəmiyyətdə nizam pozular, bədxasiyyət şahların ehsanı belə zəhriqatil kimi öldürücü olar, acı cavab ölümdən betər olar...

Şair, Məhəmməd paşaya yazdığı qəsidədə hökmdarın ölkəni ədalətlə bəzəməyə borclu olduğundan danışır:

Hakim oldur ki, müvafiq ola hökmünə qədər,
Hakim oldur ki, mütabiq ola əmrinə qəza.
Hakim oldur ki, onun olmaya zatində təmə',
Hakim oldur ki, onun olmaya fe'lində riya.
Şəm'dən görsə ki, pərvanəyə bir zülm yetər,
Kəsə başın, deməyə zaye' olur nəf'i-ziya.
Bulmayan dövləti-tövfiqü-inayət həqdən,
Nə rəva kim, qıla icrayi-hökumət də'va!

Şair ədalətsizlik nəticəsində ölkədə nə kimi fitnə-fəsad törəyəcəyini göstərməkdən də çəkinmir:

Vay ol hakimə kim, eyləyə hökmündə xəta,
Qıla məzlumləri mərhəmətindən məhrum.
Verə zalimlərə öz nəf'i üçün istila...

Füzuli xalqdan xəbər tutan, xalqın dərdinə qalan hakimləri: "Rəhmət ol hakimə kim, olmaya eldən qafil", – deyə alqışlayır.

Füzulinin qəsidələrinin quruluşu da maraqlıdır. Hər qəsidənin giriş hissəsi bəzən bir əşyanın təsviri ilə başlayır. Bu təsvirdə həmin əşyanın bütün xüsusiyyətləri göstərilir, sonra təsvir tərif ediləcək şəxsiyyətlə əlaqələndirilir. Bu cəhətdən şairin "qələm", "xəncər", "su" rədifli qəsidələri daha səciyyəvidir. Füzuli qəsidələrində təbiət təsviri mühüm yer tutur. Bu qəsidələrdə biz təbiətin fəsillər boyu dəyişməsinin təsvirinə daha çox təsadüf edirik.

Füzulinin bir sıra qəsidələrində dövrün tarixi hadisələri öz ifadəsini tapmışdır. Şair Səfəvi sərkərdələrindən birinə yazdığı qəsidədə ərəblərin üsyanından və xanın bu üsyanı yatırmasından bəhs edir. O, Rabiə adlı bir nəfərin Mənsur və Hafizlə birlikdə üsyan qaldırdığını, xanın ordusunun isə bu üsyankarları cəzalandırarkən kəndləri talan etdiyini bir quzunun dili ilə belə verir:

"Ordu qarətə başladıqdan sonra istirahətim qalmadı. Atamdan, anamdan, dostumdan və ölkəmdən uzaq düşdüm. Hər kimə üz tutdumsa, mənə qəsd etdi. Bu qaniçən qoşun mənim qanıma susamışdır".

Şairin qəsidələrində olun tərcümeyi-halı ilə əlaqədar məsələlər də çoxdur.

Füzuli qəsidələrində özünün vəziyyətindən bəhs etdiyi kimi, yüksək mənəvi aləmini də açıb göstərir, əyilməz bir insan olduğunu qeyd edir. Cəfər bəyə təqdim etdiyi qəsidədə belə yazır:

Zülməti-heyrətdə zikrindir mənə virdi-zəban,
Tutiyəm guya, yemim şəkkər, yerim Hindustan.
Cifeyi-dünyayə çox meyl etməzsəm kərkəs kimi,
Bir hümatəb'əm, qida bəsdir mənə bir üstüxan.
Yüz fəsahət tutiyi-təb'imdə müzmərdir, vəli
Kim tutar ayinə kim, izhar edəm razi-nihan.
Sakinəm bir yerdə kim, yox e'tibarım zərrəcə,
Rövşəni-rə'yi-visali-himmətim xurşidsan.

Bu sətirlərdə biz Füzulinin mənəviyyat aləmi ilə daha yaxından tanış oluruq. O, mütəkəbbir, var-dövlətə məğrur olan adamların qarşısında özünü vüqarla apardığını, lakin mərifət əhlinə, elm əhlinə həmişə hörmətkar olduğunu da söyləyir. Məhəmməd Qaziyə təqdim etdiyi qəsidə şəklində yazılmış məktubunda da şair öz mənəviyyatından bəhs edir. Bu qəsidədə şairin cəsarəti və müasirlərinə, xüsusən hakim təbəqəyə münasibəti açıq ifadə olunmuşdur.

O, yoxsul olsa da məğrurdur, riyakar deyildir. Zahirən yoxsul sayılan bu adam, mənəviyyatca çox zəngindir.

Füzuli öz qürurunu və mənəvi yenilməzliyini bu beytdə daha cəsarətlə ifadə etmişdir:

Rif'əti-qədrim iltifat etməz,
Gər Süleyman qılarsa ərz əta.

Burada Süleyman ifadəsi iki mənalıdır. Şair bir tərəfdən məşhur əfsanəvi peyğəmbər Süleymanı nəzərdə tutursa, ikinci tərəfdən əsrin hökmdarı Sultan Süleymana işarə edir. Bununla da müasirlərinin qarşısında baş əymədiyini qətiyyətlə bildirir.

Füzulinin əsərlərindən şairin öz etirazını, müasirlərinə deyəcəyi sözü bədii boyalarla, məharətlə ifadə edə bilmək bacarığı hər zaman nəzərə çarpır.

Füzuli, qəsidələrində dəfələrlə Bağdad şəhərinin təsvirini, tərifini vermişdir. Sultan Süleymana təqdim etdiyi bir qəsidədə o, şərqin qədim şəhərlərindən biri olan Bağdadı belə təsvir edir:

Münşiyi-qüdrət ki, çəkmiş xameyi-hikmətnigar,
Səfheyi-əyyamə qılmış səbt vəsfi-hər diyar.
Büq’eyi-Bağdadın etmiş künyətin Darüs-səlam
Kim, ona təslimü təhsin edə hər kişvər ki, var...

Bu sətirlərlə başlayan qəsidədə Bağdad şəhərinin gözəlliyindən, tarixindən danışılır. Füzuli Bağdadda dəfn olunmuş müqəddəs şəxsiyyətləri, elm və sənət adamlarını xatırlayır, məşhur dövlət adamlarının hər zaman burada hökmran olduğundan bəhs edir. Onun mənəvi aləminin Leyli və Məcnunlar, Fərhad və Şirinlər yaratdığını, ədalət şəhəri olduğunu göstərərək, burada zülmün əbədi davam edə bilməyəcəyini də qeyd edir.

Füzulinin qəsidələrində girizgahlar müxtəlifdir. Deyildiyi kimi, o, qəsidələrini bəzən baharın, bəzən də suyun, xəncərin, səbanın təsviri ilə başlayır. Bəzi qəsidələr hikmətamiz, bəzisi isə şəxsi vəziyyətindən bəhs edən girişlə yazılmışdır. Lakin bunların içərisində Ayas paşanın Bəsrə üsyanını yatırmaq üçün Bağdada ordu çəkdiyini təsvir edən tərcibənd tərzində yazılmış qəsidə fərqlənir. Burada, çox ehtimal ki, 1543-cü ildə Ayas paşanın qüvvətli ordu ilə üsyan yatırmasından bəhs olunur. Füzuli paşanın mübarizə apardığı Al-Qəşəm şeyxini fitnəkar, fəsad əhli adlandırır, onun kəndliyə zülm etməsini, öz şəxsi mənafeyi uğrunda mübarizə apardığını belə təsvir edir:

Qanğı xirmənsuxtə zər’inə qılsa bir nəzər,
Bəzr üçün hər nəsnə kim qoysaydı, bir ehsan idi.
Baş çıxarmaq istəməzdi zər vəhmindən onun,
Gərçi fəllahın gözü yaşı ona baran idi.
Hər evə bir gecə mehman olsa qövmindən biri,
Adı mehmanlıq, vəli mə’nidə bir talan idi.

Bu sətirlərdən aydın olur ki, Füzuli kəndlinin çəkdiyi iztirabları dərindən duymuşdur. O, göstərir ki, şeyx hansı xırmana çatıb, əkinçi üçün bir toxumluq qoysa, bu, ehsan sayılırdı. Əkinçi tarlasını göz yaşı ilə sulasa da, şeyxin qorxusundan bitki torpaqdan baş çıxarmaq istəməzdi. Onun adamları qonaq adı ilə hansı evə girsələr, o evi talayardılar.

Füzuli qəsidələrinin dili nisbətən ağırdır. Burada şair elmi və tarixi ifadələrdən daha çox istifadə etmişdir. Məsələn, onun "Tövhid" adlı ilk qəsidəsinin mənasını anlamaq üçün orta əsrin bir çox elm sahələrini yaxşı bilmək lazımdır.

Çünki burada baharın təsviri, təbiət gözəllikləri ilə yanaşı tibb, təcvid, məntiq, fiqh və s. elmlərdən alınmış anlayışlar, elmi-kəlamdan, fəlsəfədən gələn ifadələr də verilmişdir.

Bununla bərabər, şairin təbiətin gözəlliklərini son dərəcə real və sənətkaranə təsvirini verən, insan gözəlliyindən bəhs edən qəsidələri də vardır ki, onlar təkcə məzmun cəhətdən deyil, həm də dilinin sadəliyi və mənanın anlaşılması baxımından da fərqlənirlər.

Çıxdı yaşıl pərdədən, ərz eylədi rüxsar gül,
Sildi mir'ati-zəmiri-pakdən jəngar gül.
Cam tut saqi ki, gülbünlər gül izhar etdilər,
Sən dəxi bir gülbüni-rə'nasən, et izhar gül.
Gəldi ol dəm kim, ola izhari-hikmət qılmağa,
Inşirahi-sədr ilə sədri-səfi-əzhar gül.
Yetdi il mövsim ki, açmağə könüllər mülküni,
Ola gülşəndə rəyahin xeylinə sərdar gül.
Adəm isən bağ seyrin eylə bu mövsimdə kim,
Bağı rəngü buy ilə qıldı behiştasar gül.
Çarsuyi-bağ seyranı bu gün mərğubdir
Kim, şükufə onda sərraf oldu vü əttar gül.
Çıxmış ikən bəzmi-gülşəndən yenə övd eyləyib,
Cami-mey andırdı əhli-tövbəyə təkrar gül.
Həbsdən Yusif çıxıb sultani-Misr olmuş kimi,
Oldu, açıb qönçəsin arayişi-gülzar gül.
San Züleyxa xəlvətidir qönçeyi-dərbəstə kim,
Çıxdı ondan daməni-çakilə Yusifvar gül.

Bu sətirlərdə gülün açılması, baharın gəlişi, eyş-işrət, həyat gözəlliklərindən istifadə etmək meyli çox qüvvətlidir. Eyni zamanda ifadələr aydın, obrazlı və anlaşıqlıdır. Şairin belə qəsidələri olduqca bədii və təravətlidir. Füzuli qəsidə janrında şəkli cəhətdən də yeniliklər yaratmışdır. Bu baxımdan şairin Sultan Süleymana təqdim etmiş olduğu bir qəsidə son dərəcə maraqlıdır. Burada tərkibbənd birinci bənddə dörd, ikinci bənddə altı, üçüncü bənddə səkkiz, dördüncü bənddə on, beşinci bənddə on iki, altıncı bənddə on dörd, sonra on altı, nəhayət, on səkkiz beytdən ibarətdir. Şairin mətbu nüsxələrində yanlış qeyd olunan bu tərkibbəndin quruluşu orijinaldır.

Füzulinin fars və ərəb dillərində yazılmış qəsidələrinin böyük hissəsi dini məzmundadır. Lakin bu qəsidələrdə də şair dövrünün son dərəcə mühüm ictimai məsələlərindən, müasirlərinin şeirə, sənətə münasibətindən dönə-dönə bəhs açır.

Füzulinin farsca qəsidələri sırasına onun "Ənis ül-qəlb" əsəri də daxil edilmişdir.

Bu, orta əsr təsnifatına uyğun olsa da, biz onu öz sırasından ayıraraq, müstəqil bir əsər kimi qəsidələrdən ayrı nəşr edirik. Çünki bu əsər forma etibarilə qəsidə olsa da, məzmun etibarilə mədh səciyyəli qəsidələrdən tamam fərqləndiyi kimi, mənqəbələrdən də fərqlənir; bir də şair özü də əsərə xüsusi ad vermişdir. Məhz buna görə də biz "Fəzliyə nəsihət" və bu əsərin tərcüməsini şairin qəsidələrindən ayrı vermişik.

Füzuli əsərləri içərisində "Ənis ül-qəlb" öz ictimai mənası ilə və dövrün mühüm hadisələri ilə səsləşdiyi üçün əhəmiyyətli yer tutur. Dahi sənətkarın Əfzələddin Xaqaninin Yaxın Şərq ədəbiyyatında bir çox şairlər tərəfindən tənzir edilmiş "Qəsideyi-şiniyyə"sinə cavab olaraq yazılmış bu əsəri uzun müddət qeyri-mətbu qalmışdır.

Bu əsərdə yazıçı insan sözünün dərin mənası önündə heyrətlənir. Insan həyatında dilin əvəzsiz bir nemət olduğunu, sözün insan mənəviyyatını ifadə vasitəsi olduğunu tərənnüm edən şair, sənətkarlara müraciət edərək söz gözəlini mərifət libasından çılpaq etməməyə, şeirdə şəkli xüsusiyyətlərə uyaraq mənanı unutmamağa çağırır. O, insan vücudunun sirlər xəzinəsi olduğunu göstərib onu öyrənməyin lazım gəldiyini söylədiyi kimi, elm-bilik sahiblərinin belə, bütün elmləri, sirləri öyrənmək sahəsində hələ az iş gördüyünü qeyd edir. Böyük sənətkar, başqa əsərlərində olduğu kimi, burada da riyakar din xadimlərinə qarşı münasibətini aydın ifadə edir; rindlə zahidi qarşılaşdırır, oxucularını xalqı aldadan kəslərə inanmağa çağırır.

Deyil Allah üçün zahid edirsə məscidi tə'mir,
Təşəxxüs satmağa istər işə salsın o dükkani.
Çevirsə barmağı təsbih, aldanma, riya bil sən,
Sayır görsün çatırmı almağa dünyani, imani.

Maraqlı cəhət burasıdır ki, o, "sahibdilan", "danayan" adlandırdığı hind və yunan alimlərinin də kainat sirlərini anlamaqdan aciz qaldıqlarına işarə edir.

Şair Əflatunun, Loğmanın da həqiqəti başa düşə bilmədiklərini göstərdiyi kimi, puç əfsanələrə də inanmamağı, həqiqəti tapmaq üçün axtarışları davam etdirməyi lazım bilir.

Füzuli bir mütəfəkkir kimi yaradılışda olan qanunları heç kəsin dəyişmək qüdrətinə malik olmadığını göstərir və belə yazır:

Gözəl, ya çirkin olsun hikmətin hər hökmü baqidir,
Xələl yetməz ona çərxin yerindən qopsa ərkani.

Bu misralardan aydındır ki, şair fitrətdə mövcud qanunların dəyişdirilməsinin qeyri-mümkün olduğunu dərk edir və buradan rəmmalların, münəccimlərin insan taleyini dəyişə biləcək qüdrətlərinə inananlara gülür:

Cəhalətdir səbəb rəmmal hər yerdə məkan salsa,
Bütün işlərdə hakim zənn edər ənkisü Ləhyani.
Münəccim əqlinin naqisliyindən iddia eylər
Ki, hər işdə müqəssir tutmalı Bərcisü Keyvani.

Bu sətirlər, şairin başqa əsərlərində də rəmmallara, münəccimlərə inananları tənqid etdiyi sətirlərlə səsləşir. Mütəfəkkir sənətkar xalqı aldadan, özünü bilici qələmə verən, fırıldaqla həyat keçirən və öz mənafeyi üçün dindən gəlir mənbəyi kimi istifadə edən orta əsr fırıldaqçılarını, hər zaman olduğu kimi, burada da öz qüdrətli qələmi ilə kəskin tənqid edir.

Şair öz dövründə baş verən bütün fəlakətlərin mənbəyini hərislikdə, acgözlükdə və şöhrətpərəstlikdə görür. O, acgöz feodalların müharibələr törədib ölkələr fəth etməsini bu hərisliklə izah edir. Odur ki, müasirlərinə müraciət edərək deyir: “Həris insanların dünyada rahatlığı ola bilməz. Hərislik elə bir oddur ki, onun əlaçı yoxdur. Həris adam bütün həyatı boyu vaxtını qızıl üçün iztirabda keçirir. Lakin dünyanın bütün ehtiyaclarını ödəyə bilmək mümkün deyildir. Hərislik elə bir yoldur ki, onun sonu yoxdur”.

Bütün bu xüsusiyyətləri izah etdikdən sonra, şair oxucuya müraciət edib göstərir ki, başqalarının malına göz tikənlərin, öz süfrəsinin ürək qızartması ilə bəzəmək istəməyənlərin ciyəri yüz parça olan insanlara yazığı gəlməz. Rəhmsiz insanlar ürəyi yanmışlara ürək yandıra bilməz. Bütün bunlardan Füzuli dövlət üçün nəticə çıxarır. Zalım şahları qurd adlandırır. “Qurddan isə çoban olmaz”, – deyir.

Füzuli dövrünün zalım hökmdarlarına müraciət edərək yazır:

Sənin xeyrin üçün kəndli ağac əkmişdir, ey hakim,
Kəsib təxt qurma ondan, eyləmə mə’yus dehqani.
Nə lazımdır sənə bir təxt kim, qayıq kimi axsın
O göz yaşı selində kim, tökər məzlum müjgani.
Şərik tək pay alırsan kəndlinin daim qazancından.
Sənin borcundur olmaq kəndçi malının nigəhbani.
Onun malı talandıqda, cərimə çəkməli sənsən,
Cərimə kim çəkər, indi ki, sən etdin bu talani?

Həmin əsərin son beytlərində hökmdarları zəhərli əjdaha adlandıran şair digər saray əyanlarını da nifrətlə xatırlayır. Onların bütün “ehsanlarını” riyakarlıq adlandırır. Bütün bunlardan sonra yoxsulları fikirləşməyə, düşünməyə, orta əsr zalımlarından üz çevirməyə çağırır və yazır ki:

Fəqirin olsa idraki, bu sadə əmri dərk etsə
Ki, ta sağdır, ona ruzi verər tə'yidi-sübhani.
Nədən ötrü gərək fəğfur ilə xaqanə baş əysin?
Nədən ötrü gərək tə'rif etsin Keylə Kəsrani?
Varınsa əql, özün tək qafili mürşid qəbul etmə,
Büt anlarmı gətirmişdir ona iman röhbani.
Sədaqətlə yapışma damənindən ol kəsin, ey dost
Ki, qalmışdır təəllüq pəncəsində öz giribani.

Füzuli dünyaya etimadsızlığın, dünyadan uzaqlaşmaq meylinin də bu ədalətsizlikdən, bu zülmdən irəli gəldiyini göstərib, arif insanların qeyrət və səyləri üçün meydanın dar olduğundan şikayətlənir. Ancaq bu şikayət və etirazlar son nəticədə dünyanın faniliyinin mülkə, mala, var-dövlətə arxalanmamağın, həyatda qəmsiz yaşamaq üçün dünya qəmlərindən uzaqlaşmağın, vardövləti tərk edib mənəvi cəhətdən şad olmağın təbliği ilə ümumiləşdirilir.

Füzulinin "Fəzliyə nəsihət" əsəri isə böyük sənətkarın gəncliyə vəsiyyətidir.

* * *

Şairin ana dilində yazdığı qəsidələri Sankt-Peterburq nüsxəsi əsasında tərtib olunduğundan əlyazmanın dil xüsusiyyətləri əlifbamızın verdiyi imkan daxilində saxlanılmışdır. Fars və ərəb dillərində qəsidələr, "Ənis ül-qəlb" və "Fəzliyə nəsihət" də Sankt-Peterburq nüsxəsindən tərcümə edilmişdir. Mütərcimlər əsərlərin vəznini və mümkün qədər qafiyələrini saxlamağa, əslindən uzaqlaşmamağa çalışmışlar. Xüsusən "Ənis ül-qəlb"in tərcüməsi daha uğurludur.

**Həmid Araslı**

# Füzuli qəsidələrinin dibaçəsi

Tərif o söz sahibinə layiqdir ki, ümumi surətlərin dili və şəxsi fərdlərin hərflərindən yaranan varlığın qəsidəsi onun qüdrətinin kəmalı ilə nəzm edilmişdir. Pərəstiş o nazimə yaraşar ki, dövrlər və zamanlar silsiləsinin nəzmi mətlədən məqtəə qədər, onun hikmət mizanında yoxlanılmışdır.

### QİTƏ

Öylə mün'im ki, qəza ne'mətinin şükrü üçün,
Bülbüli-natiqəni aşiq edib söz gülünə.
Zahir etməzdi sözün dürrünü nitqin sədəfi,
Vəsfi-tövhidi görəkməzdisə insan dilinə.[*]*

Saysız salamlar elə bir seyyidə layiqdir ki, əgər o, "şeir hikmətdir" deyə, sözü nəzmə çəkməyə rəğbət etmək qapılarını bəlağət sahiblərinin üzünə açmasaydı, mövzun söz (şeir) gözəli varlıq aynasında əsla görünə bilməzdi. O sərvərin verdiyi nemətin haqqı hüduda sığmaz ki, əgər onun iltifat saqisi "ərşin altında Allahın xəzinələri vardır ki, şairlərin dili bu xəzinələrin açarıdır" piyaləsindən zövq sahiblərinə icazə şərabını dadızdırmasaydı, heç bir susuz, nəzm bəhrlərindən söz aça bilməzdi.

### Ş e i r

Vücud nazimi ol şahı vəsf etmək üçün,
Bu kainatı necə silsilə, nizama salıb.
Olub təsəlsüli-övladı bir qəsidə onun
Nəcat ərşinə ulduz kimi birər ucalıb.

Allahın salavatı ona və onun Əhli-Beytinə, onun qanunlarını və ehkamını hifz edən və kəlamının məzmunlarını nəql edən əshabına olsun.

Bundan sonra bu saf etiqadlı qul, nakam Füzuli öz əhvalını müxtəsərcə olaraq belə şərh edir və bu minval ilə söz telinin düyününü açır:
Elə ki, mən əşyanın keyfiyyətini təhqiq üçün fərasət gözünü açdım,

[*] Dibaçədəki şeirlərin tərcüməsi M.Mübarizindir.

hikmət əsərlərinin tamaşası çölünə təfəkkür qədəmi qoydum, aləm sədəfində insandan qiymətli bir gövhər görmədim və insan gövhərində isə sözdən şərəfli cövhər tapmadım.

**NƏZM**

Hər şeydən yüksəkdir sözün məqamı,
Hər yerdə sevərlər sahib-kəlamı.
Sözün vəsfi mənim hünərim deyil,
Sözün qiymətinə söz yox, yəqin bil.

Gözəl yaranmışdır söz əzəl başdan,
Düzlükdür ondakı hüsnü artıran.
Düzlüklə artmışdır sözün qiyməti,
Düzlükdür hər şeyin ilk məziyyəti.

Həqiqətən, insan nəslində peyğəmbərlərdən və övliyadan sonra şairlərdən sadiq bir tayfa yoxdur. Bu iddianın doğruluğuna dəlil və şahid budur ki, həqiqi sevgili gizlənmək örtüyünü zahir olmaq üzündən atıb, imkan aynasında öz gözəlliyini cilvələndirdikdə, hər zərrədə özünü göstərib, bu cilvəni tamaşa etmək üçün hər gözdən bir qapı açmışdır.

**Ş e i r**

Tapdı varlıq güzgüsündə nuri-həq çün in'ikas,
Göz bu əksin arxasında gördü həq rüxsarını.
Əks bir gün dil açıb göftara gəlsə, şübhəsiz,
Vəsf edər mə'şuqunu, mə'lum edər əsrarını.

Doğrudan da, şair məşuqun sifətlərindən danışanda, o həqiqi sevgilinin ehtiyacsızlığının kamalını göstərərkən sadiqdir və öz halını bəyan etmək üçün təfəkkür atını çapanda öz acizliyi və miskinliyi barədə ifrata vararkən, sözü onun halına uyğundur. Doğrudan da, bütün ehtiyaclardan azad olub dünyanı camalının kamalı ilə bəzəyən bir sevgili, niyə gərək tərifə layiq olmasın? Eyni zamanda nişansız bir məşuqəyə könül verib, imkan təhlükələri uçurumuna düşən, nə əlində vüsal ehtimalı telinin ucu olan, nə də tələb ətəyini əldən buraxan aşiqə hər cür məzəmmət nə üçün gərək münasib görünməsin?

## RÜBAİ

Niqabı ay üzündən açmadı əfsus ol dildar,
Yazıq aşiqlərə rəhm etmədi, göstərmədi rüxsar.
Əl atdıq damənindən tutmağa, bizdən uzaqlaşdı,
Məhəbbət qaldı, möhnət qaldı, eşq artdıqca dərd artar.

Məlumdur ki, düz sözü mədhlə də, məzəmmətlə də demək olar. Çünki söz insanlığın həqiqətindəndir. O da gah təriflənir, gah da pislənir. Xilafət rütbəsinə görə nə qədər mədh desələr layiqdir. Ağıl bunu üsyan, şərarət halında da mötəbər sayır.

Xülasə, ondakı şeir bağçasından doğruluq qoxusu duydum, məsləhət gördüm mən də bu bağçada elə bir ağac əkim ki, onun kölgəsində əbədi olaraq yaşayım. Ağıl mənim tədbirimdən xəbər tutunca itaət kəməndindən boyun qaçırdı ki, heyhat, bu, qanlı bir çöl və sahilsiz bir dəryadır.

Bu sədəfdə deşilməmiş bir dürr tapmaq çətindir. Bu kətibədə bir söz tapmaq mümkün deyildir ki, deyilməmiş olsun. Döyülmüş xırmandan başaq yığmaq xəsislik əlamətidir, dar və xeyirsiz yoldan gedibgəlmək faydasızdır.

## Beyt

Keçən zamanlarda söz deyən dostlar,
Yerdə asimanın sirrin açmışlar.

Hərçənd bu nəsihət məni gözəl söz söyləmək sənətinə başlamaqda qorxutdu, lakin çox fikirləşdikdən sonra təfəkkür səyyahım bu yola düşdü ki, söz süfrəsində sonra gələnlərin ruzisini hikmət süfrəçisi keçmiş şairlərin nəzərindən gizlədib, onlara göstərməyibdir. Əgər söz əhlinin çoxalması ilə yeni söz demək mümkün olmasaydı, söz gözəli bir nəfərdən başqa heç kimə camal göstərməzdi. Bu ümidlə iradə kəməndini şeir eyvanına atdım, nəzm fənlərinin şəhərlərini fəth etmək üçün söz bayrağını qaldırdım. Allaha şükür ki, müxtəlif dillərin açarları ilə nəzm fənninin qapılarını açmağa başladıqda, hansı qapıya ki, çatdım onu nəzər sahiblərinin üzünə açdım.

Gah məsnəvi üslubunun bağçasından gül, çiçək dərdim, gah qəzəl söyləmək küçəsində müşk qoxulu (ceyranların) dalınca yüyürdüm. Gah

müəmma fənnində ad çıxartdım. Gah da qəsidə sehri tərzində böyük və fazil adamların ürəklərini təsxir etdim.

Bu müqəddiməni tərtib etməkdən və bu sözləri yazmaqdan məqsəd budur ki, bu lətif fənn və qiymətli sənətlə məşğul olduğum zaman müxtəlif illərdə, həm də müxtəlif dillərdə bir neçə qəsidə, tövhid, nət, mənqəbət və padşahlara mədh yazmışdım, Allahın köməyi ilə bunların çoxu məşhur olmuşdu. Bir çoxu qayğısızlıq nəticəsində ortadan çıxmış və bəziləri isə namünasib olduqlarından gizlində, pərdədə qalmışdı. Bu qəflətdən oyanıb belə məsləhət gördüm ki, pərişan olan bu dediklərimin qalanını bir yerə cəm edim. Bu dövrandan sitəm görmüşləri bir yerə toplayım ki, zaye olmaq təhlükəsindən qurtarıb, məşhur və müəyyən olsunlar. Madam ki, (qəsidə) nəzmin yaxşı növüdür, heyfdir ki, fövt olub gələcək nəslə zövq verməsinlər.

## QİTƏ

Məsnəvi üsulu, qəzəl sən’əti
Qazanmış olsa da aləmdə şöhrət,
Lakin bir eybi var, ifratla təfrit,
Nə onda dad qoymuş, nə bunda ləzzət.
Təkcə qəsidədir hər xeyir işdə
Cilvələr saçaraq sayılır sən’ət.

Həqiqətdə qəsidə mübhəm ifadələr meydanı və mətin mənalar məkanıdır.

Onun sətirlərinin səfləri padşahlara xütbə mənbəridir.

Qəsidə zövqündən binəsib olanların varlığını ağıl yox hesab edər.

Kərəmli fəsahət əhlindən və mərhəmətli bəlağət sahiblərindən təvəqqe edirəm ki, bu qiymətsiz daş qırıqlarına və dəyərsiz dağınıq muncuqlara nəzər saldıqda, onun nöqsanlarını bağışlasınlar. Buradakı yaxşı cəhətləri öz zəmanələrinin şərəfi kimi qiymətləndirsinlər. Əgər xətaları islah etməsələr, yersiz etiraz da etməsinlər.

Qayibin ardınca hazırlar məlamət söyləməz,
Qeybət əhli olma, üzdə söylənə hər söz gərək.
Nəzmü fikrimdə olan nöqsanları gördükdə sən,
Ya özün islah qıl, ya lütf üzündən pərdə çək.

# Türkcə qəsidələr

* * *

Həva ərayisi-gülzarə oldu çehrəgüşa,
Bahar gülşənə geydirdi hülleyi-xəzra.

Çəmən əyalətinə oldu nəsb xosrov gül,
Həvayə əbrsifət hökmün etməyə icra.

Yazıldı səbzeyi-novxizdən xəti-ehkam,
Çəkildi sayeyi-mətbu'i-sərvdən tuğra.

Səriri-abi-rəvanü səfiri-mürği-çəmən
Nükati-təhniyeyi-məqdəm etdilər inşa.

Zəbani-susəni-azadü səbzeyi-novxiz
Sənayi-rif'əti-iclalə oldular guya.

Şəqayiq alnı zəminbusdən olub məcruh,
Bənövşə qaməti oldu təvazö' ilə düta.

Mürəttəb eylədi bir bəzm gülşən içrə bahar
Ki, verdi zövqi-tamaşası nəş'əyi-səhba.

Ənadil etdi bəyani-məratibi-nəğəmat,
Qumari oldu təranəkəşü sürudsəra.

Sədayi-mürğ buraxdı büzürgü kuçikə şövq,
Sürudi-ab ilə üşşaqə hasil oldu nəva.

Bilindi qönçədə gül bərgi zahir olmaq ilə
Ki, qönçə başinə yağdırdı jalə səngi-cəfa.

Cərahət olmasa ə'zadə zahir olmaz qan,
Tərəşşöh eyləməz əlbəttə sınmadan mina.

Hümayvəş vərəqi-yasəminü bərgi-səmən
Uçub həvayə gülüstanə düşdü zilli-hüma.

Bahar taciri Misri-çəmən qənilərinə,
Buraqdı Yusifi-gül ərz eyləyib qovğa.

Bu zövq saldı Züleyxayi-laləyə bir şövq
Ki, lə'lü müşk töküb, verdi ağırınca bəha.

Hədiqə təxteyi-tə'lim olub rəyahindən,
Yazıldı möhməlü mö'cəm ona hürufi-həca.

Müzəyyən eylədi övraqi-laləyi şəbnəm,
Hürufi-lalədə olmaz əgərçi nöqtə rəva.

Götürdü şəbnəm əzhardən hərarəti-mehr,
Şükufə nöqtələrin gərçi hökm edər imla.

Dəbiri-bad verib tifli-əndəlibə səbəq,
Götürdü çöhreyi-əzhardən niqabi-xəfa.

Qamu dirəxt bulub rəf'i-istiqaməti-hal,
Şükufə həmli ilə kəsr buldular, illa

Nihali-bibədəli-sərv kim, qalıb mənsub,
Səbati-hal ilə onlardan oldu müstəsna.

Sədayi-seyl çəkər məddi-müttəsil, yə'ni
Ki, məddi-müttəsil ilə olur, qiraəti-ma.

Göründü hey'əti-abi-rəvanda şəkli-hübab,
Sübutə yetdi səbati-nücumü seyri-səma.

Xütuti-müxtəlifü müstəqimi ənharın
Çəməndə saldı zəvayayi-gunagun bina.

Riayəti-türüqi-müstəqimdən, necə kim,
Olur hüsul məqamati-cənnətül-mə'va.

Həvayi-bağidən etdim bu hikməti mə'lum
Ki, e'tidaldədir sihhəti-həvasü qüva.

Fəzayi-gülşəni əhzar ilə görüb məmlu,
Yəqinim oldu ki, mümkün degil vücudə xəla.

Nəzərdə olmaq ilə sübhü şam, qönçəvü gül
Bədihi oldu kəmal əhlinə hüsuli-səfa.

Nəticə salibə olmaq xilafi-adətdir,
Olunca mövcibi-süğrayə müttəfiq kübra.

Zəmiri-gülbünə gül rəngi saldı atəşi-bim
Ki, hümrə qanə olur nəfs evində rahnüma.

Gül atəş üzrə qılır iqdi-zöhreyi-şəbnəm,
Tədarüki-qəmərü şəms edər səbahü məsa.

Bu kimiya səbəbindən əcəbmidir olsa,
Əlində daneyi-ərzən məsabəsində tila.

Şükufə siminə fərz eylədi xüruci-zəkat,
Mədari-hövlü büluği-nisabi-istinma.

Hüquq dəf’i üçün əğniyayi-əşcarə,
Səhayifi-çəmən oldu əyadiyi-füqəra.

Bəhardən təni-gülbündə eyləyib həyəcan,
Hərarəti-dəməvi qıldı ğüddələr peyda.

Boyandı qanı ilə səfheyi-çəmən gül-gül,
Məgər ki, fəsdinə hökm eyləmiş təbibi-həva.

Hibali-sehrə dönüb cünbüşi-cədavili-ab,
Kəlimi-sərv ona əksdən buraxdı əsa.

Olub tərənnümi-bülbül əzayimi-təsxir,
Çəmən pərilərinə lazım oldu ərzi-liqa.

Büsati-gülşənə dün eylədim güzər ki, dəmi
Qılam nəzareyi-asari-qüdrəti-mövla.

Əcəb niza’də gördüm çəmən zəriflərini,
Təəssüb ilə qamu saliki-təriqi-xəta.

Qamu güman ilə müstəd’iyi-təriqi-nəcat
Vəli, qamusuna batil dəlili-istid’a.

Salıb şükufə məbadi sünufə əşcari,
Qılırdı bəhs ki, caiz təəddüdi-qüdəma.

Verib təsəlsülə qüvvət təbiəti-kəci-ab,
Olurdu nafiyi-isbati-illəti-ula.

Xəyali-məhz sanıb kainatı nərgisi-məst,
Qılırdı cəhl ilə nəfyi-həqayiqi-əşya.

Edirdi bülbüli-kafirnihad səcdeyi-gül,
Təəbbüdi-sənəm ilə tutub nəcati rica.

Nəsim vaqif olub bu fəsadı mən’ etdi
Ki, ey güruhi-pərişan, tutun təriqi-hüda!

Bu karixanə bir ustaddan degil xali,
Gərək bu qüdrətə, əlbəttə, qadirü dana.

Qılır dəlaləti-illət vücudi-hər mövcud
Vəli, nə sud ki, sahibnəzər deyil ə’ma.

Mükəvvinatə hüdus ol qədimdəndir kim,
Kəmali-zatinə mümkün degil qəbuli-fəna.

Qədirü müqtədirü qadirü müqəddirü həyy,
Əlimü alimü əllamü ə’ləmü ə’la.

Zəhi təkəvvüni-kamil ki, qüdrətindəndir,
Pəriliqalərə lütfi-tənasübi-ə’za.

Məlahəti-ləbi-meygunü ləhceyi-şirin,
Nəzakəti-qədi-mövzunü çöhreyi-ziyba;

Səfayi-cismi-lətifü qəbuli-cövhəri-pak,
Lətafəti-xəti-mişkinü zülfi-ənbərsa.

Kəmali-qüdrəti-elminədir şəvahidi-ədl,
Üqudi-silsileyi-karixaneyi-dünya.

Bəsaitə şərəfi-məhrəmiyyəti-vəhdət,
Mürəkkəbatə qəbuli-tərəkkübi-əcza.

Həvayi-məkrəmətindən qəbuli-feyz qılıb
Mürəbbiyi-çəmən olmuş bəhari-ruhəfza.

Nəsibi-mərhəmətindən alıb ifadeyi-cud,
Cahanı rəşki-cinan eyləmiş nəsimi-səba.

Səfayi-lütfi-əmimi nüfuz edib, qılmış,
Mizaci-namiyəyi müstəiddi-nəşvü nəma.

Fəzayi-gülşəni-lütfi mərabei-əhbab,
Hədaiqi-rəhi-qəhri məhaliki-ə'da.

Sühayə lütfi əgər qılsa zərrəpərvərlik,
Yetər məqami-müsavati-afitabə süha.

Vər olsa qəhrinə məzhər ənasirü əflak,
Nikah əqdin üzər ümməhatdan aba.

Hesabi-rizqini qılmış təmamiyi-bəşərin,
Hənuz Adəmə peyvənd qılmadan Həvva.

Bəyani-halinə yetmiş cəmi'i-məxluqin
Hənuz pərdəyə ə'yani çəkmədən əsma.

Kəmali-tərbiyəti növki-xarə vermiş rəng,
Lətif edib, ləqəbin eyləmiş güli-rə'na.

Gül atəşin bir ovuc xaki-rəhgüzarə salıb,
Kül eyləyib qomuş adını bülbüli-şeyda.

Türabi-dərgəhinə ittisal şövqi ilə
Kəfi-təzərrö'i dəryadə daməni-səhra.

Ziyarəti-hərəmin qılmamaq cəzası üçün
Həvalə xəncəri-seylabə sineyi-dərya.

Cəmii-vəqt şəfaxaneyi-ətasından,
Cəmii-xəlqə müyəssər, cəmii-dərdə dəva.

Rümuzi-hikmətin eylər bəyan məratib ilə,
Cəmii-hali-bəşər, xah fəqrü xah qina.

Mərizi-arizeyi-nəqsdir, nüfus tamam,
Kiminə faidə pərhiz edər, kiminə qida.

Şərif zatlərə övci-imtəhanından,
Vəsileyi-şərəfi-qürb olur nüzuli-bəla.

Xəsis nəfslərə gənci-iltifatından,
Məzidi-illəti-idbar olur vüfuri-əta.

Dəlili-zilləti-üsyandır təərrüzi-hal,
Təriqi-hüsni-rizasi cəmii-halə riza.

Zəhi kərəm ki, nəzər qılmayıb ədavətinə,
Müyəssər eyləmiş iblisə e'tibari-bəqa.

Zəhi kərim ki, ifrati-lütf ehsani
Məsihi eylədi mehrabi-səcdeyi-tərsa.

Fəqiri-dərgəhinə ləzzəti-rizası ilə
Təəllüqati-təriqi-fənadən istiğna.

Əsiri-möhnəti-eşqinə zövqü şövqi ilə
Xilafi-qaidə meyli-təbibü zikri-şəfa.

Zəhi həqiqəti-zatında lafi-əql cünun,
Qapın məqami-müsavati-padişahü gəda.

Nəimi-ləmyəzəli onda kim, sənə vasil,
Müəzzəbi-əbədi ol ki, səndən ola cüda.

Təvafi-Kə'beyi-vəslin təhəssürilə müdam,
Sürudi-seylə səfirü xüruşi-rə'də səda.

Mühəymina, səməda! Bəndeyi-siyəhruyəm,
Səhifeyi-əməlim mə'siyət xətilə qəra.

Tərəhhüm et ki, məni qaməti-şikəstə ilə
Bənövşeyi-çəməni-dərd qıldı bari'-ina.

Nihali-gülşəni-dərdəm ki, su yerinə verər
Mənə həmişə cigər qani bağibani-qəza.

Diriğü dərd ki, əncamə yetdi ömr, hənuz
Xərabi-badeyi-zərqəm, əsiri-dami-həva.

Əzabi-ruzi-cəza vəhmi ilə şamü səhər,
Bir iztirabü əzab içrəyəm məni-rüsva

Kim, ol əzabi məgər iqtizayi-ədl verə
Əzabi-ruzi-cəza münkirinə ruzi-cəza.

Əgərçi qüssə dutar rüzi şəb giribanım,
Əlimdən eyləmən ümmid damənini rəha.

Müqimi-hücreyi-şövqəm fəzayi-qürbündən,
Həmişə səm'i-ümidimdə iştiyaqi-səda.

Ki, ey fəqir, hərimi-vüsalə bismillah,
Təəllül etmə ki, dəmdir əmanət ola əda.

Səhabi-feyz əməl gülşənin qılıb siyrab,
Güli-murad açılıb ola müstəcab dua.

Ümid var ki, ayineyi-zəmirimdən
Həmişə seyqəli-ehsanın ola jəngzida.

Ümid var ki, lütfündən olmaya növmid,
Dili-Füzuliyi-aşüftəhalü bisərü pa.

Müyəssər ola ona şahrahi-eşqində
Dəvami-hüsni-qəbulü səbati-rəsmi-vəfa.

* * *

Nə kim səhifeyi-tədbirə əql edər məstur,
Saqınman ani olur, olmaz olmayan məqdur.

Həvayi-dari-bəla umma hər həvayidən
Kim, ol məqamdədir sərbülənd olan Mənsur.

Hərifi-ərreyi-qəm sanma hər quru ağacı
Ki, yazılur Zəkəriyya adına ol mənşur.

Dili-pürateşi-aşiqdir ahi-sərdlə xoş,
Olur bürudətə mayil təbayei-məhrur.

Füsürdə zahid əgər aşiqi-cigərsuzə
Rəfaqət etsə yüz il zülmətinə düşməz nur.

Saqınma bir arada ixlilat qılmaq ilən,
Dutar mizaci-qərənfil təbiəti-kafur.

Xoşam ki, eşq ilə risvayi-xasü aməm mən,
Fələk bu şiyvə ilə eyləmiş məni məşhur.

Müdam nəqdi-həva xatirimdədir məknun,
Həmişə fikri-məhəbbət dilimdədir məzkur.

Nəçük həva, nə məhəbbət? Məvəddəti-şahi
Ki, xəlqədir səbəbi-feyzi-kirdigari-qəfur.

Məhi-sipəhri-nübüvvət, Mühəmmədi-qürəşi[*],
Çirağı-şami-əbəd, afitabi-sübhi-nüşur.

---

[*] Qüreyşi

Şahənşəhi ki, Süleymani-mülki-mə’ni olub,
Müti’ oldu ona cinnü insü vəhşü tüyur.

Cahanı açmaq üçün tapşırıldı həzrətinə,
Kilidi-məxzəni-məhruseyi-vüqufü şüur.

Yetirdi silsilə tari-hesabi-hicrətinə,
Üzülməsin deyibən rişteyi-sininü şühur:

Şikəsti-nüqreyi-xalis əyari-məh qoydu,
Əyari-nüqreyi-zatında ehtimali-küsur.

Rüxü qədidir olan xəlvəti-cinan içrə,
Çirağі-məclisi-qilmanü şəm’i-məhfili-hur.

Nə şək ki, axdı Bəvadidə barmağından su,
Bu şərhədir mütəzəmmin xütuti-mövci-bühur.

Müxalif əmrinədir badə kim, əyağə düşər,
Nəqizdir ona kim, guşimal yeyər tənbur.

Əya şəhi ki, güruhi-peyəmbəri-mürsəl,
Behiştə basmaz ayaq səndən almadan dəstur.

Əgərçi xaməyə əl urmadın, əlində idi,
Xəti-bətaləti-”Incil”ü hərfi-nəsxi-“Zəbur”.

Nə söz ki, onda sənin yox rizayi-xüddamin,
Qalur sərayi-təbiətdə ta əbəd məhsur.

Burax hicab niqabın gözəl cəmalindən
Ki, ta görə səni ortada görməyən neçə kur.

Bu məsnəd içrə necə məsti-xabi-naz olasan,
Irişdi sübh, gəl aç imdi nərgisi-məxmur.

Fəsad əhli cahana buraxdı yüz fətərat,
Qiyamət oldu, nə yatmaq məcalıdır? Dur, otur!

Zəmanə müntəziri-iqtidayi-əmrinədir,
Sözün nə isə yerit, buyruğun nə isə buyur!

فتحت عين رجائي لسيفك القاهر
قد استعنت به من عدوّك المقهور

بك الملاذ وانت المعاذ في الدّارين
على الصّراط إذا حان للأنام عبور

رجوت أنك تقضي الامور في يوم
بأمر ربّك قد ترجع اليك الامور

لزمت ذيلك ارجو رضاك في الدارين
كفى وثوق رجائي بلطفك الموفور

Şəha, Füzuliyi-dilxəstəyəm, bihəmdillah
Rəhi-şəriətinə tabe’, əmrinə mə’mur.

Olubdürür sözümün nəzmü nəsri nə’tində,
Həmişə gövhəri-mənzumü lö’löi-mənsur.

Fəsahət əhli arasına e’tibarım var,
Nə e’tibar, gər olduysa hey’ətim məhqur.

Özüm həqir bəqayət, sözüm müfid, vəli,
Nəçük ki, hökm misalında sətr beynə sütur.

Ümid var ki, dutduqca mülki-ruh nizam,
Ümid var ki, tapdıqca əhdi-ömr mürur.

Mürüri-ömri sənayi-Rəsul ilən keçürəm,
Öləndə edəm onu ərməğani-əhli-qübur.

* * *

Saçma, ey göz, əşkdən könlümdəki odlarə su
Kim, bu dəklü tutuşan odlara qılmaz çarə su.

Abgundur günbədi-dəvvar rəngi, bilməzəm,
Ya mühit olmuş gözümdən günbədi-dəvvarə su.

Zövqi-tiğindən əcəb yox, olsa könlüm çak-çak
Kim, mürur ilə buraxır rəxnələr divarə su.

Vəhmlən söylər dili-məcruh peykanın sozün,
Ehtiyat ilən içər hər kimdə olsa yarə, su.

Suya versin bağiban gülzarı, zəhmət çəkməsin,
Bir gül açılmaz üzüntək, versə min gülzarə su.

Oxşada bilməz qübarini mühərrir xəttinə,
Xamətək baxmaqdan ensə gözlərinə qarə su.

Arizin yadilə nəmnak olsa müjganım, nola,
Zaye' olmaz gül təmənnasilə vermək xarə su.

Qəm günü etmə dili-bimardən tiğin diriğ,
Xeyrdir vermək qaranqu gecədə bimarə su.

Mən ləbin müştaqiyəm, zöhhad Kövsər talibi,
Netəkim məstə mey içmək xoş gəlir, hüşyarə su.

Istə peykanın, könül, hicrində şövqüm sakin et,
Susuzam, bir gəz bu səhradə mənimçün arə su.

Rövzeyi-kuyinə hər dəm durmayıb eylər güzar,
Aşiq olmuş qaliba, ol sərvi-xoşrəftarə su.

Su yolun ol kuydən topraq olub dutsam gərək,
Çün rəqibimdir, dəxi ol kuyə qoyman varə su.

Dəstbusi arizusundan gər ölsəm, dustlər,
Kuzə eylin toprağım, sunun onunla yarə su.

Sərv sərkəşlik qılır qümri niyazından, məgər,
Damənin duta, əyağinə düşə, yalvarə su.

Içmək istər bülbülün qanın, məgər bir rəng ilə,
Gül budağının mizacına girə, qurtarə su.

Tinəti-pakini rövşən qılmış əhli-aləmə,
Iqtida qılmış təriqi-Əhmədi-Muxtarə su.

Seyyidi-növ'i-bəşər, dəryayi-dürri-istəfa
Kim, səpibdir mö'cüzati atəşi-əşrarə su.

Qılmaq üçün tazə gülzari-nübüvvət rövnəqin,
Mö'cüzündən eyləmiş izhar səngi-xarə su.

Mö'cüzi bir bəhri-bipayan imiş aləmdə kim,
Yetmiş ondan min-min atəşxaneyi-küffarə su.

Heyrət ilən barmağın dişlər, kim etsə istima',
Barmağından verdiyin şiddət günü ənsarə su.

Dusti gər zəhri-mar içsə olar abi-həyat,
Xəsmi su içsə dönər, əlbəttə, zəhri-marə su.

Eyləmiş hər qətrədən min bəhri-rəhmət mövcxiz,
Əl sunub urğac vüzu üçün güli-rüxsarə su.

Xaki-payinə yetəm der, ömrlərdir müttəsil,
Başını daşdan-daşa urub gəzər avarə su.

Zərrə-zərrə xaki-dərgahinə istər sala nur,
Dönməz ol dərgahdən, gər olsa parə-parə su.

Zikri-nə'tin dərdinə dərman bilir əhli-xəta,
Eylə kim, dəf'i-xumar içün içər meyxarə su.

Ya həbibullah! Ya xeyrül-bəşər! Müştaqinəm,
Eylə kim, ləbtəşnələr yanıb dilər həmvarə su.

Sənsən ol bəhri-kəramət kim, şəbi-me'racdə,
Şəbnəmi-feyzin yetirmiş sabitü səyyarə su.

Çeşmeyi-xurşiddən hər dəm zülali-feyz enər,
Hacət olsa, mərqədin təcrid edər me'marə su.

Bimi-duzəx nari-qəm salmış dili-suzanimə,
Var ümidim əbri-ehsanın səpə ol narə su.

Yümni-nə'tindan gühər olmuş Füzuli sözləri,
Əbri-nisandan dönəntək lö'löi-şəhvarə su.

Xabi-qəflətdə olan bidar olanda ruzi-həşr,
Əşki-həsrətdən dolanda dideyi-bidarə su,

Umduğum oldur ki, məhrum olmayam didardən,
Çeşməyi-vəslin verə bu təşneyi-didarə su.

* * *

Çəkər birəhmlər yanında hər saət zəban xəncər,
Günahım sabit eylər, ölməyim xatirnişan xəncər.

Zülali-vəslinə ləbtəşnəyəm bir türki-bədxuyin
Kim, ondan qətreyi-ab istəsəm dartar rəvan xəncər.

Verir pərvanə öz canın sənə çün ixtiyar ilə,
Nə hacət şö'lədən, ey şəm', çəkmək hər zaman xəncər?

Həzər qıl, gəzmə çox pərvasız, ey bülbül ki, qətlinçün
Tikəndən daməni altında qılmış gül nihan xəncər.

Müjən qanım töküb, qəmzən alır canım, əcəb sanma,
Işidir töksə qan ox, adətidir alsa can xəncər.

Qaşınla gözlərindir hər tərəf, ya bir niza' üzrə
Çəkibdir bir-birinə iki sərxoş türkman xəncər?

Xəyali-qəmzən ilə bəs ki, rahət getdi cismimdən,
Sanasan pəhluyi-çakimdədir hər üstüxan xəncər.

Ilətsəm xəncərin şövqini qəbrə, hər bahar olğac,
Olur səbzə yerinə xaki-qəbrimdən əyan xəncər.

Qucar zərrin kəmərlə belini, vəh bu nə tale'dir
Ki, altun qüvvətilə böylə olmuş kamiran xəncər.

Xəyali gözdədir, kirpiklərin dəprətmə, ey mərdüm,
Ədəb şərti degil mehmanə çəkmək mizban xəncər.

Göz açıb busitanə xətti-səbzinsiz nəzər qılsam,
Görünür gözlərimə səbzeyi-hər busitan xəncər.

Dəhanın yox demişlər, söylə bu göftar qandandır,
Belin peyda degil, de qanda dutmuşdur məkan xəncər?

Məhali-əqldir kim, ola müjganın kimi xuni,
Əgər ustad əlindən su yerinə içsə qan xəncər.

Rüxi-zərdim salıbdır xəncərin güzgusinə əksin,
Və ya simin əlində tutduğundur zərnişan xəncər.

Zəbani-tiz ilə ortayə girmiş müttəsil guya,
Olam der madihi-Peyğəmbəri-axirzəman xəncər.

Şəhənşahi ki, tiği-abdari zahir olduqda,
Əlindən saldı Xosrov nizəvü Nuşirəvan xəncər.

Yəməndən baş çəkəndə məhçeyi-rayati-iqbali,
Buraxdı tirə torpağə şəhi-Hindustan xəncər.

Səfarayi-məsafi-Bədrdir izhari-mö'cizdə,
Şikafi-pərniyani-bədr üçün qılmış nişan xəncər.

Əduyi-cahinin qət'i-həyatiçün çəkər hər ay,
Qilafi-lacivərdidən hilali-asiman xəncər.

Səhər feyzi ki, düntək tirə qılmazdı dili-safın,
Günəştək qəsdinə çəksəydi min namehriban xəncər.

Səxi təb’i ki, rüxsarə sipərtək çin buraxmazdı,
Əgər qəsdinə çəksəydi qamu əhli-zəman xəncər.

Olurdu dideyi-bədbinə izhari-nübüvvətdə,
Onun göndərdiyi hər nameyi-mö’cüzbəyan xəncər.

Ğəzalərdə duayi-cövşənində çarə qılmazdı,
Özün hər necə qılsa təcrübə tir, imtəhan xəncər.

Əya şahi ki, baxsan xəncəri-şər’in nizamiçün,
Çəkibdir min şahənşəh tiğü min sahibqiran xəncər.

Əgər qamusi-şər’in olmasaydı xəlqə müstövli,
Nə bir pürdil çəkərdi tiğü nə bir pəhlivan xəncər.

Nəqizi-hökmünün qət’i-fəsadiçün əliflərdən,
Kəlamüllah bihəd tiğ çəkmiş, bikəran xəncər.

Münafiq edə bilməz şər’inə mədxəl ki, çevrəndə
Məlaik pərrü balın görsə, div eylər güman xəncər.

Bihəmdillah ki, hala dideyi-bədxahə nə’tində
Füzuli nəzminin hər sətridir bir cansitan xəncər.

Zəbani-xaməsi isbati-e’cazında küffarə,
Gəhi dilduz navək göstərir, gəh xunfəşan xəncər.

Şəfiül-müznibina, məhşər əyyami ki, duzəxdən,
Çəkər hər ləhzə mücrim qəsdinə bir biəman xəncər.

Budur ümmid kim, məhfuz olam hisni-pənahində,
Qilaf içrə nəçük kim, saxlanır, görməz ziyan xəncər.

* * *

Ab lövhi üzrə çəkmiş mövcdən mistər səba,
Səbzədən nəql etməyə vəsfi-xəti-dilbər səba.

Almaq içün qiymətilə səbzədən şəbnəm dürin,
Yasəməndən sim tökmüş, ya səməndən zər səba.

Ağzın əsrarın dilər faş edə, açıb qönçəyi,
Gör nə rəng ilə qılır izhar hər müzmər səba.

Əncümənlər seyr edib nəsrin bəyazın gəzdirir,
Hüsni-xülqində dürüst etmək dilər məhzər səba.

Infial etmiş məgər sür'ətdə Rəxşindən sənin
Kim, gəzər məxfi, görünməz kimsəyə michər səba.

Axtarıb bulmaq dilər vəsfi-rüxün kim, müttəssil
Nüsxeyi-gülbərg övraqın qılır əzbər səba.

Abgun tiğincə olmaz, bunca daim kim verür
Tiği-abi-cuyibarə mövcdən cövhər səba.

Ayağın toprağını yerdən alır tə'zim ilə,
Qaliba düzmək dilər başına bir əfsər səba.

Eşidibdir, qaliba, qəddinlə şəm'in bəhsini,
Hər qaçan gördiysə eylər şəm'ə qəsdi-sər səba.

Asitanında müqim olmağa bulsaydı qəbul,
Həq bilir, olmazdı sərgərdani-bəhrü bər səba.

Asimanə qədrlə çıxsa nə hasil, çün degil
Ona qabil kim, ola qapında xaki-dər səba.

Atəşi-bidadə göymüşdür, olubdur dadxah,
Gördüyü yerdə saçar başına xakistər səba.

Abi-dərya üzrə gəh Ilyasvəş seyran edər,
Gah eylər məskən Ibrahimtək azər səba.

Oddan afət görməzü sudan zərər, guya qılır
Qanda olsa iqtidai-şər'i-Peyğəmbər səba.

Əhmədi-mürsəl ki, fərmanbər Süleymandır ona
Eylə kim, gördü Süleyman oldu fərmanbər səba.

Ol şahənşəh kim, rizasilən gəzər hər qanda var,
Gər şimalü gər dəburü gər cənubü gər səba.

Ey güli-bağі-rüsül, bir tazə gülşəndir qapun
Kim, dəmi-Cibrilə ol gülşəndə tə'n eylər səba.

Istəyib bulmaz qapun feyz almaq içün, müttəsil
Qanğı gülşən seyrinə girsə çıxır müztər səba.

Ilətir xaki-dərini zərrə-zərrə gülşənə,
Qılmaq içün tutiyayi-dideyi-əbhər səba.

Atəşi-bidad ilə aləm yanar, gər qılmasa
Ədlini şaye', gəzib hər dəm yedi kişvər səba.

Olduğiçün düzdtək pünhan girüb güşənlərə
Bisəbəb rəxti-gülü nəsrinə qarətgər səba,

Öz günahinə şəfaət istəyib, fəryad edib
Çizginür xaki-məzarin üzrə ta məhşər səba.

Etməzsəm tərki-təmənnayi-təvafin çıxsa can,
Xak həm olsam qübarimni sənə iltər səba.

Açmış ümmidi-rəhi-vəslin dili-pürxunimi,
Eylə kim əsli-bahar açar güli-əhmər səba.

Eylə incəldim, zəif oldum ki, xaki-kuyinə
Qabiləm xaşaktək olsa mənə rəhbər səba.

Iltimasım bəxtdən oldur ki, cari hökm ilə,
Ta rəyahinə çəmən mülkündədir sərvər səba,

Ola nə'tindən Füzulinin kəlami dilpəzir,
Eylə kim, güldən bulur ənfasi-canpərvər səba.

* * *

Irişdi vəqt ki, fəsli-xəzani-nahəmvar,
Qıla xünək hərəkatın müzahimi-əşcar.

Sipahi-bəhmənü dey laləvü gül əsbabın,
Hücum eyləyibən qarət eyləyə nə ki, var.

Çəmən zəriflərin rəncidəxatir eyləməgə,
Nəsimdən ola zahir süluki-nahəmvar.

Həva müxalifətindən tapılmaya mütləq,
Mizaci-namiyədə e’tidaldən asar.

Səba lətafət ilən gülşən içrə sair ikən,
Bula zəmani-səba tək təğəyyüri-ətvar.

Açub təərrüz əlin zəmhərir gülzarə,
Nə bərg qala bu qarətdə busitanda, nə bar.

Xoş ol ki, duta bu mövsimdə guşeyi-üzlət,
Tərəddüd etməyə mütləq qərarə verə qərar.

Hüzurilən girə bir küncə ibtidayi-xəzan,
Sürurilən çıxa bir bağə ibtidayi-bəhar.

Arada bilməyə baranü bərfü bad nədir,
Yetirməyə əsəri-dövr xatirinə qübar.

Ona rəfiq həman bir kitab ola, bir saz,
Ona nədim həmin bir qədəh ola, bir yar.

Mənəm bunun kimi əyyamda sərasimə,
Əsiri-dami-bəlavü sitəm, qəribi-diyar.

Nə seyr qılmağa pərgartək tənimdə təvan,
Nə nüqtətək bir arədə oturmağa yer var.

Həzar qəm mütəvəcceh mənə, bu həm bir qəm
Ki, yoxdurur qəmi-dil zahir etməyə qəmxar.

Nə bir rəfiq ki, həmdərd olam məni-miskin,
Nə bir təbib ki, dərdi-dil eyləyim izhar.

Xəzan içində qalan gül budağiyəm ki, həva
Mənə şikəst verib qalmışam bürəhnəvü xar.

Kimi ki, dust dedim çıxdı düşməni-canım,
Kimi ki, yar dedim oldu aqibət əğyar.

Bu fəqrilən ki, mənim rahətim durur müşkül,
Bu halilən ki, mənim dirliyim durur düşvar,

Məgər mədəd qıla ol padişahi-kişvəri-elm
Ki, elmidir qamu əşyayə vaqifi-əsrar.

Şəhi-səriri-Nəcəf, afitabi-övci-şərəf,
Əliyyi-aliyi-ə’la, qəsimi-cənnətü nar.

Ümid var ki, bir şəmmeyi-inayət ilən,
Mücəddədən verə lütfi təsəlliyi-məni-zar.

Rəayətimi rücü’ edə pak nütfəsinə,
Yeganə Seyyidi-ərşasitanü kuhvüqar.

Məhi-sipehri-səyadət Kəmuneyi-sani
Ki, surəti-Həqədir zati-paki ayinədar.

Büləndmərtəbəi kim, ülüvvi-qədrindən
Hərimi-dərgəhinə Cəbrəil bulmaz bar.

Əya, büləndnəzər, mahi-afitabəsər
Ki, rə’yi-pakin iləndir mürüri-dəhrə mədar!

Səfayi-məşrəbinə e’timad eyləyübən,
Bir-iki nüktə bəyan eyliyim məni-əfgar.

Tənəffür eyləmə kim, bikəsəm məni-bikəs,
Özümdür öz sözümü ərzə eyləyən naçar.

Şəha, mən istər idim bir zəvalsız sayə
Kim, onda olmaya mütləq məzərrəti-əşrar.

Sənə yetirdi məni hadiyi-rəhi-təhqiq,
Dedi: – Budur ki, dilərsən, itirməgil zinhar!

Bu gün ümid ilə bir ömrdür ki, dərgəhinə
Buraxmışam səri-ixlasü sidq leylü nəhar.

Ümid var ki, ümmidim olmaya hirman,
Ümid var ki, iqbalım olmaya idbar.

Cəmii-əhli-cahana bu nüktə rövşəndir
Ki, müslüm əhli-səadətdirü şəqi küffar.

Təmami-zümreyi-islamə həm müqərrərdir
Ki, cümlədən yey olur ali-Əhmədi-Muxtar.

Bu həm mühəqqəq olubdur cəmii sadatə
Ki, sənsən Əhmədi-Muxtar nəslinə sərdar.

Dəlili-vazeh ilən vazeh oldu kim, sənsən
Güzini-əhli-cahan, məlcəi-siğarü kübar.

Gərək ki, sən olasan cümleyi-cahana pənah,
Gərək ki, sən olasan əhli-fəqrə istizhar.

Əgər təriqi-mürüvvət sənə həm olmasa rəsm,
Həqiqətində vəfadan tapılmaya asar,

Əcəb yox eyləsəm ikrah əhli-iymandan,
Cəmii-zümreyi-islamdan olub bizar,

Nəcəfdə bağlamayam Al xidmətinə kəmər,
Gedib firəng diyarinə bağlayam zünnar.

Bəlalərin çəkübən dönməyib təriqindən,
Dutub təriqi-süluki-mühacirü ənsar.

Məni təriqinə ixlasi-pakü sidqi-dürüst
Çəkibdürür ki, sənə candan etmişəm iqrar.

Əgər günah isə ixlasim, eyləyim tövbə
Və gər xəta isə sidqim, qılayım istiğfar.

Əgər qəbul və gər naqəbul, xidmətinə
Özümü mən sanıram bir kəminə xidmətkar.

Əgər təriqeyi-xidmətdə qılmışam təqsir
Və gər qapında tapıb bəhrə, etmişəm inkar,

Mənə həram ola rahət ki, tapmışam səndən
Və gər nə xəsmə müvəkkil mühəymini-cəbbar.

Şəha, Füzuliyi-üftadə xaki-rahindir,
Həmişə nəqdi-həyati sənin yolunda nisar.

Demə, ki, mülkə həvəs edə, yoxsa malə təmə'
Nə mülkü malə baxar dideyi-ülul-əbsar.

Əsiri-dami-bəladır və gər nə ziyvər üçün
Təvəccöh etsə, degil ona dari-dünya dar.

Müdam ta fələki-tizgərd dairdir,
Həmişə ta ki, tapar əmri-aləm istimrar,

Səni ki, cümleyi-aləmdə fərdi-kamilsən,
Pənahi-əmnü əmanında saxlasın Səttar.

* * *

Qönçə bağrı dəhr bidadilə əvvəl qan olur,
Sonra yüz lütf ilə könlü açılır, xəndan olur.

Qətreyi-baran ki, bir müddət sədəf həbsin çəkər,
Yox ikən qədri, tapıb qiymət düri-qəltan olur.

Danə topraq içrə şiddət çəkdigiçün neçə gün
Yetər caninə mədhindən dəmadəm zövqlər, guya
Ki, tari-gövhəri-mədhin qılıbdır rişteyi-candan.

Ilahi, ta nəsimi-sün’ təhrikilə aləmdə,
Olur damani-gülşən pürgühər əbri-dürəfşandan,

Riyazi-qədrinə gün-gündən əfzun ola cəm’iyyət,
Ümidin gülşəni məhrus ola seylabi-hirmandan.

* * *

Afərin, ey saneyi-tənpərvəri-canafərin!
Xaliqül-əşya, ilahül-xəlq, rəbbül-aləmin!

Mübdi’i-asari-qüdrət, əqdi-peyvəndi-vücud,
Zabiti-ərkani-fitrət, nəqşbəndi-maü tin.

Ey səmumi-sətvətin tə’siri, niyrani-cəhim
Vey səhabi-rəhmətin siyrabi firdövsi-bərin.

Qüdrətin gülzarına bir səbzə Sidrül-müntəha,
Hikmətin şəm’inə bir pərvanə Cibrili-əmin.

Sün’in eyvanında bir qəndil dövri-asiman,
Sən’ətin dibaçəsində bir vərəq ruyi-zəmin.

Dərgəhi-tə’zimü təkrimində aləm kamcuy,
Xərməni-ehsanü əltafində Adəm xuşəçin.

Ərseyi-idraki-fövzi-rif’ətin darül-əman,
Rişteyi-ümmidi-feyzi-rəhmətin həblül-mətin.

Xakdən hər zərrə tə’yidinlə bir cismi-lətif,
Abdan hər qətrə tövfiqinlə bir dürri-səmin.

Ol əmimül-feyzi-mün’imsən ki, feyzi-şamilin
Rizq təqsimində qılmaz imtiyazi-küfrü din.

Vadiyi-dərkindədir sərgəştə fəhmi-tündseyr,
Mülki-tövhidindədir məhsur əqli-durbin.

Elmi-irfanında hər kim tizbin olmuş, vəli
Hiç şək yoxdur kim, ol idrakı həsr etməz yəqin.

Iqtizayi-hikmətin izhari-qüdrət qılmağa,
Ixtilafi-təb' ilə əzdadi etmiş həmnişin.

Hadisati-ixtilafi-dövrdən görməz xələl,
Kimə kim, mə'mureyi-hifzin ola hisni-həsin.

Hiç kim cürm ilə dərgahından olmaz naümid,
Səndən istər kam, əgər risva, əgər xəlvətnişin.

Sənsən izhar eyləyən mə'şuqə aşiq şövqünü,
Aşiqi sənsən qılan mə'şuqə şövqilə həzin.

Nəş'eyi-eşqinlədir Məcnun sürudi dərdnak,
Pərtövi-hüsnünlədir Leyli cəmali nazənin.

Padişaha, iqtiyazi-hikmətin tənbih edib,
Gərçi hura rövzeyi-taata qoymuşdur cəbin,

Taətin eylər Füzuli taqət olduqca, vəli
Hirs ilə nə rövzeyi-rizvan dilər, nə huri-eyn.

Huri-eynü rövzeyi-rizvan həvayi-nəfsdir,
Nəfsdən keçmişdir ol, səndən riza istər həmin.

* * *

**1**

Şükr kim, çərx istiqamət üzrə dövran eylədi,
Cəm'i-əhli-dövlət ə'dasin pərişan eylədi.
Dəhrə xəlqi-Bəsrəvü əhli-Cəzayir fitnəsi
Çox zamanlar gərçi qan yutdurdu, pünhan eylədi,

Aqibət bimi-zərərdən padişahi-aləmi,
Bizzərurə vaqifi-asari-isyan eylədi.
Qeyrəti-hökmi-xilafət ol diyarın fəthini
Bir mücahid bəndeyi-məqbulə fərman eylədi.
Məzhəri-rəhmət, Əyasi-mərhəmətəndişə kim,
Ani övci-ədlə Həq xurşidi-rəxşan eylədi,
Sayəvəş torpağa saldı düşməni-bədxahini,
Hər yerə kim, rə'yəti əzmin xuraman eylədi.
Bəsrə təsxiri, Cəzayir fəthi müşkil əmr ikən,
Əshəli-əmr ilə bu dişvari asan eylədi.
Hiç şək yox kim, bu nüsrət nüsrəti-islamdır,
Padişahın mülkinə isbati-istehkamdır.

**2**

Qıldı Bağdad üzrə fəth içün mürəttəb bir sipah
Kim, ələmdən bad təhrikilə məsdud oldu rah.
Kəsrət ol qayətdə kim, əncüm tökülsə çərxdən,
Ziynət içün bir gühər bulmazdı onda hər külah.
Gər səba nagəh arayə düşsə manəndi-hübab,
Onlara iltirdi ləşkər izdihamından pənah.
Vəhş ilə teyrü mələk yüz dutdu qürbət əzminə,
Qalmayıb onlara ləşkərdən vətəndə cayigah.
Hər yana qaldırdı rə'yət bir əmiri-namidar,
Hər yana səf bağladı bir sərvəri-Cəmşidcah,
Dutdu səf-səf yer üzün ləşkər süturi-xət kimi,
Ol xətin məzmüni istiqlali-hökmi-padişah.
Etmək olmaz böylə ləşkər cəm'ini tədbir ilə,
Yarü yavər olmasa tövfiqü tə'yidi-ilah.
Hiç şək yox kim, bu nüsrət nüsrəti-islamdır,
Padişahın mülkünə-isbati-istehkamdır.

**3**

Mahi-növdən Dəclədə göstərdi zövrəqlər misal,
Kim görübdür kim, ola bir asimanda min hilal.
Hər biri bir tayiri-övci-bəladir tizpər,
Seydi-mürği-ruhi-xəsm eylər qılıb təhriki-bal.

Yoxsa saildir, dəhanində qızıl bayraq zəban
Hakimi-təqdirdən fəthi-bilad etmiş sual.

Könlü açılmış, məgər bulmuş bu rəng ilə cəvab
Çərxi-əxzərdən ki, mane yox təvəccöh eylə al!

Suda bir zövrəqmi? Yaxud ağzın açmış bir nəhəng
Beyrəq ol ataş ki, bulmuşdur dəmindən iştial.

Sərvəri-sahibzəfər zövrəqlər ziynət verib,
Qıldı düşmən mülkünə ərsali-əsbabi-qital.

Saldı qovğayi-tüfəng məğzinə ə'danın qiriv
Buldu vəhmindən mizaci-mülki-düşmən ixtilal.

Hiç şək yox kim, bu nüsrət nüsrəti-islamdır,
Padişahın mülkünə isbati-istehkamdır.

**4**

Rayətin bir canibindən eyləyib gərdun xüram,
Gərdi-ləşkərdən rüxün gərdunun etdi mişkfam.
Rüxsəti-əzmi-qəza Şahi-Nəcəfdən istəyib,
Gəldi dərgahinə göstərdi təriqi-ehtiram.
Buldu ol sultani-adildən kəmali-iltifat,
Pir irşadiylə xoşdur hər əməldə ehtimam.
Büq'ə-büq'ə qıldı teyy mə'mureyi-məhrusəyi
Aldı feyzi-fəthi-mülk içün duayi-xasü am.
Yetdi ol sərhəddə kim, ağazi-mülki-xəzmdir,
Girdi ol meydanə kim, hökm onda olmuşdur təmam.
Gəldi ol mənzildə ruzi-eyd kaxi-payinə,
Fəthdən verdi bəşarətlər kim, ola şadikam.
Yeddi əxtərdən fələk düzdü onunçün bir qətar
Kim, çəkər səhrada əsbabi-sipahin sübhü şam.
Hiç şək yox kim, bu nüsrət nüsrəti-islamdır,
Padişahın mülkünə isbati-isehkamdır.

**5**

Şeyxi Ali-Qaş'əmin şərrilə bir şeytan idi,
Məmləkət içrə fəsadi şöhreyi-dövran idi.

Gərçi surətdə itaət zahir eylərdi, vəli
Surəti-axşami xali-çöhreyi-üsyan idi.
Müqtədasi əmrü nəhyindən həvayi-nəfs olub,
Şər' hökmü vadiyi-rə'yində sərgərdan idi.
Qanğı xirmənsuxtə zər'inə qılsa bir nəzər,
Bəzr üçün hər nəsnə kim qoysaydı, bir ehsan idi.
Baş çıxarmaq istəməzdi zər vəhmindən onun,
Gərçi fəllahin gözü yaşı ona baran idi.
Hər evə bir gecə mehman olsa qövmündən biri,
Adı mehmanlıq, vəli mə'nidə bir talan idi.
Qıldı paşayi-səadətmənd rəf' ol fitnəyi,
Sanmanız kim, dəf'i-tədbiri onun asan idi.
Hiç şək yox kim, bu nüsrət nüsrəti-islamdır,
Padişahın mülkünə isbati-istehkamdır.

**6**

Ol qəzadən kişvəri-ə'dayə dəprəndi ələm,
Düşdü bir səhrayə rəh kim, artırır zikri ələm,
Bir biyaban kim, yox onda növ'i-insandan əsər,
Ona nisbət vadiyi-mərdümnişin mülki-ədəm.
Nəqşi-rigi xətti-afət, növki-xari tiği-kin,
Yer mizacında bəla müzmər, həva təb'ində səm.
Fəsl həm bir fəsl kim, sərd olmağın abü həva,
Xəlqdən qət'i-həyat eylərdi Isa ursa dəm.
Öylə mühlik şiddəti-dey kim, hərarət bulmağa,
Gördüyü yerdə düşərdi odlara xurşid həm.
Öylə qate' tiği-sərma kim, ləhəddən çıxmağa,
Ruh əgər əmvatə övd etsəydi eylərdi sitəm.
Böylə mövsim böylə səhrayi dəlili-xeyr ilə
Qət' edib ləşkər Cəzayir mülkünə basdı qədəm.
Hiç şək yox kim, bu nüsrət nüsrəti-islamdır,
Padişahın mülkünə isbati-istehkamdır.

**7**

Ərseyi-mülki-Cəzayir oldu nagəh aşikar,
Himmətə ərz etdi gərdun bir nihayətsiz diyar.
Kəsrəti-əşcari ol qayətdə kim, ol mülkdə
Bilməmiş abü zəmin hərgiz ki, bir xurşid var.

Sanasan hər nəxli bir julidəmu divanədir,
Gər ona zəncir ab olmazsa, dutmazdı qərar.
Ərseyi-şətrənctək səhnində şətlərdi xütut,
Qəl’ələr xət kimi ol şətt üzrə bihəd bişümar.
Gərçi onlar məqsədi-əsli degildi ləşkərə
Olmağın ol firqeyi-napak xaki-rəhgüzar,
Əshəli-əmr ilə çox sərləşkəri pamal edib
Binəhayət qəl’əyi-möhkəm olundu tarümar.
Qəl’ələr fəthin kilidi-babi-nüsrətdür deyü
Səfheyi-əyyamə təhrir etdi kilki-ruzigar.
Hiç şək yox kim, bu nüsrət nüsrəti-islamdır,
Padişahın mülkünə isbati-istehkamdır.

**8**

Oldu ondan sonra peyda Bəsrə əhlindən nişan,
Fitnə odundan şərərlər qıldı zahir asiman.
Gəldi istiqbalə çox səngindilü ahənqəba
Oldu aləmsuz səngü ahəni-atəşfəşan.
Hər dilavər nadiri-mülki-Xorasanü Iraq,
Hər mübariz sərxəti-məcmueyi-Hindustan.
Ləşkəri-islam ilə ağazi-ülfət eyləyib
Aşinalıq dəmbədəm əfzun olub qaynardı qan.
Münhəzim ləşkərdən amma bir ələmsiz həm degil,
Zəhri ol qövmin zənəbdən saçılıb zənbursan.
Ol fəzayi-möhnətəfzadən yetincə Bəsrəyə,
Dəhr bağı-fitnədən bir gül açardı hər zaman.
Leyk bir fərd olmadı zaye’ sipahi-Rumdən,
Rəzm sevdasında ol tüccarə düşmüşdü ziyan.
Hiç şək yox kim, bu nüsrət nüsrəti-islamdır.
Padişahın mülkünə isbati-istehkamdır.

**9**

Bir səhər kim tiği-zərrin çəkdi şahi-baxtər,
Gög üzündə qoymadı əncüm sipahindən əsər.
Bəsrəyə qarşı sipahi-Rumdən ərz oldu səf,
Bağladı ruyi-zəmin bədxah qətlinə kəmər.

Rə'yəti-xəzra çəkildi ol həsarın fəthinə,
Yoxsa qəl'i-qəl'eyi-küffarə Cibril açdı pər?
Nəhri-ə'şari üburi-ləşkər içün doldurub
Mari-Zöhhakə Firiduni-zəman buldu zəfər.
Çeşmi-xurşidi sinanü rumhi-xunxar etdi kur,
Guşi-gərduni sədayi-nayi-ruyin qıldı kər.
Gəldi düşməndən müqabil bir sipahi-bikəran
Kim, səvadi-kəsrətin həsr edə bilməzdi nəzər.
Ləşkəri-islamə nüsrət verdi lütfi-Kirdigar,
Şam olunca qalmadı ol şö'lələrdən bir şərər.
Hiç şək yox kim, bu nüsrət nüsrəti-islamdır,
Padişahın mülkünə isbati-istehkamdır.

**10**

Şam kim rüxsarə çəkdi xosrovi-əncüm niqab,
Qıldı Şeyxi-Bəsrə bəxti səltənət təxtində xab.
Verdi əqlü rə'yinə dəxli-məhabət inhiraf,
Saldı cismü canına əmri-səlabət iztirab.
Qaçdı ol duni-siyəhru dövlətü iqbaldən,
Öylə kim, şəhbaz vəhmindən fərar eylər qürab.
Sayəsin toprağə saldı hər tərəfdən ol həsar,
Salıcaq bir canibindən şö'leyi-xurşid tab.
Sübhdəm paşayi-adildən münəvvər oldu mülk,
Oldu zail zülməti-şəb saldı pərtöv afitab.
Verdi mülkü malü cismü canına xalqın aman,
Qıldı cənnət ol yeri, cənnətdə xud olmaz əzab.
Yetmədən acizlərə qövğayi-ləşkərdən zərər,
Bitəkəllüf xoş kəramətdir zərərsiz inqilab.
Hiç şək yox kim, bu nüsrət nüsrəti-islamdır,
Padişahın mülkünə isbati-istehkamdır.

**11**

Sərvəra, bədxah xaki-rəhgüzar olsun sana,
Qanda kim, əzm eyləsən tövfiq yar olsun sana!
Olmasın başından əskik padişahın sayəsi,
Hirzi-dövlət sayeyi-Pərvərdigar olsun sana!

Qılmasın lütfi nihan rə'yi-müniridən fələk,
Hər nihani-lütf kim var, aşikar olsun sana!
Çəkməsin şəmşirdən minnət səlahi-dövlətin,
Müslihi-əhval dövri-ruzigar olsun sana!
Fəth üçün hər qanda kim, dəprənsə əzmin rə'yəti,
Düşməni-bədxah xarü xakisar olsun sana!
Olmasın xamuş bağı-mədhinin bülbülləri,
Daii-dövlət Füzulitək həzar olsun sana!
Əvvəli-əzmində fəthi-mülkə nüsrət bulduğun,
Mövcibi-təkmili-izzü e'tibar olsun sana!
Hiç şək yox kim, bu nüsrət nüsrəti-islamdır,
Padişahın mülkünə isbati-istehkamdır.

* * *

K'andan tapar xaki-zəmin feyzi-bahari-dilgüşa.

Bürhani-Həqdir, ey könül, hər nəstərən nisbətli gül,
Sane' olan mümkün degil, məsnu'idən olmaq cüda.

Ta xətmi-əhvali-dərun ərz etdi əqli-zifünun,
Mə'budə oldu rəhnümun, tapdı təriqi-ihtida.

Sabit həqi gülnar edər, xaliq ki, yoxdan var edər,
Bir kandan izhar edər min türfə lə'li-xoşnüma.

Cəm'i-pərişan kim, itər, rəhbərləri sünbül yetər
Kim, tirə torpaqdan bitər, eylər könüllər mübtəla.

Həq məzhəridir hər çiçək, gər dutsan ey nəqqaş şək,
Bir narvən şəklini çək, vergil ona nəşvü nəma.

Xət verdi reyhan kim, yəqin bir Tanrı var, ey əhli-din,

Dutmuş həqə nərgiz yüzün, açmış həqiqətbin gözün,
Qılmış nəzər, görmüş özün sirri-həq ilə aşina.

Bustanda gör nilufəri, dutmuş təriqi-bərtəri,
Əzharın olmuş rəhbəri, gör onda əsrari-Xuda.

Rahi-tələbdir biədəd, mə’budə ey əhli-xirəd,
Gər istəsən qürbi-səməd, sədbərg olur rəhbər sana.

Zinhar məhv ol hikmətə, baxqıl kəmali-qüdrətə,
Nilufəri-xoşsurətə, gör kim verir abü həva.

Gər olmasan mədhuştək, baxsan bir əhli-huştək,
Həqqa ki, bərzənguş tək, təsbihxandır hər giya.

Şah oldu minbər yeksərə, çıxdı kinufə minbərə,
Səlvat edər Peyğəmbərə, səllüəla xeyrülvərə.

Səhni-çəməndə ərğəvan, hər bərgini etmiş zəban,
Təkrar eylə hər zəman mədhi-Əliyyül-Murtəza.

Zaye keçirməz yasəmin ömri-lətifü nazənin,
Ixlas ilə eylər özün xaki-rəhi-Xeyrün-nisa.

Türbə rəyahin sərbəsər kəsb etdi ətri-müşki-tər,
Xülqi-Həsəndən bir əsər gülzarə göstərcək səba.

Zahir qılır xunin kəfən, lalə qılır yüz parə tən,
Dutar dönüb tərfi-çəmən, Şahi-şəhid içün əza.

Abidsifət çəkməkdə qəm, olmuş bənövşə qəddi xəm,
Guya qılır ol pak həm, Zeynəl-Ibadə iqtida.

Qəm dəf’i içün hər tərəf, gülşəndə çəkmiş səbzə səf,
Baqir sənasində şəğəf bulmuş qılır virdi-səna.

Feyzi-Həq etmiş arizu, çıxmış şəqayiq sürxru,
Qılmış biəmri-Həq gülü Sadiqi qılmış pişiva.

Qəhr ilə çərxi-lacivərd gər yasəmini qılsa zərd,
Nə qəm çu görcək əhli-dərd, eylər ona Kazim dəva.

Kəşf etməyə əsrari-Həq açmış səmən simin vərəq,
Vermiş ona guya səbəq, elm içrə şahi-din Riza.

Lö'bətsifət gör zənbəqi, gülzara vermiş rövnəqi,
Olmuş həvaxahi-Təqi, kəsb eyləmiş ondan səfa.

Məddahtək susən dili olmuş mədayih naqili,
Mədhinin olmuş qaili, sultan Nəqiyyi-bəhr əta.

Nəsrinin açıq dəftəri olmuş həqayiq məzhəri,
Ondan sifati-Əskəri fəhm etmiş ərbabi-zəka.

Vəqt oldu qönçə açıla, gül xürdəsin zahir qıla,
Mehdi zühurini bilə, faş edə sirrini qəza.

Hər yerdə ta novruz ola, gül busitanəfruz ola,
Novruz tək firuz ola əyyami-şahi-övliya.

Yə'ni güli-gülzari-can, Heydər imami-mö'minan,
Ol kim, onadır bigüman, miskin Füzuli bir gəda.

* * *

Bir gün ki, cündi-şamilə cəng etdi asiman,
Oldu büruci-qəl'eyi-gərdunda çox qiran.

Aldı əlinə tiğini Bəhrami-dadgər,
Baruyi-çərxə çıxdı nəbərd etməyə həman.

Hifz etməyə qila'ini qat-qat fələklərin,
Ol gecə bami-çərxə Zühəl oldu pasiban.

Ətrafi-kainatə xəbər qılmağa günəş,
Od yaxdı övci-qəl'əyi gərdunə nagəhan.

Top atmış idi qəl’əyi-gərdünə xeyli-Şam,
Oldu livayi-xosrovi-xavər həman əyan.

Mindi təkavəri-fələkə əzmi-rəzm edib,
Oldu ədəm məmalikinə şəbrəvan rəvan.

Sultani-sübh böylə yüzağlıq edərmidi,
Gər olmasa pənahı vəziri-şəhi-cahan.

Fehristi-karnameyi-təkvini-nöh sipehr,
Məqsudi-karxaneyi-ibda’i-kün fəkan.

Asəfsəfi-zəman, Süleymani-şərqü qərb,
Sərəskəri-müdəbbirü paşayi-kamiran.

Bu izzü şövkəti ki, sənə verdi Həq, şəha,
Layiq önüncə olsa əgər Ərdəvan dəvan.

Görsə məhabətini, əya Rüstəmi-dəqa,
Qəhrindən istər idi sənin qəhrəman əman.

Xəsmin qəfası qülleyi-Qaf olsa, filməsəl,
Xürd edə zərbi-dəstin ilə şeşpəri-giran.

Hinduyi-müqbil olmağa qapında dəmbədəm,
Bir kətxudadürür sənə Iskəndəri-zəman.

Aldı qanadı atına gərdunu beyzəsan,
Şəhbazi-himmətin ona ərş oldu aşiyan.

Bənzətdi varsa kəndini rəxşi-cəlalinə
Kim, çərxi-dunun üstünə yol sürdü kəhkəşan.

Ibrahim oldu adın, əya kani-mə’dələt,
Bu fəqr atəşini mənə eylə gülsitan.

Gülzari-mədhinə uçar ikən könül quşu,
Can bülbülü bu şe’ri-təri oxudu həman.

Ağzın hədisinə açamaz zərrəcə dəhan,
Əsrari-təb'ə vaqif olan təb'i-xürdədan.

Ey sərvi-xoşxuram, saqın, yoluna gəlir,
Hər suyə su kimi gəl axıtma yaşım rəvan.

Gözdən çıxalı gəlmədi heç eynimə yaşım,
Mərdüm kimi kim, eyləyə kəndu yerində qan.

Cami-səfayi sun dolu, ey piri-deyr kim,
Bir ləhzə dövrün acılığın unudum həman.

Məddah olalı sana, əya mö'təbər cənab,
Oldu Füzuli ərseyi-nəzm içrə pəhləvan.

Qaldım ayaqda qüssəvü möhnətdə, al əlim,
Ey şəhsüvari-mə'rəkəyi-axirəzzəman.

Rumun Kəmalıdır, der idi mana, xosrova,
Görsə kəmali-qüdrətimi əhli-Isfəhan.

Xətm eylə dastanı, şüru et duasinə,
Tul etmə gəl hekayəti manəndi-qissəxan.

Ta həlqeyi-sipəhrə hücum eyləyə nücum,
Ta kim, niyami-şəbdə ola tiği-zərnişan,

Taxıb kəmənd gərdəninə zərbi-dəstilə,
Dövlət qapına xəsmi gətirə kəşan-kəşan.

Nişani-feyzdir ol nüsrətü iqbal kim, hala
Nə yanə əzm qılsa rəhbəri tə'yidi-Yəzdan.

Dilü candan Füzuli izzü iqbalinə ol şahın,
Rizayi-həqq üçün daim duaguyü sənaxan.

Çü oldur hamiyi-islam, vacibdir onun mədhi,
Nə kim, mədhindən özgə söyləmiş ondan peşiman.

Ilahi, baqi olsun daim insanpərvər iqbalı,
Cahani-fani içrə ta bəqayi-növ'i-insan.

## MƏRSIYƏ DƏR HƏQQİ-XAMİSİ-ALİ-ƏBA HƏZRƏTİ-SEYYİDÜŞ-ŞÜHƏDA

Mahi-məhərrəm oldu şəfəqdən çıxıb hilal,
Qılmış əza, töküb yüzə xun birlə əşki-al.
Övladi-Müstəfayə mədəd qılmamış Fərat,
Keçirməsinmi yerlərə anı bu infi'al.
Çoxdur hekayəti-ələmi-şahi-Kərbəla,
Əlbəttə çox hekayət olur mövcibi-məlal.
Ibrətlə bax, qəmi-şühəda şərhin etməyə
Hər səbzə Kərbəladə açıbdır zəbani-hal.
Təcdidi-matəmi-şühəda qıldı ruzigar,
Zar ağla, ey könül, bugün olduqca ehtimal.
Meydani-çərxi cilvəgəhi-dudi-ah qıl,
Gərduni-duni guneyi-matəm siyah qıl.

Mahi-məhərrəm oldu, məsərrət həramdır,
Matəm bugün şəriətə bir ehtiramdır.
Təcdidi-matəmi-şühəda nəf'siz degil,
Qəflətsərayi-dəhrdə tənbihi-amdır.
Qovğayi-Kərbəla xəbərin səhl sanma kim,
Nəğzi-vəfayi-dəhrə dəlili-təmamdır.
Hər zərrə əşk kim, tökülür zikri-Alilə,
Səyyareyi-sipehri-ülüvvi-məqamdır.
Hər məddi-ah kim, çəkilir Əhli-beyt üçün,
Miftahi-rövzeyi-dəri-Darüs-səlamdır.
Şad olmasın bu vaqiədə şad olan könül,
Bir dəm bəlavü qüssədən azad olan könül.

Tədbiri-qətli-Ali-Əba qıldın, ey fələk,
Fikri-qələt, xəyali-xəta qıldın, ey fələk.
Bərqi-səhabi-hadisədən tiğlər çəkib,
Bir-bir həvaleyi-şühəda qıldın, ey fələk.
Ismət hərəmsərasinə hörmət rəva ikən,
Pamali-xəsmi-bisərü pa qıldın, ey fələk.
Səhrayi-Kərbəladə olan təşnələblərə
Rigi-rəvani seyli-bəla qıldın, ey fələk.

Təxfifi-qədri-şər'dən əndişə qılmadın,
Övladi-Müstəfayə cəfa qıldın, ey fələk.
Bir rəhm qılmadın cigəri qan olanlara,
Qürbətdə ruzigari pərişan olanlara.

Basdıqda Kərbəlayə qədəm şahi-Kərbəla,
Oldu nişani-tiri-sitəm şahi-Kərbəla.
Düşmən oxuna qeyr sipər görməyib rəva,
Yaxmışdı canə daği-ələm şahi-Kərbəla.
Dudi-dili-püratəşi əhli-nəzarədən
Etmişdi pərdədari-hərəm şahi-Kərbəla.
Olduqca ömrü rahəti-dil görməyib dəmi,
Olmuş həmişə həmdəmi-qəm şahi-Kərbəla.
Ə'da müqabilində çəkəndə səfi-sipah,
Qılmışdı məddi-ahi ələm şahi-Kərbəla.
Ya şahi-Kərbəla, nə rəva bunca qəm sənə,
Dərdi-dəmadəmü ələmi-dəmbədəm sənə.

Ey dərdpərvəri-ələmi-Kərbəla Hüseyn,
Vey Kərbəla bəlalərinə mübtəla Hüseyn.
Qəm parə-parə bağrını yandırdı dağilə,
Ey laleyi-hədiqəyi-Ali-Əba Hüseyn.
Tiği-cəfa ilə bədənin oldu çak-çak,
Ey bustani-səbzeyi-tiği-cəfa Hüseyn.
Yaxdı vücudunu qəmi-zülmətsərayi-dəhr,
Ey şəm'i-bəzmi-bargəhi-kibriya Hüseyn.
Dövri-fələk içirdi sənə kasə-kasə qan,
Ey təşneyi-hərarəti-bərqi-bəla Hüseyn.
Yad et, Füzuli, Ali-Əba halin, eylə ah
Kim, bərqi-ahilə yaxılır xərməni-günah.

# Farsca qəsidələr

Dedim dilbərimdən əl üzüm daha,
Bu iş çox çətindir görürəm əmma.

Sən özün lütf edib mənə kömək ol
Ki, asan olsun bu işlər, ey xuda!

Ey könül, nə qədər sadəlövhsən,
Surətə aldanıb, görmürsən mə’na.

Hər surət gördükdə heyran olursan,
Güzgütək bir surətpərəstsən guya.

Qəlbinin Kə’bəsi bütxanələr tək,
Tapmış boş nəqşilə zivəri-fəna.

Bülbül kimi ətrə, rəngə aldandın,
Bağlandın gül kimi torpağa, suya.

Ay üzlü vəfasız gözəli sevmə,
Gözləmə cəfakeş dilbərdən vəfa.

Hər kaman qaşlıya şikar olma sən,
Gəl əsir olma hər mişkin ğəzala.

Gah heyran qalaraq başına döymə,
Ağlayıb olma sən dərdə mübtəla.

Məlamət oxuna hədəf olma ki,
Nadan öyüd desin, aqil nasəza.

Eşqdə de payın dünyada nə var
Əbədi möhnətdən, zillətdən səva?

Eşqin dəftərində başqa hesab yox,
Doludur burada kədər, qəm, cəfa.

Bu fani eşqə sən gəl könül vermə
Bu batil sevgini etmə təmənna.

Mənfəət fikrilə mey içmə zinhar,
Hərçənd ki, xoş gəlir cahil insana.

Yaxşı bil, əf'iyə zəhər həyatdır,
Aldanma gözünə görünsən rə'na.

Heç zaman surəti mə'na zənn etmə,
Surət bir dəlildir ancaq mə'naya.

Çalışma həqiqət rəmzini kəşfə,
Bəhsilə açılmaz böylə müəmma.

Ixtilaf azdırır həq yolçusunu,
Həqiqət görünür gözünə xülya.

Hər dini həqiqət sansan, yəqin bil,
Düşmənin, batildir, – deyəcək ona.

Kim sənə bədəməl, zalım görünsə,
Düşmənə görünər adil mütləqa.

Kimsə vaqif deyil həqqə, batilə,
Bilinməz məqbulla mərdud dünyada.

Yüksəyi, alçağı əbədi bilmə
Ki, iqbal həmişə olmuş labəqa.

Füzulluq tərkin et, mərhəmətli ol,
Laf vurub özünü çox öymə, haşa!

Qürurdan nə hasil ki, bixəbərsən,
Nə üçün sakitdir, coşqundur əşya?!

Fe'l ilə faili ayırmaq üçün,
Başını boş sərfin üstündə yorma!

Daxilin hökmündən yanlış bəhs etmə,
Rəmmal tək ünsürə demə iftira.

Nədən doğru, nədən batdı deyərək,
Münəccim töhməti etmə ulduza.

Gəl etmə təqvimi yalan aləti,
Bürclər mənzilinə qılma e’tina.

Həmişə mə’nalı nüktələr danış,
Adil ol dünyada, sən alçaq olma.

Rahətlik dilərsən dünyada beş gün,
Doqquz baş fələyə dolaşma əsla.

Yoxsa ki, edərsən fəğanü nalə,
Verərsən zəng kimi aramsız səda.

Günəş də kölgədən qorxur, bunu bil,
Bir küncdə sakit qal, kölgətək yaşa.

Ki, dünya nə qədər dolansa, heç vaxt
Tapmasın tozunu nəsimi-səba.

Ənqa tək üzlətin Qafına çəkil,
Süleyman mülkündən gözləmə əta.

Qüdsi ruhlar kimi gözə görünmə,
Alçalıb, əcsamı gəl etmə mə’va.

Qoy sənə desinlər bədbəxt, mücərrəd,
Sənsə etməyəsən heç kəsdən pərva.

Sən məxfi və aləm səsinlə dolu,
Sən gizli, fəzlinsə xalq üçün şəfa.

Vüsal Kə’bəsinə meyl etsən əgər,
Uzaq mənzillərdə bunu axtarma.

Vadilər ölçməyin nə xeyri vardır,
Mənzillər keçməkdən sənə nə fayda?

Məqsədə doğru get inadla, ta ki,
Mənzilə çatdırsın səni bu sevda.

Kə'bəyə çatmağa bircə qədəm var,
Nə üçün tənbəlsən bu bir addıma.

Cəfakar adamı vəfalı bil sən,
Yaxşılıq eylə gəl hər yamanlığa.

Qətlinlə bir könül xoş olsa əgər,
Belə bir ölümə özün ver riza.

Rədd etmə heç kəsin diləyini sən,
Can olsa istəyi, düşmənsə – gəda.

Daima sən xeyir verməyə çalış,
Əmələ haqq özü verəcək cəza.

Vay olsun o şəxsə, alçaq təb'ikən,
Həmişə yüksəklik edər iddia.

Halbuki göylərdən qədir ayəsi
Nazil olub onun alçaqlığına.

Nə zati vaqifdir məbdə'dən tamam,
Nə rə'yi bilir ki, nədir intəha.

Quru bir ad ilə o xoşdur ancaq
Ki, şahlar şahıyam, ya da ki ağa.

Ilahi, sahilsiz dəryadır lütfün,
Bitməz, tükənməzdir səndəki səxa.

Ilahi, Peyğəmbər nuri eşqinə
Ki, ondan nur alır hər iki dünya.

Ruhim süvar olub cövlan etdikcə,
Bu meydan içində bədən atına.

Mənə bir qüvvət ver, səni yad edib,
Söyləyim sübhanə rəbbiəl-ə'la.

Məni öz lütfündən naümid etmə
Çatdıqda bu ağır həyatım başa.

Ümidim onadır ki, bu arizum
Olacaq nəhayət əlinlə rəva.

Qəbul müjdəsilə şad ola ruhim,
Kərəm bayrağın kölgə salsın başa.

Füzuli, bu nəzmi əcəb söylədin,
Gözəl sözlərində tapılmaz xəta.

Sanasan söyləmiş Cami şə'nində,
"Sözündə gözəlsən, əməldə fəna".

* * *

Ey könül, ol qövm kimdir, dutmağa kişvər gəlib
Kim, o qövmün hasili daim fəsadü şər gəlib?

Gah ölüb, gahi dirilmiş hər biri ol kəslərin
Kim, girib bir başqa rəngə, misli-cadugər gəlib.

Artıq-əskik olmamışlar bir-birindən heç zaman,
Bir boya, bir ölçüyə malik olub, yeksər gəlib.

Şərqdən bə'ziləri əzm eyləmiş hində tərəf,
Bə'zi hindli həm olubdur azimi-xavər gəlib.

Dəstə-dəstə rumlularla zəncilərdir, hər biri,
Saf çəkib dörd cərgə bu meydanda sərtasər gəlib.

Öz evində həbsə salmış düşməni bə’ziləri,
Bə’zisi düşmən evində həbsi qəmpərvər gəlib.

Ol qədər incə oyun, əlvan naxışlar göstərib
Kim, təmaşa etməyə ay üzlü min dilbər gəlib.

Aləmə məşhurdur, duzəxdə var yeddi qapı,
Bunlarınsa duzəxi nə sirridir, şeşdər gəlib?

Onların hər fərdinin şəxsi hesabi var, odur,
Bu hesabi çəkməyə meydanlara məhşər gəlib.

Yan-yana evlər olan bir şəhrdir meydanları,
Hər evi bir gəncdən tapmış zərü ziyvər gəlib.

Ixtiyarında on iki xanə var hər dəstinin,
Seyr edər meydani hər fərdi necə əxtər gəlib.

Üç nəfər biganə daim onlara fərman verər
Bu üçə üç on nəfər xidmətçi fərmanbər gəlib.

Hər üçü bir mərkəbin üstündə tutmuşdur qərar,
Mərkəb ol meydanə hər dəm sanki bazigər gəlib.

Həm səvarini salar təşvişə rəqsi mərkəbin,
Həm də mərkəb başqa bir tə’sirdən müztər gəlib.

Müxtəlif işlər o iki atlıdan zahir olur,
Sanki, ulduzlar fələk dərbarinə ziyvər gəlib.

Bir mühərrik var ki, xaricdən qatar əl işlərə
Varlığı meydandakı hər bir işə rəhbər gəlib.

Hasili yox fitnədən başqa bütün bu işlərin,
Leyk, bunlar xilqətin övzainə məzhər gəlib.

Bütpərəst olmuşlar onlar adətilə cümləsi,
Şər’i-peyğəmbərdən əl çəkmiş, olub kafər gəlib.

Pak bir gövhərdir ol seyyid ki, peyğəmbərlərin,
Cümləsinə rəhbər olmuş, onlara sərvər gəlib.

Qəlbi dəryadır, ədalət nəqşi tapmışdır kəmal,
Hər elə, hər ölkəyə bu nəqşdən ziyvər gəlib.

Pak mö'minlər səxavət feyzinə nail olub
Qırmağa kafərləri əldə tutub şeşpər gəlib.

Sinəsində hər kəsin mehri onun yer tapmamış,
Bir qırıq nərd taxtasıdır, layiqi-azər gəlib.

Sərf olubdur sə'yi daim dinə qüvvət verməyə
Bu deyil nərd oynamaq ki, qəsdi ancaq zər gəlib.

Hüsn bəzmində bütün dilbərləri məğlub edib,
Valehi olmuş o kəs kim, aləmə dilbər gəlib.

Dövləti-iqbalı ilə ey cəhanə nur saçan,
Hikmətin səhralərə, dəryalərə ləngər gəlib.

Hər nə ki, bu dəhrdə üç ünsürün məhsuludur,
Sən edibsən arzu, keçmiş əsr, illər gəlib.

Hər o kəs ki, asitanında sənin məskən salıb
Asitaninə onun min sahibi-əfsər gəlib.

Hər hünər varsa cəhanə bəxş edibdir hümmətin,
Bu bisati-aləmə təb'in hünərpərvər gəlib.

Rəhm qıl, şahım, Füzulinin pərişan halinə,
Nərd daşından da onun vəziyyəti bədtər gəlib.

Axtarıb daim qəzanın zərlərindən kamini,
Çatmamış kamə, qəzadən başinə qəmlər gəlib.

Bağlamış ümmidini biçarə, xaki-payinə,
Kuyinə, etmiş dilində vəsfini əzbər, gəlib.

* * *

Zəmanin həftəsinə uyma kim, yetər zərəri,
Xəzinə zənn eləmə əjdahayi-həftəsəri

Ömür quşu uçar, axşam-səhər qanaddır ona,
Boş arzularla saya alma axşamı, səhəri.

Əlində varsa beş-on inci, eyləmə tüğyan,
Dənizdə yüz o qədər inci var, nədir bəhəri?

Demə ki, qamımı şirin edər yığanda göhər,
Göhər yığanda fələk kamına tökər zəhəri.

Boyun qaçırma təbiət həvadisindən, bil
Ki, “sin” hərfinə nöqtə qoyub şər etdi səri.

Qızıl-gümüş sözünü qəlb lövhünə yazma
Ki, simüzər xəti ilə tamah yazar xətəri.

Gümüş varınsa, çalış xəlqə faydası yetsin,
Nə faydası ağacın, yoxsa şaxının səməri?

Kərəm qapısını aç, ta məqamın olsun uca
Ki, fəthədir deyə, xətt üzrə yazdılar zəbəri.

Önündə alçalaraq bir kəsin, xeyir diləmə
Ki, kəsrənin bu səbəbdən xət altı oldu yeri.

Nə məqsəd ilə xəsis toplayır zərü simi?
Muradə yetmək üçün sərf edərlər simü zəri.

Nəzər təriqi ilə əhli-feyzə salsa nəzər,
Məqaminə görə yırtar o sirli pərdələri.

Pis ilə yaxşıdakı fərq, fərqi-zahirdir,
Görünməmiş ola mə’yub xilqətin əsəri.

Hünər görüncə eyib tutma kimsədən zinhar,
Hünərlisənsə çalış zayil eylə eybləri.

Çalış bu ərseyi-aləmdə bir xeyir iş tut
Ki, işlə ölçülər hər işçi müzdünün qədəri.

Bu hərzəliklə sənə çərx mehriban olmaz,
Ata necə sevər övladı, olmasa hünəri?

O kəs ki, lovğadır onda hünərdən olmaz əsər,
Səda çıxarmı o neydən ki, var onun şəkəri?

O əqlü elmə güvənmə, varınsa idrakın
Ki, şöhrət ilə çörəkdir sənə bari, bəhəri.

De, hansı əql işin əslini əyan etmiş?
Var hansı alimin əncami-karidən xəbəri?

Ürək sıxıntısıdır əql, qeydinə qalma,
Girişmə bəhsinə elmin, böyükdü dərdi-səri.

Məqami-eşqidə axtar, kəmal axtarsan
Ki, əqlü elmdən eşqin dəyərlidir göhəri,

Məzaqi-eşq tələb etmə əql əsirindən,
Nə anlayır yuxu sərməsti nəş’eyi-səhəri?

Inanma əqlə, elə zənn qılma kim aqil,
Ağıl gözüylə görər zər dolu xəzinələri.

O şey ki, əql üçün alidir, eşq üçün dundur,
Sən eşqi tut ki, şirin bar verər onun şəcəri.

Məcazi olsa belə, eşqi tərk qılma, məcaz
Olub həqiqətə mərdin həmişə rahibəri.

O sərv qəddilərin arizindəki xəttin,
Hədisi-feyzi-xudavəndidir ziri, zəbəri.

Gecə kimi kor olar, min gözü olarsa belə,
Kimin ki, yoxdu günəş üzlü yari-simbəri.

Sən eşq nəş'əsini abü gildə axtarma,
Həqiqətin gözəl üzdür həmişə cilvəgəri.

Bu pərdədə bir oyunbazdan özgə görməzsən,
Açarsa bir gün əgər ruzigar pərdələri.

Təriqi-surəti tut, qəsdi-mülki-mə'na et,
Güli-həqiqətə məzhər qəbul qıl süvəri.

Nəcəf fərəh gətirən bir səfalı gülşəndir
Ki, sinəsinə basıb padişahi-bəhrü bəri.

Itaəti hamıya fərzi heydəri-Səfdər
Ki, yox məqamini idrakə kimsənin hünəri.

Onun sifatini insan necə əhatə edər?
Qəza, mühakiməsinə verib məlakələri.

Təbiəti həcərül-əsvəd ilə etdi zühur,
Həyat çeşməsidir, zülmət eyləmiş həcəri.

Verərsə bir ağaca qədr çeşməsindən su,
Olar həmin ağacın asimanda bərgi-təri.

Məhəbbət atəşi şö'lə saçarsa afaqə,
Şərəf göyündə hər ulduz olar onun şərəri.

Hümayi-ovci-təmənnasıdır mələk xislət,
Şaha baş əyməz o dərgahinin dilənçiləri.

Şərəf sitarəsidir mehrinin ki, əhbabə,
Verər uzun gecələrdə nişan işıq səhəri.

Cəhanə bayrağı feyzilə kim, verər ziynət,
Onunla elmü əməl ordusu çalar zəfəri.

Nəinki kəllə onun hökmünü edir icra,
Hanı o baş ki, bu fərmanidən çəkildi geri?

Təəccüb eyləmə rəmzinə xurma danəsinin
Ki, nəxli-mö'cüzünün vardı min belə səməri.

O tazə gül ki, qılıb lütf verdi Səlmanə,
Bahari-həşrə qədər getməz ətrinin əsəri.

Onunla xəsmi bacarmaz döyüşdə, olsa da şir
Ki, döndərib daşa bir nə'rə ilə şiri-nəri.

Ay ilə gün kimi mə'lumdur bütün xəlqə
Ki, qaytarıb günəşi qərbdən, bölüb qəməri.

Rəva deyil ki, deyim varlıq asimanində
Nəbi günəşdir, ay isə vəliyyi-dadgəri.

Edəndə əzm xuda ərşinə Əli, Cibril
Dayandı yolda, onun oldu xaki-rəhgüzəri.

Əli və on bir imam oğlunun məhəbbətidir,
Nizama salmış ay ilə ili və həftələri.

Təəccüb etmə, desəm Cəbrail dərbandır,
Əli özü qapıdır, şər'i-həq bilik şəhəri.

Nə xoş sipehri-vilayətsən, hər vilayətdə,
Günəşlə ay kimi parlar vilayətin göhəri.

Sənin vilayətinin mö'cüzilə hər yerdə,
Quruldu şər'i-nəbi mülkünün binövrələri.

Çəkəndə dostlarının bağrına vəfa dağı,
Tutar bəla oxuna qarşı dostlar ol sipəri.

Boyun vuran o qılıncın damarsız hər cismin,
Fəssad qanını saçmaqda oldu niştəri.

O Zülfüqarin ilə Düldülündə dost, düşmən,
Tapar itaətilə imtina nümunələri.

Nicatə doğru sənin Düldülün açıb yollar,
Biçib əlinlə sənin zülfüqar Zül-həzəri.

Qılıncın ilə cigərqan olubsa düşmənlər,
Ona ədavət üçün varmı bir kəsin cigəri?

Deyil qəribə, könül vermədin bu dünyayə,
Nedər sənin kimi şahin bu seydi-müxtəsəri?

Sənin fəzayi-ibudiyyətin o yerdir kim,
Həqir sakinidir huriyi-behiştü pəri.

Qapında xidmət elə, bir əziz ne'mətdir
Ki, yüz Xəlili edər asitanının nökəri.

Şərəf səfində tapa bilmədi bərabərlik,
Qəza ki, eylədi təşkil məhfili-qədəri.

Səba açanda çiçəklər niqabini üzdən,
Sataşmadı sənə oxşar gülə onun nəzəri.

Hezar şükr ki, məddahinəm, mənə bu yetər,
Bu bir səadət üçün yox sevincimin qədəri.

Mənim bu halıma lütf ilə qıl nəzər, ey şah
Ki, kimlər ilə bu işdə yapışmışam kəməri.

Bu yolda ilk qədəmi Katibi atıb, sonra,
Onun iziylə nişan verdi Heyrəti-hünəri.

Iki əsər var ikən yazdığım əbəsmi mənim
Ki, onların biri üz, astarı olar digəri.

Birindən əskik isə, digərindən artıqdır,
Yəqin ki, var o libas içrə nəzmimin dəyəri.

Füzuliyəm, günahım çoxdur, istərəm ki, susam,
Bu üzr məncə olardı günahların betəri.

Ümid tək bunadır kim, məni yaman dildən,
Mühafizə edəcək mədhinin polad çəpəri.

Həmişə xeyr ilə şərrin ümidi, qorxusu var,
Behişti yaxşıya və’d etdilər, pisə səqəri.

Ayırmasın məni həq dərgəhin behiştindən,
Behiştə getməyənin bil cəhənnəm oldu yeri.

Təvafi-dərgəhin ilə mənə müyəssər olur
Təvafi-Kə’beyi-həq, görmədən uzaq səfəri.

* * *

Öldüm xədəngi həsrəti ilə onun, aman,
Gecikmə, yardan mənə ox çatdır, ey kəman.

“Can” kəlməsində ortadakı tək əlif kimi,
Daim xədəngi arzusunu bəsləyir bu can.

Ey nazü qəmzəsilə vuran yüz cəfa oxu,
Qəlb ilə canıma gah açıqdan, gah nihan.

Qəddinlə gözlərindən o tə’lim aldımı
Kim, dilrüba olubdur oxun, həm də dilsitan?

Can aldı hər yerə ki, toxundu gözün kimi,
Qəlb ovladı qəddin tək olanda oxun rəvan.

Layiq deyil rəqibinin o daş qəlbi tirinə,
Daşdan ziyan görər, oxunu etmə imtəhan!

Hərdən ox atmağa həvəsin gəlsə, ey nigar,
Torpaq olan cismimi al daima nişan!

Düzlükdə can kimi var idi ortada səbəb,
Ülfət tapıb qədinlə oxun oldu mehriban.

Əyri kəman da başladı rəsmi-rəqabəti,
Dərk etdi zövqi-vəsli-xədəngini nagəhan.

Baş qoydu çün qulağına, ahəstə söylədi
Bu biqərar aşiqin həqqində min yalan.

Səndən ayırdı, saldı qara torpağa oxu,
Tab etmədi kəman gücünə zarü natəvan.

Qaldırdın iltifat ilə torpaqdan ol oxu,
Layiqdir eyləsə oxuna qibtə asiman.

Hər ləhzə istəsə öpər o incə əlləri,
Mən kimi açmasın necə dil şükrə durmadan?

Gəldin kəman xanəsinə bir hilal tək,
Aşiqlərin gödəldi ömür günləri yaman.

Mə'lumdur günəş gödələr ol zəman kim,
Qanun ilə günəş edər öz qövsini kəman.

Vəslin səadətini edib mən tək arizu,
Olmuş kəman qəddi xəmidə uzun zaman.

Çillə qurub, əziyyətə dözdü, zəiflədi,
Cismində qaldı bircə dəri, bir də üstixan.

Qıldın onu əziyyətə dözməkdə imtəhan,
Axirdə çatdı vəslinə, sə'y ilə qoydu can.

Saldı çəkə-çəkə onu şövqi-məhəbbətin,
Tab etməyib məşəqqətinə, qıldı yüz fəğan.

Məndən səvay cövrinə, ey yar, kim dözər?
Artır cəfani gəlsə əlindən mənə hər an.

Ey sərv, söylə, hansı çəməndə boy atmısan?
Heç bağ içində sən kimi bir sərv yox, inan!

Guya imam gülşəninin növnəhalisən,
Olmuş baban o şahi-Nəcəf, miri-insü can.

Mö'münlərin böyük ağası kim, onun üçün
Tə'sis olundu, gəldi vücudə bütün cəhan.

Məzhər odur səxavətə kövnü məkanidə,
Mən acizəm söz ilə edəm lütfünü bəyan.

Varlıq qonaq evində kəmali-səxavəti,
Xas ilə amə süfrə açıb, etdi mihiman.

Qoydu rəsul çiyninə ol padişah qədəm,
Oldu o şə'n sahibinə ərş asitan.

Mövla Əli ki, saqiyi-kövsərdir, həm vəli,
Vermiş iki cahanda bizə qüssədən aman.

Dünyadə, axirətdə onun lütfü hər kəsin
Zamin olub səadətinə, söz verib aman.

Adəm bahari-qürbidə bir cürm işlədi,
Yetdi behişt bağında baharinə çün xəzan.

Oldu pənahgahi Nəcəf, qürbi-Mürtəza,
Verdi nəcat qəmdən ona bu yeni məkan.

Tərk etdi cənnəti, Nəcəfi qıldı ixtiyar,
Çün gördü bu məqamə özü rəşk edər cinan.

Məhrum edərmi bir ağa övladi-Adəmi
Kim, lütfü Adəmin özünü qıldı kamiran?

Yerdən rəvaqi-ərşə qədər Düldülün sənin,
Peyğəmbərin Büraqi ilə getdi həminan.

Birlikdə məhdi-fe’lə gələr bətni-qüvvədən,
Həqqin rizası ilə sənin hökmün hər zaman.

Düşmənlər anlamazsa sənin qövlini əgər,
Tə’yin qıl qılıncını bu işdə tərcüman.

Bir gizli hikməti var idi xilqətin əgər,
Qıldın o əsli-məqsədi sən aləmə əyan.

Məqsəd bu idi kim, atasan rəmzi qeybdən,
Agah olaydı sirri-xudadən bütün cəhan.

Həqqin vücudinə var idi bir güman əgər,
Oldu yəqin cəhanə vücudunla bu güman.

Mə’dən qızıl, dəniz nə qədər inci versə də,
Nə qəlbinə dəniz tay olar, nə əlinə kan.

Qəlbin qədər dəniz nə zəman inci bəxş edib,
Mə’dən əlin qədər qızıl ehsan edib haçan?

Dostluq mətaini alaraq bir nəfər əgər
Bazari-axirətdə bina qılsa bir dükan.

Bənd olmayıb ucuz sata gər öz mətaini,
Naçiz qiyməti sayılar rövzeyi-cinan.

Ulduzları fələkdə sapa düzdüyü zaman,
Dostluq telindən eşdi qəza incə risiman.

Düşmənlərin cəzası cəhənnəm əzabidir,
Cənnətdə dostların olacaq cümlə şadiman.

E’cazının şükufəsi Səlman gülü olub,
Agahdır kəramətinə pir, həm cəvan.

Şahin ilə göyərçinin əsrari səndədir,
Hər dildə vəsfini edər əhli-cəhan bəyan.

Peyğəmbər elminin şəhərinə qapı ikən,
Doqquz fələk qapında olub xaki-asitan.

Ey padişəh, kiçik quluyam asitanının,
Yurdum qapındır, eyləmərəm tərki-xaniman.

Bak etmərəm, günahım əgər saysız olsa da,
Vardır ümid lütfünə, ey şahi-insü can.

Ya Rəb, budur cahanda mənim arzum, istəyim,
Qəlbim səfa tapar, dilimə söz olar rəvan.

Bundan daha ziyadə Füzuliyi-zar ola,
Övladi-paki-Heydəri-kərrarə mədhxan.

* * *

Məni bir halə salıb ki, fələki-kəcrəftar,
Gəzərəm aləmi sərgəştə misali-pərgar.

Gah səhrayi-səfalətdə qalan bir bədbəxt,
Gah fəqirlik çölünün sakiniyəm bikəsü xar.

Gah bəla kuyini məskən edib, oldum rüsvay,
Gah gizli qəmim etdi məni min dərdə düçar.

Bəxti amalım ilə başladı bədəhdiliyə,
Könlümün istəyinə baxmadı çərxi-qəddar.

Oxşadarsan buluda gözlərimi, doğru deyil,
Ola bilməz bulud olsun bu gözüm tək ağlar.

Bəs ki, içmiş ciyərim qanını göz mərdüməkin,
Qanlı göz yaşı edər çöhrəmə hər ləhzə nisar.

Həqqi tə’yin üçün qılmağa kəsbi-irfan,
Bir zaman ömrümü bihudə itirdim məni-zar.

Mə’rifətlə baxaraq həqqi görüncə bildim
Ki, ucuz əmtiədir, elmə tapılmaz bazar.

Istərəm sərvətü miknət arayım aləmdə,
Sırf nadanlığa sərf eyləyim ömrüm nə ki var.

Pak zatım nə qədər yüksək idi dünyadən,
Nə mələkdə, nə bəşərdə var idi məncə vüqar.

Indi heyvanla cəmadatidən əskik oldum,
Saldı bu halə məni qəlbi qara insanlar.

Hər sözümdə var idi fəlsəfeyi-ruhani,
Tutiyi-təb’imə məxsus idi şirin göftar.

Az qalıbdır sözümü anlamayan nakəslər,
Hindlilər ləhcəsi tək məzhəkəyə qoysunlar.

Axirət xatirinə tərk elədim dünyanı,
O da mümkünmü və ya yox? Məni bu fikr yorar.

Ah, bəlkə mənə təqdir əzəldən yazmış,
Həm bu dünya, həm o dünyada olam bimiqdar.

Bir ömür elmü-əməl damənini tutdum kim,
Xaliq öz mərhəmətini mənə qılsın izhar.

Elmim əfsus ki, təzvirə səbəb oldu mənim,
Şeytanın vəsvəsəsindən əməlim vermədi bar.

Yox ümidim ki, mənə elmi əməl yar olacaq,
Qarşısında məni həqq saymayacaq üsyankar.

Var ümidim ki, Əli eşqi əlimdən tutaraq,
Olacaq elmü əməlsiz məni-avarəyə yar.

O imami ki, olub taəti xəlqə vacib,
Inslə cin yaranmış ol şəhə xidmətkar.

Şahlığın bayrağını rə'yi ilə yüksəltmiş,
Yə'ni şə'ni ucalıq rəmzini qılmış izhar.

Taətindən qaçan Allahına olmuş asi,
Yolunu izləməyən küfrünə etmiş iqrar.

Xilqətə hikmət əsas etdi onun dostluğunu,
O əsasın üzərində bu cəhan tutdu qərar.

Hikmət əhli bu səbəbdən də bu gün heyrandır
Ki, fənasinə cəhanın necə etsin iqrar.

Varlığın rişteyi-təhkimi bir an içrə belə,
O şəhin qüdrət əlindən əgər olsaydı kənar,

Üz verərdi elə bir hadisə kim, qalmaz idi,
Dörd əsas rüknilə bu altı cəhətdən asar.

Döşəmişdir ol kərəm süfrəsini cənnətdə,
Xəlqi də'vət edər öz süfrəsinə şamü nəhar.

Bu cəhan əhli o dünyayə səfər etməz idi,
Etməsəydi o kərəm süfrəsinə meyl izhar.

Söndü şöhrət odu Bağdadda Ənuşirəvanın,
Şöhrəti aləmə səs saldı Əlinin təkrar.

Allahın şirinin ismi çəkilən bir yerdə,
Hansı itdir aça Sasani itindən göftar?

Vəsfinin ləşkəri səf çəksə bütün aləmdə,
Vəhm təslim olar, hiss edərək ərsəni dar.

Ey qəza rə'yü qədər-qədrli sultan ki, sənin,
Elmün idraki təhəyyürdə qoyub dairəvar.

Bizə yüksək şərəf olmuş sənə qul olmağımız,
Qulluğun, səltənətin rütbəsini etmiş xar.

Yetsə tədric ilə Keyvanə xələl, bil ki, sənin
Qulunun bir qulu Keyvanə bərabər tutular.

Gər qəza hökmü fələk şirini məhv etsə, sənin
Bir itin şir əvəzində olacaq çərxə səvar.

Ey əli kan, ürəyi bəhr, sənin mədhində
Hər sözüm lə'li-Bədəxşan idi, dürri-şəhvar.

Bu qədər incini, lə'li mənə sən vermişsən,
Yolunda sərf edərəm mən gər ola bəxtim yar,

Hüsni-göftaridə mən varisiyəm Səlmanın,
Hüsnü-şe'rimdə Iraqi-ərəb olmuş gülzar.

Yoxsa Səlman qədər lütfi-əda məndə əgər,
Qətrə ümman ilə bəhs etsə olar bimiqdar.

Çünki ömrü uzunu firqeyi-Çingiz xani
Vəsfi Səlman özünə qıldı bu dünyadə şüar.

Əhli-beytin olaraq mən də kiçik məddahi,
Mədhdir, mənqəbədir yazdığım hər bir əş'ar.

Bu işə məhrəm olan əhli-fərasət söylər,
Kimə səlmanlıq ilə fəxr eləmək həqqi çatar.

Var ümidim nə qədər bülbüli-xoş əlhanın
Fürsəti var edə söz baği ara vəsfi-bahar.

Bu Füzulini xuda Ali-əba mədhində
Qılsın öz fəzli ilə təb'i rəvan, xoş göftar.

* * *

Dolubdur qanla könlüm, qəm evi olmuş mənə aləm,
Hanı bir öylə həmdəm ki, boşaldam qəlbimi bir dəm.

Qəmim öylə böyükdür kim, göyərsə ot məzarımdan,
Yüz il hər gün bahar olsa, ola bilməz o ot xürrəm.

Könüldən qəmlərim zayil yəqin olmaz əgər Cəmşid
Qəmim dəf'i üçün saqi olarsa əldə cami-Cəm.

Məzacım şəm'ə oxşar, ağlayıb yanmaq şüar etmiş,
Bütün ömrüm boyu qəlbimdə atəş var, gözümdə nəm.

Gözəllər zülfünün sevdasını başdan çıxardım çün,
Ağıl qeydinə əhvalım pərişandır, işim bərhəm.

Səfa könlü diri aşiqlərə qismətdir, ey arif,
Evində hər kəsin varsa ölü, olmuş işi matəm.

Yaram çoxdursa da qəlbimdə, mən bak etmərəm, çünki
Ürək dərdinə olmuş zikri-şahi-övliya məlhəm,

O aliqədr, adil qəlbli sultan ki, xilqətdə,
Onun zatilə fəxr etmiş bu aləmdə bəni-adəm,

Məsiha dini ləğv oldu zühuri-nuri-pakindən,
Tapılmazdı onun dövründə Isadən vuranlar dəm.

Onun can bəxş edən lütfü dirildər yüz Məsihani,
Odur kim, söyləyirlər: ölməmiş sağdır Məsiha həm.

Iki ağzıyla qan tökmüş qılıncı, işləmiş daim,
Vəli, mö'cüz üzündən başqa iş tutmuş özü ol dəm,

Töküb müşriklərin qanini, həqqi eyləmiş zahir,
Diriltmiş şər'i-həqqi, sanki olmuş Isiyi-Məryəm.

Ağac zərbiylə ol dəm ki, qovuldu baği-cənnətdən,
Onun dərgahinə ancaq sığındı həzrəti-Adəm,

Qayıq tək qəbrinin sənduqi üzmüş Nuhidən əvvəl
Odur kim, qopsa yüz tufan qəlbində görünməz qəm.

Əmirəl-Mö'minin Heydər Əli ibni Əbü Talib
Ki, hər fazildən əfzəlsən və hər bir elmdə ə'ləm.

Ümuri xilqətə bais sənin feyzi-vücudundur,
Bu aləm varlığından çün tutulmuş varlığın əqdəm.

Məhəbbət tellərinlə olmasaydı bağlı bu dövran,
Olardı aləmin nəzmi qırıq zəncir tək bərhəm.

Sən oldun sahibi-me'racə munis, qəm yeməz ol kəs
Ki, nur saçmış qaranlıqda yoluna sən kimi bir şəm.

Vəsiyyi-Müstəfasən, oldur insü cinnə hakimsən,
Süleymani-zəmansan kim, varındır bir belə xatəm.

Məhəmməd sahibi-me'racü fəzlü vəhyü qürb olmuş,
Əmoğlumdur – deyə, fəxr eyləmiş bu şə'n ilə bahəm.

Xudanın xilqəti-əşya işində məqsədi sənsən,
Hərami-qürbi-ov ədnadə həm Peyğəmbərə məhrəm.

Sənin hörmət quşun ol yerdə sakindir ki, qürbündən
Ədəb gözlər o yerdən Cəbrəilin ruhu də hər dəm.

Peyğəmbərdir – deyə, mö'cüzlə dəryani yaran Musa,
Sənin qarşında Musanın özü bir qətrədəndir kəm.

Sənin zatında nöqsan yoxdur, hər bir elmə vaqifsən.
Kəmalın vəsfini sözlə necə irad edər adəm?

Gətirsən Düldülü cövlanə meydani-vilayətdə,
Izin tapmaz, tozun görməz yüz Ibrahim, yüz Ədhəm.

Mənim şəfqətli sultanim, bu hümmətlə rəva görmə
Ki, qəddim bir kəsin minnət yükü altında olsun xəm.

Sənin məddahinəm, təkcə sənin yükün kifayətdir,
Nə bir kəsdən təmənnam var, nə də bir şəxsə məddahəm.

Səxavət gözləsəm bir başqasından yansın imanım,
Ətasi gənci-Qarun olsa da, sahib səxa-Hatəm.

Füzuli daima istər qənaət eyləsin pişə,
Ilahi, bəxş qıl taqət bu niyyətdə ona sən həm.

Onun qəlbində şahi-övliyanın mehri möhkəmdir,
Xilas et ehtiyac dərdindən, olsun hümməti möhkəm.

* * *

Kimin ki, qəlb lövhindən təəllüq nəqşi zayildir,
O qəlb ayinəsi dostun xəyaliylə müqabildir.

Deyildir bir-birindən ayrı mətlub ilə talib, leyk,
Təəllüq onların görmək yolunda təkcə hayildir.

Bu yolda naümidlik ehtimalı yoxdur, əlbəttə,
O kəs ki, naümiddir, həqqi axtarmaqda kahildir.

Bizik mane' ki, pərvaz etməmişdir ruhumuz ərşə,
Bu ülvi maddə yoxsa daima əslinə mayildir.

Əzab təklifini cismə edərlərsə, bizik bais,
Xudanın rəhməti yoxsa bütün məxluqə şamildir,

Edərsə tərki-can, bişək yetər cananinə aşiq,
Vüsal istərsən, ol fani ki, fani vəslə naildir.

Bu varlıq silkinə daxil deyil bir fərd bihudə,
Əbəs bir fe'lə iqdam etməmiş ol kəs ki, faildir,

Hünərsiz sə'y edər daim ki, hər kəsdə eyib tapsın,
Özündə yüz eyib var, görməyir, əzbəs ki, cahildir.

Həqiqət sirrini dərk etməyə çün əqlə yol yoxdur,
O kəs ki, əl çəkər böylə tərəddüddən, bil aqildir.

Əbəsdir gərçi hər bir naqisə kamil adı vermək,
O naqis ki, bilər nöqsanini bir növ'i kamildir.

Mənə, bir kimsə yox kim, rəsmi-ürfandan xəbər versin,
Bu məclisdə kimə baxdımsa, gördüm əqli zayildir.

Bu müşkül yolda çatdırmaz bizi sərmənzilə bir kəs,
Məgər yardım edər ol şah kim, həllali-müşkildir.

Ona ya bəndə, ya mə'bud söylə, məncə fərq etməz,
Onun şə'nində hər cür vəsfə zati-paki qabildir.

Səxavətdə bir ümmandır ki, sığmaz külli-afaqə,
Kül ol başə ki, bu ümman ara mə'vasi sahildir.

Odur çün şər'i-həqqi eyləmişdir hər kəsə sabit,
Şəriətindən səvay aləmdə hər din varsa, batildir.

Üzük bəxş eyləmişsə sailə ol şəh namaz üstə,
Əlində əhli-həqqin hər nə varsa nəzri-sayildir.

Məzarini ziyarət hər səvab işdən müqəddəmdir,
Behiştdir əcri ol şəxsin ki, bu amalə amildir.

Çatırdı nisbəti Harunə Musanın nübüvvətlə,
Bu nüktə barəsində xaliqin fərmanı nazildir.

Demiş Əhməd ki, Heydərdir mənə Musanın Harunu
Bu doğru fikri hər yerdə həqiqət əhli naqildir.

Əli haqqında Əhməd söyləmişsə "ləhmikə ləhmi",
Bu mə'nadə Peyğəmbər ittihad əmrinə qayildir.

Əlinin mehridir elm ilə fəzl əvvəl də, axir də,
Bu mehr olmazsa, elmü fəzlidən xəlqə nə hasildir?

Bəşərdir xilqətən, əmma mələkdən qədri alidir,
Demə tə'yin edən qədrü məqami ab ilə gildir.

Güman etmə Əlinin düşməni tərki-nifaq etsin,
Zəhər dərmani bilmə o şeyi kim, zəhri-qatildir.

Əli hübbi qədər yüksək fəzilət yoxdur aləmdə,
Füzuli tək kimin bir böylə fəzli olsa, fazildir.

Necə şükr etməyim Allahə mən kim, şahi-mərdanın
Mənə ömrüm boyunca dərgəhi-valasi mənzildir.

Qorunmaqçün Nəcəf dəryası tək bir sahilim vardır,
Nə qəm kim, hadisə dəryasinin girdabi hayildir.

Ilahi, hər qədər dünya durar dövran dövr eylər,
O dərgəhdə məni sabitqədəm qıl, qədrimi bildir.

* * *

Nə vaxtadək qoşa zülfün mənə qeydi-cəfa olsun,
Nəsibim dərdü möhnət, məskənim dami-bəla olsun?

Anıb gəh ləblərini gözlərimdən qan edəm cari,
Əyilsin kəc qaşın dərdilə gəh qəddim düta olsun?

Məni hər dəm qapından qovma, rüsvay etmə, ey dilbər,
Mənəm divanə, qoy daim yerim darüşşəfa olsun.

Yoxumdur tab hicranə, budur arzum ki, aləmdə,
Bu can ya olmasın, ya kim, səninlə daima olsun.

Rəhi-vəslində sanma acizəm, çün natəvanlıqdan,
Varımdır qüdrətim kim, yoldaşım badi-səba olsun.

Həvani qoymaram çıxsın başımdan bir hübab tək mən,
Məgər ol gündə kim, başim bu cismimdən cüda olsun.

Mənə kim, aşiqəm, eşqin əzabi eyni rahətdir,
Könül istər ki, hər an həmdəmi cövrü cəfa olsun.

Məni öldürmə, qəm küncündə öz halimlə qoy, hicran,
Yanım bir şəm’ kimi, daim yerim zülmətsəra olsun.

Sənin dərdindəki ləzzətlə müştaqi-dəva olsun.
O səhhət bəxş edən dərdin bəlayi-bidəva olsun.

Bu yetməzmi ki, mən dərdindən öldüm, bilmədin halim?
Rəvadırmı ki, məndən pərdədə ol məhliqa olsun?

Gözəllər eşqini tərk etmərəm ömrüm boyu, haşa,
Mənim tək aşiq axir əhli-zöhdi-xudnüma olsun.

Tapılmaz zahidin rəsmində bir iz əqldən, dindən,
Çətin ki, vaizin qövlində, fe’lində səfa olsun.

Rəvadırmı edəm səccadəni təzvirə bir alət?
Və ya təsbih əlimdə aləti-məkrü riya olsun?

Deyil xoşhal könlüm varlığımdan, gizli qalmaqçın
Məkanım xoş olar kim, vadiyi-fəqrü fəna olsun.

Gətirdi təngə nakəslər məni, arzum budur daim,
Nə mən bir kəslə, nə bir kəs mənimlə aşina olsun.

Təməh hümmətlə çarpışmaqda istər kam ala məndən,
O istər kim, vücudum xəznə üstə əjdəha olsun.

Fəqət hümmət məni istər görə dünyadə müstəğni,
Təbiətcə o istər hər gəda bir padişah olsun.

Gəda tək ummaram pay süfrəsindən bir kəsin, əmma,
Könül istər Əlinin asitanında gəda olsun.

Dilim varmaz Əlidən qeyri bir sultanı mədh etsin,
Budur arzum ki, məmduhim Əliyyi-Murtəza olsun.

Deyil mümkün bu şahənşah vəsfini təmam etmək,
Gərək ömrüm uzun, şamü səhər karım səna olsun.

Mənə xaliq o şərt ilə veribdir hüsni-göftarı
Ki, mövla gülşənində bülbüli-dastansəra olsun.

Gəhi Əntər yıxan ol pənceyi-mövlani vəsf etsin,
Gəhi Xeybər açan ol sərvərə mö'cüznüma olsun.

Gah alsın "innəma" bağındakı güllərdən ilhamı,
Sapa inci düzərkən, dürcü bəhri-həl'əta olsun.

Silib ayineyi – "laseyf"dən əşkimlə gəh jəngi.
Gəh ayinəmdə əksi-nuri-feyzi-"lafəta" olsun.

Açılmış qönçə tək ağzım sənaye-şahi-mərdanə,
Rəvadır, hər sözüm badi-səba tək dilgüşa olsun.

Könül yer tapdı bir qul tək o şahın asitanında,
Vəfa əhli səfində var, yeri kani-vəfa olsun.

Ayağı türbəsindən feyz tapdım, söyləyin Xizrə
Ki, hazırdır könül abi-həyatə rəhnüma olsun.

Onu az sevmirəm mən Malikü Əmmarü Buzərdən,
Məhəbbət məndə, layiqmi o qullar pişva olsun?

Budur arzum, yolunda, ey mənim şəfqətli sultanım,
Könül yoldan azıb xövf etməsin, əhli-rica olsun?

Kifayətdir, olarsa məskənim aləmdə dərgahın,
Riza vermə o dərgəhdən bu qul bir an cüda olsun.

Nə yaxşı, nə yaman gündə ümidim kəsmərəm səndən,
Hanı səndən səvay bir şah kim, səhibəta olsun.

Budur arzum, əqidəm ki, cahan durduqca, ya mövla,
Sənə tabe olum, ismin mənə fərmanrəva olsun.

Əyim baş qul kimi ehkamının cəbrinə, kəsrinə,
Hər əmrü nəhyinə fərmanının əhdim riza olsun.

Əgər zövqü səfa sürsəm, deyim asari-lütfündür,
Olarsam qəhrinə layiq işim ahü nəva olsun.

Nə acizlik dəmində çərx əlindən incisin könlüm,
Nə də xoşhalü şad odunda mədyuni-qəza olsun.

Məni aləmdə sultan etsələr şad olmaram əsla,
Bu can istər ki, dərgahında bir kəmtər gəda olsun.

Qapında qullarınla həmdəm olsam, istəməzdim mən
Mələklər həmdəmim, sərmənzilim ərşi-xuda olsun.

Mənim könlümdə daim bircə arzu vardır, ey şahim
Ki, hər bir mətləbim aləmdə lütfünlə rəva olsun.

Nəcəf dəryasının bir dalğasıyla feyziyab olsam,
Əsər qalmaz tənimdə hər qədər rənci-xəta olsun.

Gedib seyrə dalım gəh Mustafanın cilvəgahında,
Ziyarətgahım hərdəm rövzeyi-Xeyrənnisa olsun.

Ziyarət eyləyim gahi Həsən qəbrini sidq ilə,
Könül gəh qasidi-dərgahi-şahi-Kərbəla olsun.

Əli Zeynül-Ibadü Bağirü Sadiq səfasından,
Məqamım yüksəlib, can layiqi-qürbi-xuda olsun.

Alım Bağdad şəhərindən səfayi-ətri-Musanı,
Xorasanda nəsibim rövzeyi-paki-Rza olsun.

Təqinin, həm Nəqinin pay alıb, xani-səxasından,
Nəsibim asitani-Əsgəridə həm səxa olsun.

Ədalət bayrağı qaldırsa Mehdi bu cahan içrə,
O bayraq sayəsində məskənim sübhü məsa olsun.

Ilahi, sərfəraz eylə məni, daim, Füzuli tək
Ki, ruzimin kəfili əhli-beyti-Murtəza olsun.

Əzəl gündə nəsibim oldu feyzi şahi-mərdanın,
Necə başlandı, qıl imdad ki, eylə intəha olsun.

* * *

Bilur qədəhdə səhər lə’l tək mey içsən əgər,
Odur piyaleyi-kafur, şərbəti-kövsər.

Könül səfası o təsbih danəsində deyil,
O zövq üzüm giləsində müdam cilvələnər.

Təvazö’ ilə açıb əl dilərsə məst murad,
Qürurla şeyx qılan yüz rikət namazə dəyər.

Behişt meykədədir, onda huriyüqılman
Çəkib səf, əldə tutub mey dolu gümüş sağər.

Deyil qəribə ki, meyxanədən qaçar zahid,
Bu rəsmdir ki, behiştdən uzaq gəzər kafər,

Şərab caminin ətrafinə gözəl xətlə
Yazılmış idi bu mə’nalı, dilrüba sözlər

Ki, ey cahanda ayıqlıqdan olmayan xoşhal,
Xumarlanıb yıxılan xəstə, süst, şamü səhər;

O yolla sən nə gedirsən ki, var xətası onun,
Səmərsiz işdə neçin ömrünü edirsən hədər?

Bu yolla getmə ki, heç vəxt muradə yetməzsən,
Bu sə’yi boşla ki, verməz sənə bu sə’y səmər.

Şərab bəzminə gəl, sazü-sağəri ələ al,
Birində zövq, o birində fərəh kəmalə yetər.

Sənin ki, mə’rifətin yox, nə onda, nə bunda
Xəyal zövqü nədir, bilməyirsən, ey dilbər.

Deyil təbii hərarət meyin məzacında,
Sazın nəvasını bir nəğmə sanma sərtasər;

Sənin yazıqlığına, bil, yanır meyin ürəyi,
Sənin yaman gününə saz belə nəva eylər.

Bəzək üçün başına taxmısan hüma telini,
Səmur xəzilə veribsən vücuduna ziyvər.

Salıbsan öz-özünə vəhşilər qiyafəsinə,
De, səndə kim tapar insan təbiətindən əsər?

Sənə ki, vəhşilər olmuşdur iczidən tabe,
Zor ilə eyləmisən onları özünə nökər.

Olubdur aciz arı xidmətində amadə.
Zəif qurd, "qulunam", ləfzini edib əzbər.

Birisi ətləs hazırlar sənə, yeyər yarpaq,
Birisi şəhd verər, olsa da qidası zəhər.

Səninlə nəqs kəmalı tapar iki hünərin,
Yetər təbiətinə onların əlilə zərər.

Necə sənin qanına təşnə olmasın qurdlar,
Arı sənə necə kin ilə vurmasın neştər?

Gedib də məqbərədə dinlə, gör necə dil açıb
Məzar lövhü, sənə incə nüktələr söylər.

Uzaq bir arzu yolu var vücuddan ədəmə,
Birər düşərgədi bu yolda axşam ilə səhər.

Məzar əhlinə vurma qürur ilə tə'nə
Ki, vəslinə sənin həsrət çəkər bütün ölülər.

Yüz il bu yolda əgər sən tərəddüd etsən də,
Düşünmə qalmayacaq arxada bu mənzillər.

Bu illər, aylar həqiqətdə bir telə oxşar
Ki, onda daneyi-təsbihdir bu növ'i bəşər.

Rəva deyil belə təsbih çevrilib, bitsin,
Dilində zikri-xudavənd olmasın əzbər.

Çıxarma yaddan, amandır, cəhənnəmi bir an
Ki, şəm'i nur edər bəxş, şö'leyi-azər.

Bu gün gözəlləri meyxanədə görən bir kəs,
Nə huri-cənnət edər arizu, nə də məhşər.

Meyi-Muğanı gecə içmə kim, səhər tezdən,
Sənə şərabi-təhur, saqi öz əlilə verər.

Eşitmişəm ki, xuda əmrini tutan bir kəs,
Əgər pozarsa bu əmri, günahı əfv edilər.

O səhv yol ki, tutubsan dəvam qıl, qorxma,
Qəfur adını Allaha verməmişlər hədər.

Tutaq ki, pis işə dünyada etmədin iqdam,
Behiştə basdın ayaq pak, sanki peyğəmbər.

Sənin başında həva yoxsa, şurdan başqa,
Sənin ki, fikrini məşğul edibdir ancaq şər.

Çalış sənin oduna yanmasın barı rizvan,
Behişt qəsrinə həm yetməsin əlinlə zərər.

Şimalü Şərqü Cənub ilə Qərbdən əsərək,
Küləklər oldu sənin xidmətində bir çakər.

Necə ki, muzd alar xacəsindən hər muzdur,
Həyat nəqdini onlar o növ'i qarət edər.

Sənin ki, cümlə zərərdir qazancın aləmdə,
Qazancın ancaq o muzdur müzdünə yetişər.

Hübab tək elə zənn et ki, badə getmiş evin,
Nə tikmisənsə, onu çərx edibdi zirü zəbər.

Boyun əyib diləmə kimsədən gözəl güzəran,
Çevir üz ol kəsə ki, hər işə olub mehvər.

Əliyyi-aliyi-ə’la ki, elmlərdə bütün,
Təmami aləmə ustad olub və həm rəhbər.

O dövrdə ki, nə Davud, nə Zəbur var idi,
Onun mübarək adı verdi aləmə ziyvər.

Təmam ruhlar onu zikr edib, vəli yox idi
Onun vücudi-şərifindən aləm içrə əsər.

Mələklərin bütün əxlaqi onda olmuş cəm,
Onun vücudinə məxsusdur zəkayi-bəşər.

Əlindədir hamıya mümkün olmayan hər şey,
Onunla həll edilər həll olunmayan işlər.

Kəmər belində Süleyman qarışqaya qul olar,
Onun qarışqa kəmərbəstəsi olarsa əgər.

Yəqin ki, büt qaçaraq gizlənər birəhməndən,
Diyari-Hində əgər hökmi-şər’i etsə güzər.

O büt qıran əlinin Çində zirk olunsa adı,
Yəqin ki, büt kimi fəğfur huşini itirər.

Fələk üqabını şəhbazi-hökmün izlərkən,
Üqab sanki açar sərçə seydinə şəhpər.

Iki cəhanı xuda nüktə tək edib pamal,
Adınla başladı ruzi-əzəldə çün dəftər.

Adın gələndə düşər qorxu düşmənin canına,
Əli dedikdə olar həll cümlə müşküllər.

Dəlilə hacəti yoxdur iki şeyin, çünki
Dəlili onların afaqə bəllidir yeksər.

Biri günəşdir, edər qərq aləmi nurə,
Ikinci – silsilə ilə ötüb keçən illər.

Ölüb dübarə dirilməkdə bircə mə’na var
Ki, mehrü kinənin asarini biləydi bəşər,

Cəsədlərə yetirər sur müjdeyi-feyzin,
Tapardımı ölülər suridən həyat məgər?

Şəriətini görüb küfrdən dönən hər kəs,
Püli-siratidən eylər hidayətinlə güzər.

Qəza sənə bu cəhan dilbərini əqd etmiş,
Hərimi-qüdsi tərəbxanə eyləmiş bu xəbər.

Sənin məhəbbətin olmazdısa, sevəmməzdi
Qız oğlanı, qızı oğlan cahanda, ey sərvər!

Sənin məhəbbətin ilə yarandı bu varlıq,
Zəmanə dostluğuna varlığın olub məzhər.

Əcəb deyil ki, yetər cövri-ruzigar bizə,
Rəqib cövrinə eylər təhəmmül aşiqlər.

O qəlbə kim, eləmiş fikri-rəhmətin tə’sir,
Cəhənnəm atəşi etməz o pak qəlbə əsər.

Xəvərnəq üstünə Bəhrami-Gur yazmışdır
Ki, qəbri mülki-Nəcəfdə olan bütün ölülər

Bağışlanar kərəmindən yəqin şəhi-Nəcəfin,
Edər günahlarını əfv xaliqi-əkbər.

Məhəmməd ümmətinə ruzi-həşrdə qarışar,
Əqidəsincə bu aləmdə olsa da kafər.

Sən, ey mənim ulu şahim, əlac qıl, qoyma
Zəmanə kamıma töksün cəfa əlilə zəhər.

O guşəyə qaçaraq, gah valehü heyran,
Bucaqda gah oturum qismətim fəraqü kədər.

Vüsal caminə həsrət nişat bəzmində,
Nə əmndən, nə amandan, nə mehridən var əsər.

Bir öylə qövm içinə düşmüşəm ki, cəhlindən,
Kəmali, əqli ağılsızlığın dəlili bilər.

Nə şe'r zövqi qanarlar, nə də ürək dərdi,
Çörəkdən ötrü əyər başı təndirə yeksər.

Kəlim əsasi ilə Tur sirrini xəlqə,
Mənim iti qələmimlə sözüm açarsa əgər.

Birisi tə'n ilə adlandırır məni Məcnun,
Sözümə sehr deyər, digəri atır mənə şər.

Könüldə şövq odunun şö'ləsi sönüb getdi,
Su səpdi əhli-məlamət bu sinəmə o qədər

Ki, qəlb tarlasına indi Hind torpağı tək,
Mən istiot səpərəm, kafuri bəhər yetirər.

Gəhi sözün dənizində mən əl-ayaq çalıram,
Ki, incilər taparaq, nəzminə verim ziyvər.

Sənəvü mədhinə layiq bir inci tapmamışam,
Dənizlər içrə bəla çəkmişəm uzun illər.

Şəha, kəramət üzündən yazıq Füzulini
Nicat sahilinə çək, yolunda varsa xətər.

Onun qarə gününə nur saç cəmalinlə,
Qaranlıq axşamını qıl özün işıqlı səhər.

Dözümlüsən, bilirik, zülmə sən özün, əmma
Bizim hərayımizə çat ki, səbrimiz tükənər.

Ümidimiz bunadır kim, coşa kərəm dənizin,
Bu aləm əhlinə iysar edə dürü gövhər.

Hüdudsuz kərəmü lütfü iltifatından
Mənə nəsib elə daim sevinc, ey sərvər!

* * *

Qışın günündə səhər başlayıb soyuq ruzgar,
Ağacların canına sanki qorxu, lərzə salar,

Demə ki, yer çəkib ağuşə şövqili günəşi,
Demə, ağ örpəyini dağ başına sərmiş qar.

Biri səhər açılınca çəkib soyuq dərdi,
Gündüz olunca tutub manqalın yanında qərar.

Yağış döyüb birinin başına bütün gecəni,
Günəş tutan yerə sərmiş səhər-səhər dəstar.

Qış aylarında gözün çək səhər nəsimindən,
Məhaldır yetirə xeyr bir kəsə əşrar.

Uzatma bəhmən ayında əlini arx suyuna
Ki, onların birisi zəhrdir, biri şahmar.

Yağış havada soyuqdan elə düyümləndi
Ki, oldu qətrələrin hər biri düri-şəhvar

Zəmana verdi riza dəf’ələrlə kim, şimşək
Çaxıb buludları pambıq tək etsin atəşbar.

Bunun da olmadı bir faydası yəqin buluda,
Soyuq qovurdu onu, nə’rə çəkdi, ağladı zar.

Məqam barədə çün Malik ilə Rizvanın
Açıldı bəhsi, uzun çəkdi bir gecə göftar,

Sübut üçün hərə öz iddiasını dedilər,
Birər dəlil ilə etsin kəmalını izhar.

Biri dəmət tutaraq gül gətirdi cənnətdən,
Ikinci töhfə gətirdi soyuqda xəlqə şərar.

Hamı bu bəhsdə Malik tərəfdə durdu, dedi:
Cəhənnəmin odu cənnət gülünü eylədi xar.

Soyuqda çöllülərin halı çox pərişandır
Ki, qışda rahət olur çöllülərdən əhli-məzar.

Gəl indi od içinə qoy qədəm Xəlil kimi,
Varınsa arzun əgər, od sənə ola gülzar.

Belə soyuqda oda sal nəzər Kəlim kimi,
Gözün də ta ki, ola nura qərq arizi-yar.

Su hər tərəfdə donub, dağ kimi qalanmış buz,
Günəş də sanki, fəzadə donub, aya oxşar.

Sular düyünlənib, üzdən günəş asıb pərdə,
Dəniz dibində balıqlar bu həsrət ilə yanar.

Bu fəsldə itirib hər şey öz təbiətini,
Çölün havası, suyu qıldı tişeyi-nəccar.

O qədr ki, su dayandı, o qədr od yandı,
Soyutdu torpağı şaxta, havanı tutdu qubar.

Əlinə aldı hava ixtilaf qayçısını,
Nə lütf paltarı qoydu fələkdə, nə pərgar.

Məzaci bir daha salsınlar e’tidalə deyə,
Bahar fəslini dörd ünsür arzular, ağlar.

Soyuqda kimsə gedə bilməyir bağa seyrə,
Məgər o dəmdə ki, güldən şərər çıxa, yana xar.

Qışın günündə xoşa məncə, halinə o kəsin
Tuta səlamət evində fərağət ilə qərar.

Xəzanın əvvəl ayından girib evin içinə,
Kənarə basmaz ayaq gəlməyincə fəsli-bahar.

Yanında dilbəri, cami, kitabı, bir də sazı,
Bu dörd şeydən əlavə o, tərk edər nə ki var.

Gəhi kitab oxuya, gözlərinə nur gələ,
Gəhi sevinc verə könlünə onun dildar.

Sazın nəvası edə hər dəqiqə keyfini saz,
Başında qaldıra gəh badənin buxarı buxar.

Bu xəlvət evdə çəkib bağlaya qapı-bacanı,
Necə ki, yar yumar gör, görəndə bir əğyar.

Zəmanənin ələmindən xilas ola, necə kim
Fəsadi-şirkdən əhbabi-Heydəri-Kərrar.

O, dini-həqq səmasında mahi-tabandır,
Imami-insü mələkdir, şəhi-səriri-vüqar.

Odur müdam edən dərk hər kəsin işini,
Odur həmişə və hər yerdə vaqifül-əsrar.

Kim etsə dərk onu, bəhrə görər həyatından,
Kim olsa tabe ona, arzu bağçası gül açar.

Onun önündə kəmər bağla, ol kəmərbəstə,
Kəmər dedikdə tək oldur, qalanları zünnar,

Cəza günündə onun misli, bir nəfər yox idi,
Nə feyzdə, nə hünərdə məhacirü ənsar,

O, Zülxümarə verib zülfüqar ilə bir mey,
Yəqin ki, olmaz o, məşhər günü belə hüşyar.

Əcəb deyil, o cavanmərd sayilə vermiş
Yükü cəvahir olan naqələr qətar-qətar.

Onun səxavəti cuşə gələrsə, bir anda
Gədayə bəxş edər yüz qətar, bəlkə həzar.

Dəvə qətarı əgər olsa yeddi səyyarə,
Vurulsa onlara sandıq kimi fələklər bar,

Zəmanə həftəsini daima qətarə düzən
Qəza verər onun övladına özü ovsar.

Qiyamətin gününün əksinə, bu aləmdə,
Həyat bir gecədir qıssa, sərt, zülmətbar.

Yatıb qürur ilə cümlə xəlayiq ol gecədə,
Əli, ibadət üçün həqqə, tək qalar bidar.

Yumulmamışdır onun gözləri belə yuxudan,
Bunu adındakı “eyn” hərfi də edər iqrar.

Nə qorxu vardır, ona düşmən olsa aləm əgər,
Yatan necə yetirər yatmayanlara azar?

Vəfa xəzinəsinə ol xəzinədar olmuş,
Nəcatə doğru odur cümlə aləmi aparar.

Odur cahanda olan lütfü mərhəmət kanı,
Nəcat üçün bütün aləm ona pənah aparar.

Kəramətilə o, yüz min Məsihi zində qılıb,
Səxavətinə olub yüz Xəlil minnətdar.

Üzünü dərgəhinin asitaninə qoyaraq,
Sızıldar, üzr dilər, bu zəmaneyi-qəddar.

Edəndə vəsf o şahı qələm, kəsildi dili,
Bununla aləmə öz iczin eylədi izhar.

Onun yoluyla gedən dostların qədəmlərinə.
Kəvakib incisini çərx edər tabaqla nisar.

Sən, ey gözəl sifəti, lütfü binəzir olan,
Qulami-həlqəbəgəşun olub sənin əhrar.

Sənin məhəbbətini bilməyən böyük ne'mət,
Tamam ne'mətinin həqqin eyləmiş inkar.

Vəfa yolundakı bikəslərə pənah sənsən,
Kim iltica eləmiş, olmusan ona qəmxar.

Şəha, mənəm ki, sənin dərgəhində şamü səhər
Tutub qərar, edərəm vəsfini sənin təkrar.

Deyil ki, təkcə mənə feyzin etmisən şamil,
Tamam xəlqə yetər feyzin, ey böyük sərdar!

Varındı süfreyi-lütfündə minlər ilə fəqir,
O süfrədən döşürər xırda bu Füzuliyi-zar.

Ümidimiz bunadır kim, nə qədr yer dayanır,
Nə qədr seyr edəcəkdir bu günbədi-dəvvar,

Baharı dostlarının görməsin xəzan bir dəm,
Xəzanı düşməninin olmasın bir an da bahar.

* * *

Vaxt oldu ki, şami-qəmi-hicran səhər olsun,
Istək ağacı ta çiçək açsın səmər olsun.

Ümmid üfüqündən ucalan bir qəmər olsun,
Zülmət gecədə nuri-səhər şö'ləvər olsun,

Bəxt ulduzu nəsdən çıxaraq bixətər olsun,
Yar vəsli üçün bunca duada əsər olsun,

Taki səfərə getmiş o yardan xəbər olsun.

* * *

Ey atəşi-can, atma bu dəm əhli-vəfanı,
Gəl, gəl, uzaq et bu qəmi, bu dərdü bəlanı.

Allah yetirəydi bizə sən məhliqanı,
Aç pərdəni, göstər bizə ol ruyi-səfanı,
Bir dəm gəl unutma, gözəlim, biz füqəranı,
Bir rəhm elə, göndər nə olar badi-səbanı,
Səndən bizə barı arabir naməbər olsun.

* * *

Bir ömr keçib, şövqi-rüxün baqidir hala,
Bu canım edər vəslini hala da təmənna.
Qəlbimdə yer etmiş o gözəl zülfi-çəlipa,
Sinəmdə əcəb şur salıb ol qədi-rə’na!
Ol xaki-dərin başıma salmış necə sevda,
Ol qaşlarının fikri edibdir məni rüsva,
Səndən də bizə barı bir azca nəzər olsun.

* * *

Dostluqda bizim ilqarımız vardır hər anda,
Hər əhdimizə sadiqik, ey yar, cahanda.
Getdin, bizi qoydun belə tək dövri-zamanda,
Keçdi günümüz həsrət ilə nalə, fəğanda,
Səndən uzaq olduqca kədər artdı bu canda,
Qoyma ki, qalaq biz yenə də ahü amanda,
Qoyma halımız get-gedə bundan bətər olsun.
Ey sərvi-səhi, möhnəti-hicrində sərasər,
Qəlbim tutulub, könlüm olub qəmli, mükəddər.
Vəslin hanı, ta huşə gələ bu dili-müztər,
Kuyindən əsən yel eləsin qəlbi müəttər.
Misli-əsəri-rayiheyi-iyzədi-davər
Kim, dəşti-Ühüd içrə o dəm əsdi müzəffər,
Taki mədədi-ləşkəri-xeyrül-bəşər olsun.

* * *

Ey şah, sənin çərxi-fələk xaki-dərindir,
Hər işdə qəza xidmət edən kargərindir.
Ovraqi-fələk dəftəri-fəzli-hünərindir,
Övladi-bəşər xilqəti feyzi-nəzərindir.

Bir bəhrsən, ərvahi-əimmə gühərindir,
Bir nəxlsən, ənvari-vilayət səmərindir,
Müşkül ki, digər nəxldə böylə səmər olsun.

* * *

Xaki-dərinin zərrəsidir tinəti-Adəm,
Öpməklə sənin payını olmuş o mükərrəm.
Təşrifi-imamət sənin əmrinlə müsəlləm,
Zatındır olan cümleyi-məxluqə müqəddəm.
Olmuşdur iradənlə bu aləm belə möhkəm,
Ta ruzi-cəza, dəhridə durduqca bu aləm,
Heyhat, sənin tək yenə növ'i-bəşər olsun?!

* * *

Şahım, sənin ilə düzəlib səfheyi-əyyam,
Ilk dəf'ə səninlə yazılıbdır xəti-islam.
Əvvəlcə çəkilməzdi bu dindən azacıq nam,
Şər'inlə sənin indi bu aləm tutub aram.
Etmiş necə bədfitrət olanlar belə iqdam
Kim, hiylə ilə sübhi-səfanı edələr şam,
Lakin görülübmü ki, riya mö'təbər olsun?!

* * *

Çək tiğini, gəl indi bu naəhlə cəza qıl,
Bir zərbə ilə zülməti yar, nuri əta qıl.
Bil dərdimizi, lütf eyləyib dərdə dəva qıl,
Hər arzumuzu dinlə, onu tez də rəva qıl.
Düşmənləri məhv etmək üçün səbri rəha qıl,
Öz şər'in ilə dərdə qalıb dəf'i-bəla qıl,
Qoyma ki, tikandan bu yol üstə əsər olsun.

* * *

Şahim, mənə dostluqla gülər ruyi-şəriət,
Bu dostluq ilə əhli-yəqinlər tapar hörmət.

Kim xaki-dərində nökər olsa, o nəhayət,
Hər məclisi-üns içrə tutar cayi-sədarət.
Mədhinlə tapır xəstə Füzuli də səadət,
Həqqa, belə olmuş ona bu mədhlər adət,
Ta bülbüli-təb'i dil açıb nəğməkər olsun.

* * *

Səhər çağı açılarkən qovuşdu leylü nəhar,
Üfüq açıldı, seçildi qoyun ilə canavar.

Yaşıl çəməndə sürü otlayırdı asudə,
Hücum edib canavar onda qoymadı asar.

Açıb yerin beşiyin çərx min məhəbbətlə,
Günəş uşağına oldu o dayətək qəmxar.

Günəş üfüqdə görüncək sitarə oldu nəhan,
Necə ki, xanı görəndə ərəblər etdi fərar.

Fələk cəlallı o xan seydi-düşmən əzmilə,
Külək kimi qanad açmış bir ata oldu səvar.

Ucaldaraq başı üstə zəfərli bayrağını,
Sağü solunda qoşun cuşə gəldi bimiqdar,

Qoşunların tozu lütfilə sanki bir seyqəl,
Apardı ayineyi-təb'i-dəhrdən o qubar.

Bəzəndi ruyi-zəmin ləşkərin vürudindən,
Üz açdı sayeyi-lütfində, bax, gülü gülzar.

Edib də mərhəmət açdın dəri-kəramətini,
Böyük, kiçik o qapından pay aldılar təkrar.

Ki nagəhan yola çıxdı hünərlə bir quzucuq,
Üzündə nuri-lətafət, yürüşdə xoş rəftar.

Bir ol quzuydu ki, dövran Həməl qoyub adını,
Günəş çatanda ona başlayar zamani-bahar.

Onun atası idi Ismayıl qurbanı
Ki, töhfədir, deyə, göndərdi iyzədi-cəbbar.

O müşk tək ki, lətafət alıbdı səhradə,
Tikan dibində bitən bir gül idi məstü xumar.

Qəza ki, hər kəsə eylər müqəddəratı əyan,
Tək onda cəm' qılıb hikmət ilə çox asar.

Şaha, gədayə fərəhdir beyin ilə dərisi,
Sufi yunun arayar, həm ətini badəküsar.

Hamı bıçaq çıxarıb istəyər onu kəssin,
O isə hər kəsə bir yaxşılıq gözüylə baxar.

Sevər, kimi görər isə o, nazlı dilbər tək,
Özüysə aşiq olan tək həmişə xəstəvü zar.

Zəbani-hal ilə söylər ürəkdə min nalə
Ki, ey cəlalı böyük, xani-asimanmiqdar,

Mənəm zəifü zavallı, doğulduğum gündən
Fələk məni ələmə, dərdə eyləyibdi düçar.

Salıb məni bu yonulmaz ərəblər içrə qəza,
Edib məni daha da natəvanü diləfgar.

Bu bədməzac cəmaət kobud və nacinsdir,
Bütün əməlləri pisdir, nə dil bilir, nə də ar.

Hamısı əlbir olub etdilər xana üsyan,
Hamısı dilbir olub da nifaqə verdi qərar.

Bütün fikirləri boşdur, xəyalları sərsəm,
Yolu azıb da ediblər fəsadü fitnə şüar.

Aşıbdı borcları həddən, qalıbdı vergiləri,
Fəqət ki, verməyə yoxdur olarda bir dinar.

Gah üz tutub qaçışırlar da Bəsrə ölkəsinə,
Cəzayirə eləyərlər hamısı gahi fərar.

Inəkləri çox ağır yük daşırdı, axırda
Qısır qalıb, baladan məhrum oldular naçar.

Qoyun, quzu üzülübdür tamam bu təfriqədən,
Doğum və quyruq əlindən olubdular bizar.

Həmişə qorxu içində: necə keçər əhval,
Həmişə dəhşət içində: nə vəqt çatar ilğar?*[*]

O vaxt zülm olunurdu mənə, nəhayətdə,
Yetişdi imdada ta ləşkəri-zəfərasar.

Bu gün də mən çəkirəm zillətin o şəxslərin,
O şəxslər ki, mənə hey verirdi qəm, azar.

Əl atdı qarətə, ləşkər məni çox incitdi,
Məni ata-anadan, eldən etdi böylə kənar.

Kimə yanaşdım isə qəsd qıldı qətlimə o,
Qanıma təşnə olub coşdu ləşkəri-xunxar.

Gəlib hüzuruna xanın, ona sığındım ki,
Dərimi soymaya bəlkə bu dəsteyi-qəddar.

Mənim günahım əgər düşmən ilə olmaqsa,
Buna ki, yüz dəfə etdim üzürlə istiğfar.

Kəsib əlaqələri bu sürüdə itlər ilə,
Keçi sifətli ərəblərdən olmuşam bizar.

---

[*] İ l ğ a r – basqın

Edib də xof deyərdim: “Mən onları sevirəm”,
Bu qorxu keçdi, indi eylərəm inkar.

Qoy olsun Hafizə, Mənsurə indi min lə’nət,
Yox olsun indi tamam ol Rəbiyyeyi-qəddar.

Müşə’şə’ əhlinə olsun cahanda min lə’nət
Ki, onların işidir eyləyən Rəbiəni xar.

Şükür ki, həzrəti-Xanın atası, mərhəməti
Xilas etdi məni bu bəladən, ömrüm var.

Ədalət ilə bu dünyada ey tapan şöhrət,
Hamı sənin bu böyük ədlinə edir iqrar.

Belə olub ki, sənin ədlinin şüasində,
Qoyunlara kömək olsun o rəhmsiz canavar.

Kim aciz olsa, ona sən həyansan hər işdə,
Təbibi sənsən əgər olsa xəstəvü bimar.

Nə qorxusu olacaqdır o ləşkərin ki, bu gün
Olub sənin kimi bir şəhsüvar ona sərdar.

Bəzəndi fəthlər ilə sənin bu xoş bəxtin,
Necə ki, rəngbərəng güllər ilə fəsli-bahar.

Bir həbbə üstə hüdudsuz niza’ edən şəxsin,
Tutub da aldın əlindən nə qədr dövləti var.

Bu güclü bəxtini dünyadə bilməyən hər kəs,
Əzəldə cəhli üzündən olar sənə əğyar,

Çəkib xeyirsiz əziyyət, nəticəsiz zəhmət,
Axırda hökmünə qul tək boyun əyər naçar.

O təblinin səsi ilə oyandı cümlə cahan,
Cəzayir əhli bütün oldu xabdan bidar.

Qəzəb camındın içərkən sənin bir az Hafiz,
Fikirlərilə bərabər yox oldu ol əşrar.

Yananda bayrağının şö'ləsi səmalərdə,
Ucaldı, gör ki, Müşə'şə'də bərqi-şö'leyi-nar.

Nə Vasit ölkəsi, yainki Lor ərazisi,
Cəvizə, Şüştərə də çatmış oldu bu əxbar.

Fələklərə ucalan, ey cəlallı sərkərdə,
Pənahimiz sən özünsən, bizə gəl ol dildar.

Füzuli mədh qılar daima kərəm əhlin,
Səni də tə'rif üçün dil açıb o sən'ətkar.

Nə qədr dünyada vardır bu çöl, bu dağ, bu çəmən,
Nə qədr ki, yer üzündə öküz, qoyun, quzu var,

Yox olmasın başın üstündən heç də sayeyi-həq,
Həmişə taleyin olsun kömək və bəxtin yar.

* * *

Həva bərki-xəzani bağ içində tökmədə lərzan,
Olur hər yan yaşıl otların üstü sanki zərəfşan.

Olub gülşən üzü təzə və yarpaqlar təmizlənmiş,
Silibdir qəm tozunu hər tərəfdən qətreyi-baran.

Külək vermiş məgər gül şaxinə yazdan xəbər kim, o,
Verib zər paltarın yarpaqdan olmuşdur belə üryan.

Qaçıb deydən* gümüş pul tək çiçəklər gizli saxlanmış,
Xəzan açmış xəzinə, aləmə səpmiş qızıl reyhan.

Çəməndən nazəninlər evlərə meyl etdilər indi
Ki, xəlvətdə nigarın vəslinə vardır əcəb imkan.

---

* De y – qışın birinci ayının adıdır.

Çirağü sağərü səhba şəbistanə verib ziynət,
Daha xoşdur bu sərvü laləvü gül indi bostandan.

Belə mövsümdə bir künci-fərağətdə olan arif.
Edir qış fəslinin şiddətlərini özünə asan.

Ona, bil, eyni-işrətçin bahardan da xəzan xoşdur,
Əgər yoxdursa gül bağda, yanında əyləşib canan.

Girib bir xəlvətə şəm'ü mey ilə xoş ola qəlbi,
Misali-lə'l ola mə'dən ilə dəmsazü həmdastan.

Girib xəlvətsəraya gizli qalsın qönçə tək ta ki,
Desinlər əbri-nisan gülşən içrə oldu dürəfşan.

Bahar əyyamı yer səthi dönübdür bir gülüstanə,
Açıb hər bir tərəfdən gül, yaranmış cənnəti-rizvan.

Töküb gül yarpağı şəbnəm, ürəklərdən silindi qəm,
Qızıl gül şaxəsi hərdəm açıb ləb oldu xoş xəndan.

Xəzan əl çəkdi ğarətdən bu səhni-gülşəni baği,
Ədalət bayrağı açdı, gül oldu gülşənə sultan.

Hava gül şaxəsindən qönçələr qaçıb qaçırmışdı,
Geri verdi nəhayət qönçəni, oldu yəqin peşman.

Bu aləm geydi rəngarəng libasi səbzəvü güldən,
Sanasan dini-islamə gətirdi köhnə gəbr iman.

Səba fəxr etdi səbzəylə, yaşıllıq gülsitan ilə,
Səmən gül cilvəsinə, gül də sərvin rəqsinə heyran.

Tikan batmış ayağına gülün, sərv isə bənd olmuş,
Əcəb, bəs bu necə işdir ki, onlar oldular rəqsan?!

Şəfəq tək hər tərəfdən bir çiraq yandırdı hər lalə,
Haman atəşlə qurtardı bütün aləm soyuq qışdan.

Qurubdur xeyli səhradə, çıxıbdar qönçədən güllər,
Keçibdir xəlvət əyyamı, çatıbdır mövsimi-seyran.

Həvadən qorxaraq şəm'i-şəbistan tək qalan dilbər
Çıxıbdır sərv tək indi, olubdur azimi-bustan.

Yaşıl otların üstünə səpilmiş daneyi-şəbnəm,
Düzülmüş sanki firuzə üzündə dürlər yan-yan.

Çıxıb gül mənbərinə bülbüli-şirin-zəban, sanki,
Odur indi xətibi-xütbeyi-şahənşəhi-dövran.

Şəhi dünyavü din Sultan Süleymani-mələksiyrət
Ki, ədl ilə olub varis Süleyman mülkünə əl'an.

O bir şahdır, onun zikri gəlir xoş əhli-dünyayə,
Bahari-gülşəni-canə, nəsimi-lütfü vermiş can.

Ayırdı hümməti ilə həqiqət ilə, nahəqqi
Təriqi-taəti oldu həsari-küfr ilə iyman.

Bütün viranələr indi onun feyzilə abaddır
Səxali əlləri etdi fəqət öz gəncini viyran.

Onun dövründə məhv oldu cəfavü zülm aləmdə
Ki, aşiq bilmədi hətta nədir işkənceyi-canan.

Onun dövlət əsasından qəza me'marı hökmilə,
Cahanda altı səmtilə müəyyən oldu dörd ərkan.

Döyüş vaxtında ol şahin oxuyla xəncəri əlbir,
Həvavü su kimi işlər, qızıl qanə dönər meydan.

Qılıncı doğrayar dərhal o bədxah düşmənin qəlbin,
Rəqibin gözünə sivri tikan tək sancılar peykan.

Quranda məclis ol sultan düşər baği-Irəm yadə,
Qədəh bir səlsəbildir, saqisidir huriyü qılman.

Firudin bəxtli bir şahsan, Səlim ayinli iqbalın,
Sənin tə'rifin olmuşdur misali-Rüstəmi-dastan.

Işin düz oldu, çünki düz olub hər söz və ilqarın,
Rəqibin əydi qamət, əyridir çün ondakı peyman.

Günəş tək hər yerə saldın nəzər, nur aldı dünyanı,
Rəqiblər kölgə tək səndən qaçıb tez oldular pünhan.

Sənə şər'ilə baqidir həmişə feyzi-dövlət, bil,
Kimə Xizr olsa bir pişrov, yaşar əlbəttə cavidan.

Fələk gördükdə rəxşində olan cövlanı, mat qaldı,
Donub qaldıqda, heyrətdən dayandı gərdişi-dövran.

Böyük şahim, Füzuli bir susan bülbüldü aləmdə,
Dil açdı indi sayəndə, necə gör oldu xoşəlhan.

Sənin dərgahinə gəldi, buraxdı başqa dərgahi,
Olub xani-Xəlilullahə sanki bir fəqir mehman.

Ümidim var bu dünyadə edim mən də səni tə'rif,
Necə Məhmudi Firdovsi və Sultan Veysi də Səlman.

Bu mədhində mənim nəzmim sənə bəxş eyləyər şöhrət,
Sözün feyzi edibdir hər kəsi, bil, şöhreyi-dövran.

* * *

Mən ol bülbüli-gülşəni-aşina
Ki, qürbətdə qalmış əsiri-bəlayəm.
Bu nəğməm nəvadır, özüm binəva,
Ümidim kəsilmiş, vətəndən cüdayəm,
Həyatım ağırdır, günümdür qara,
Bu iş ah, nə işdir ki, mən mübtəlayəm?!

* * *

Olub şəm' kimi eşqdə biqərar,
Gecəm uyxusuzdur, günüm ahü-zar.

Sərasimə haləm, siyəh ruzigar,
Ürək yanğısıyla gözüm əşgbar.
Yaxar qəlbimi ahi-atəşfəza,
Bu yanğıyla mən talibi-rövşanəyəm.

* * *

Işimdən cəzanə gəlibdir cahan,
Mənə e’tibar etməz oldu zaman.
Vəfasız yaranmış deyin asiman,
Bu yüngül yürüşlü, ağır baş səma,
Bilir mən əsiri-kəməndi qəzayəm.

* * *

Qaşından uzaqda mənəm, bilcünun,
Siyəh razigarü zəifü zəbun,
Hilal tək şəfəqdə mənəm qərqi-xun!
Əyilmiş qəddim də olub hərfi-nun,
Tənim natəvan oldu, ey dilrüba,
Əyildi bu qamət budur, bax, dütayəm.

* * *

Şikayət varımdır mənim bihesab,
Ürək də olubdur bu dərddən kəbab.
Daha yox bu sonsuz qəmə, dərdə tab,
Bilir ölkənin katibi ol cənab.
Odur tək mənim halimə aşina,
Bu sözdə bilir ki, yəqin biriyayəm.

* * *

Bütün xəlq üçün o, köməkdir, inan,
Onunla nizama düşübdür cahan,
Onun qüvveyi-elmi olmuş əyan,
Əlilə düzəlmiş ümuri-zəman.

Böyük incidir, gövhəri-pürbəha,
Işıqlı sitarə, ona mən fədayəm.

* * *

Durar tə’zimində fələk sərbəsər,
Onun sayəsində cahan yüksələr.
Ona xidmət eylər qəzavü qədər,
Onun qarşısında səmalər əgər
Edərsə ləyaqət, şərəf iddəa,
Buna oxşayar ki, deyə bihəyayəm.

* * *

Sən oldun cahanda belə müqtədir,
Qəzanın işi əmrinə müntəzir,
Sən oldun bilik ölkəsində əmir,
Qəzavətdə-ğazi sənə yox nəzir,
Əlində qələm-nizə, batmış qana,
Deyir: əhli-üsyan üçün əjdəhayəm.

* * *

Şahim, bircə sənsən mənimçin xəyal,
Mənə ruh verir səndəki xoş cəmal,
Həmişə dilərdim çataydı vüsal,
Əgər mən gecikdim, sən etmə sual.
Əmirim, yəqin bil, səbəb var buna,
Demə ki, mən əhdi pozan bivəfayəm.

* * *

Hər anda gələrdi mənə bir soraq,
Müsafir çox idi, yolumsa uzaq,
Sən oldun nəhayət bu qəlbə dayaq,
Böyüklər başına basıb mən ayaq,
Olub rəhrəvanın mənə rəhnüma,
Bu yoldan gələn mən də bir binəvayəm.

* * *

Şahim, mən səninlə tapıb e'tibar,
Olub sayən altında çox bəxtiyar,
Hələ bilməyirdim nədir intizar,
Eşitdim veribsən belə bir qərar
Ki, sayən başımdan alırsar, şəha,
Bu qorxunc xəbərdən yaman narizayəm.

* * *

Sən Allah, bu fikrə gəl etmə həvəs,
Gedirsən, yerində qalır hansı kəs?
Kimə tapşırırsan bizi onda bəs,
Füzuli səninlə alırdı nəfəs,
Onun dərdinə bircə səndən dəva,
Gəlincə çıxar can ki, hali fənayəm.

* * *

Ilahi, özün ol ona pasiban,
Ona ver bu yolda hər işdə aman.
Ona qürbət eldə özün ol həyan,
Kərəm süfrənə et onu mihiman.
Ona müttəsil feyzini qıl əta,
Yolunda duagü və nəğmə-sərayəm.

* * *

Mərhəba, ey qələm, ey şəm'i-şəbüstani-məqal,
Namələr xaliqi, peyğəmbəri-me'raci-xəyal.

Füqəranın köməyi şahə verən dərsi-ədəb,
Əhli-dil yoldaşı, məhbubeyi-ərbabi-kəmal.

Surəti-hüsn sənin ətrin ilə ənbərbu,
Dilbəri-mə'ni sənin zövqün ilə mişkinxal.

Qədinin yüksəlişindən yaranır qaməti-hüsn,
Tellərindən yaranır zülfdə min hüsn-camal.

Doludur səfheyi-gülzar sənin xəttinlə,
Yaqutunla doludur daməni-dil, malamal.

Qoy səninlə ucala qədrimiz aləmdə bizim,
Açа ağuşunu ta bizlərə hər bir amal.

Kimə yar oldun isə dövlətə çatdırdın onu,
Sənin ilə bəzənir, qürrələnir hər iqbal.

Gör necə yüngül ayaqsan, hamıya xidmət üçün
Başı üstündə gəzirsən, dolanırsan məhü sal.

Feyzdir təb'i-səlimin bu cahan içrə sənin
Sehridir işlərin, amma necə bir sehri-həlal.

Bəxtinin dilbərinin hüsnünə bu kafirdir,
Olmusan mərhəmi-sərvi-çəməni-cahü cəlal.

O vəfa Misrinə Yusif və səfa əhlinə fəxr,
Asəfi-pakgühər, sərvəri-pakizəxisal.

Indi çatmış elə bir dəm ki, o aliqədrə,
Lütfilə söylərsən ki, necədir məndəki hal.

Yazasan gizli qalan sirrimi bir ağ kağıza,
Ona çatdırmaq üçün etməyəsən heç ehmal.

Sən bilirsən ki, necəydi keçən əyyamda işim,
Necə idi fələyin zülmlərindən əhval.

Dilbərin zülfü əlimdəydi, könül məcnundu,
Nəş'eyi-cam ilə başımda dolu zövqi-vüsal.

Indi gör surəti-halım necə bərbad olmuş,
Tutmuş ayinəmi bir qəm tozu, bir gərdi-zəval.

Qaldım avarə bu səhradə, kimə üz tutaraq,
Qəlbimin dərdin açım ki, dilim olmuşdur lal.

Yuxudan başqa yoxumdur mənim ümmidgahim,
Məşvərət eyləməyə mən açıram hər işə fal.

Yuxumu hər kəsə açdımsa, əziyyət verdim,
Daha da dərdimi artırdı cəfayi-rəmmal.

Mən belə dərdü bəla görməmişəm ömrümdə,
Heç zaman dərdə, qəmə düşməmişəm bu minval.

Hamı söylər ki, bunu həll edəcək Asəfi-dövr,
Belə olduqda mənim halımı bil, dərdimə qal!

Qələmə bağlamışam, xəstə Füzuli, ürəyi,
Var ümidim, verəcək bar nəhayət bu nihal.

Ah əgər bəxtim üzündən ola laqeyd mənə,
Tapmaya dərdi-dili-zarimi təhqiqə məcal?

Var ümidim ki, özü dərdə qalıb eylər əlac,
Razı olmaz ki, edəm başqasına ərzi-sual.

* * *

Fələk öz gərdişinə yoxsa peşiman oldu
Ki, bizim arzumuz ilə belə dövran oldu.

Düşmədik möhnət ilə, ğəmlə dolu guşəyə biz,
Məskənü mənzilimiz barigəhi-xan oldu.

Ey fələk sayəli, xoş üzlü, günəş seyrətli,
Bu fələkdən bütün işlər sənə asan oldu.

Bağdadın dövrəsinə xeymə qurarkən qoşunun
Qorxudan əhli-Iraqın dili lərzan oldu.

Sən günəş tək cahana nur səpərkən, bir bax,
Düşmənin ləşkəri ulduz kimi pünhan oldu.

Dövlətin Hilləyə qoyduqda qədəm bir anda,
Nur alıb qübbeyi-sahib də fruzan oldu.

Bu əziz yerdə göründükdə qoşun əhli, hamı
Baxdı bu dəbdəbəyə, qüdrətə heyran oldu.

Xəncərin vurdu Zübeydin sərini bir anda,
Diqqətin döndü əcəb afəti-üsyan oldu.

Bayraq açdıqda bu yerlərdə sənin mərhəmətin,
Rabiə nahiyəsi rovzeyi-rizvan oldu.

Kim qaçıb səndən uzaq oldusa, fərmanın ilə
Tutulub tezlik ilə daxili-zindan oldu.

Kim ki, istərdi səni zaru pərişan oldu.
Şükr kim, axır özü zaru pərişan oldu.

Bu ərəb ölkəsinə dəydi mübarək qədəmin,
Gül açıb gör necə bir güllü gülüstan oldu.

Düşmənin istər idi ki, suda sən ğərq olasan,
Özü axırda belə tö'meyi-tufan oldu.

Su isə oldu sənin əhlinə bir abi-həyat,
Düşməni boğdu, ona xəncəri-bürran oldu.

Kim sənə sərkəş olub istər idi fateh ola,
O, nəhayət baş əyib, bəndeyi-fərman oldu.

Bənzəyər düşmənin ol kafərə kim, əvvəllər
Hərb edib qaçdı, gəlib sonra müsəlman oldu.

Küfrə bel bağlayaraq yoldan azanlar indi,
Gördü Məhəmmədi tez sahibi-iman oldu.

Bir səfərdə sən iki qəl'ə alıb yüksəldin,
Taleyin də iki qat əsrə nümayan oldu.

Belə tez əldə olan fəthə səbəb mə'lumdur,
Səndəki sidqü vəfa, əhdlə peyman oldu.

Belədir qaidə kim, fəthə çatar dünyadə,
Kim Əli dərgəhinə bəndeyi-fərman oldu.

Nəcəfin təxtinə sultan o Əlidir, çünki
Qapısında nökəri huriyü qılman oldu.

Kim itaət edib ol feyzi-imamə bişək,
Həqq önündə günəhi qabili-ğüfran oldu.

Ey Füzuli, sevinib şükr elə kim, eşqi-Əli
Dini-islam ilə bu könlünə taban oldu.

* * *

Əhli-halə bəllidir kim, bu şəfəq neyçündür al,
Çünki qəlbində onun bir zərrə var sevdayi-al[*].

Kimdə on dörd mə'sumun eşqi ola, kamil odur.
Gör ki, on dörd gecəlik ay da tapır bundan kamal.

Asiman da dövr edir eşqi-imamətlə, yəqin,
On ikilə ölçülür, çünki baxın, bu mahü sal.

Hər şəhənşah sadiq olsa gər Əli övladına,
Ölkəsində olmaz əsla şurü qovğa, ixtilal.

Hər böyük sərkərdə olsa bəndəsi bu dərgəhin,
Afitabi-dövləti tapmaz bu dünyada zəval.

---

[*] Al – Məhəmmədin əbası altına toplaşan beş nəfərdir ki, buna "pənc təni-ali əba" deyirlər.

Bu səadətdən daha çox pay alıb tapmış şərəf,
Xosrovi-adildilü, fərrüxfəru fərxəndə fal,

Ol şəhənşahi-bülənd-əxtər şərəf ovcində bax,
Əxtəri-iqbalı görməz zərrəcə eybi-vəbal.

Izzü cahindən onun dövründə bu Hind ölkəsi
Bir səfa kəsb eyləmiş sanki gözəl ruyində xal.

Pərtövi-cahü cəlali Hində vermişdir bəzək,
Aləmə salmış səda onda olan cahü cəlal.

Hind içində nurdur, sanki bəsirət didədə,
Bunu aydın dərk edir istər cənub, istər şimal.

Qəlbinin tavusu uçmuş Hindidən gəlmiş, budur,
Kölgə salmaqçın açıb bu Kərbəla səhnində bal.

Hinddən gəlmiş onun şirin-süxən tutisi də,
Ta Nəcəf əhlində olsun nəğməzən, şirin-məqal.

Kərbəla ilə Nəcəfdə olmasaydı lütfü, bil,
Xəlqə asudə həyat olardı bir əmri-mahal.

Ondakı cudü səxanı gördü aləmdə yəqin,
Hind torpağı kimi olmuş qara şahlarda hal.

Sayəsində cümlə şahlar tə’zim etdi Məkkəyə,
Əks olan şahlara verdi hümmətilə guşimal.

Şahlara etdi təsəddüq xərcini müşkül, vəli
Qoymadı mülki-Iraqda bir nəfər əhli-sual.

Qütbi-din sultan Nizamülmülk, o dərya qəlbə kim,
Asiman bəndə olubdur gərdənində bir hilal.

Dərgəhi-şahi-vilayət torpağına daima,
Eyləmiş sidqi-səfası sayəsində ittisal.

Kərbəla şahi işıqlı qübbəsi olmuş hər an,
Məclisində nur verən bir şəm’i-fanusi-xəyal.

Kim boyun əymiş ona tapmış səadət feyzini,
Kim ona düşmən isə, olmuş cahanda payimal.

Zər səpibdir Hind yerində afitabi-hümməti,
Ətr saçdı hər yerə o, zə’fəran ənbər misal.

Hind torpağı tamam olmuş qızıldan bəhrəvər,
Sürmə üçün zərrəcə torpağa yoxdur ehtimal.

Hindlilər zər verdi aldı Kərbəla torpağını,
Lütfü xalqı saxladı, olmadı heç bir qeylü qal.

Taki tə’zim eyləsin qədrinə xaki-Kərbəla,
Ərzi-Babildən bu yolla Hində eylər intiqal.

Ey olan qəlbi bu gün ayinədari-feyzi-həqq,
Ey zəmiri məzhəri-asari-lütfi-layəzal.

Bu dənizdən sən alıb səpdin səxavətlə gühər,
Getdi bax, dəsti-kərəmdən indi hifzi-e’tidal.

Artıq Hindustan yerində təlxkamlıq qalmamış,
Bir dənizdir kim, çəkir qəlbində min dərdü məlal.

Çünki inci olsa da bu dəryanın hər qətrəsi,
Tapacaq bəhri-səxasi qarşısında tez zəval.

Sərvərim, məddahi-şahi-övliyayəm qəlbdən,
Əlli il söz söylədim, etdim bu dillə ərzi-hal.

Bu müqəddəs dərgəhə sadiqliyə var şahidim,
Qəddim olmuşdur bu dərgəhdə mənimçün hərfi-dal.

Əhd qılmışdım ki, tə’rif etməyəm mən şahları
Əhdimi sındırdı iqdamın sənin, ey xoş xisal.

Mən təmə’çin yox, fəqət tə’rif üçün söy söylərəm,
Çünki ancaq indi tapdım nitqə mən vaxtü məcal.

Lütfün olmuşdur sənin daim Əli əhbabinə,
Gər səni mədh etməsəm nitqim olar əlbəttə lal.

Bu Füzulinin dili mədhində söylər lütflər,
Dinməsə, qoy olmasın nitqi Füzuliyə həlal.

Hər bir ay eyvani-gərdunda olar bir hadisə
Kim, günəş ayla tapar dövri-üfüqdə xoş vüsal.

Səltənət xəlvətsərasında hicabi-qeybidən,
Qalibiyyət dilbəri hərdəm qıla ərzi-camal.

Əhdi-fəqrə, var ümidim, süfrə açsa eyləyər
Xadimi-lütfün məni də daxili-əhli-əyal.

* * *

Kim öyrədib bunu, yarəb, şəfəq içində hilal,
Çəkildi bir tərəfə tutdu böylə daməni-al

Bu düz yol ilə gəzib ay bir az zaman içrə,
Əlinin ali kimi tutdu tezcə ovci-kəmal.

Böyük imam odur insü cinn rahbəri
Ki, dərgəhi hamıya oldu qibleyi-amal.

Kimin pənahi deyil sayeyi-Əli, bişək,
Günəş olarsa da gözlər yenə o nuri zəval.

Kim olsa nökəri ol padişahi-dövranın,
Cəza günündə amanda olar firiştə misal.

Kim istəməzsə ola kölgəsində ol şəxsin,
Yanar bir odda ki, ondan çəkinmək əmri-mahal.

Ədalət ilə alar hər işi himayəsinə,
Odur ki, söndürə bilməz şəmi nəsimi-şimal.

Acıqlanarsa, onun ğeyzi bağlayar, şəksiz,
Zəmanə Rüstəminin gərdəninə mə'cəri-zal.

Şəhim, sənin görüşünçün bu kainat gözəli
Gəlib nişat ilə, açmış önündə hüsni-cəmal.

Gözəlliyin daha artırmaq istəyib gərdun,
Sənə qul olmağa, qoydu üzündə nöqteyi-xal.

Sənin nə olduğunu bilmədi yəqin heç kəs,
Fəqət bir ayinədə əks tapdı surəti-hal.

Pay alsa bir azacıq himmətindən hər bir kəs,
Əlilə həll olunar daima hər əmri-mahal.

Açar bütün düyünü o, bir anda çox asan,
Necə ki, qönçeyi-gülzari-dövlətü iqbal.

Gərək şiarı ola hər kəsin Əliyyü Vəli,
Odur cahanda bütün müşkülü açan həllal.

Əsillik ərşinin ayi, fəzilətin fələki,
Bütün böyüklərə başçı odur firiştə xisal.

Odur yeganə ki, vermiş iki cahanə nizam,
Onun səfasi, vəfasi açıb geniş pərü bal.

Onun ki, məsləki olmuş şəriətə qanun,
Onun işilə bilərlər nədir həram, halal.

O istəsə edə hər hansı bir işə rəğbət,
Zəmanə de nəçidir etsin ol işi ehmal?!

O hər kəsin ürəyindən keçənlərə vaqif,
Gərək deyil deyə bir kəs o sərvərə əhval.

Qələm əlində sualsız cavabə hazirdir,
Buna görə eyləyib qarşısında hər kəsi lal.

Səxavətin uca ərşi, şərəf hüması – adın,
Adın gələndə həmişə gələr mübarək fal.

Yetirməmiş bu cahanda hünər gülüstanı
Sənin vücudinə bənzər yəqin nə gül, nə nihal.

Sənin kimi göhəri görməmiş nəsib dənizi,
Sənin kimi çiçəyi görməmiş bu bağı-cəlal.

Sənin lətafəti-təb'in, gözəl məzacın var,
Bu təb'ə yol tapa bilməz nə dərdü qəm, nə məlal.

Sənin xəyalinə hər şey gələrsə, layiqdir,
Mələk səvab yaza cümlə nameyi-ə'mal.

Dua edəndə sən hər dəm samimi niyyət ilə,
Onu icabəti eylər səmadən istiqbal.

Hər anda xaliqü məxluq səninlə razidir,
Əyildi qarşına tə'zimə bu fələk çün nal.

Sənin kimi ola bilməz cahanda bir adəm,
Belə yürüşlə nəsibin olar hüdudi-kəmal.

Məqamın oldu müəlla, Nəcəf şahı sənsən,
Cahanda yox sənə həmta müqabilü əmsal.

Sənə ümidini bağlar bütün kəmal əhli,
Kim olsa səndən alar dərdinə cəvabi-sual.

Mənəm ki, bülbüli-bustani-mədhü mənqəbətəm,
Könül xəzinəm olubdur gühərlə malamal.

Mənim də arizum olmuş deyəm mənaqibini,
Edəm nisar sənə incilər dolusu məqal.

Bu yolla bəlkə olar ki, məqami gəldikcə,
Hüzurə ərz eləyim gah-gah surəti-hal.

Mənim həmişə işim tək Əlini tə'rifdir,
Bir özgə işlərə yoxdur könüldə vəqt, məcal.

Mən and içib demişəm yüz kərə Əli həqqi,
Nəcəfdən özgə məni çəkməyir nə şərq, nə şimal.

Mənim də istəyim oldur ki, ömr bitdikdə,
Tapa bu xaki-tənim xaki-paki ilə vüsal.

Əgərçi olmasa lütfün, mənim bu mənzildə
Keçər həyatım ağır, hər işim olar pamal.

Icazə vermə ki, mürği-dilim bu torpaqdan
Bir özgə torpağa ta açmaq istəyə pərü bal.

O yerdə qala arizum, ümmidim,
Mənə əzab verə vəsvəsəylə min dəccal.

Əmin olub sənə mən halımı bəyan etdim,
Nolar ki, qonmaya qəlb güzgüsinə gərdi-məlal!

Nə qədr var tənimdə həyat dairəsi,
Nə vaxtadək keçəcəksə ömür də bu minval,

Füzuli arzu edir müjdeyi-əta eşidə,
O da həmişə yaza böylə mədhi-Heydərü Al.

* * *

Yenə aləmdə ədalət necə gör açdı ələm[*],
Yer üzündən silinib getdi bütün dərdi-sitəm,

Arizumun günəşi çıxdı tərəb ovcindən,
Vurdu ğəm zülməti, bax, sübhi-səadətdən dəm.

---

[*] Ələm – bayraq

O zaman yetdi ki, hicranə gülə ruzi-vüsal,
Şadlıq afaqi tuta, məhv ola dünyadən qəm.

Bu cahanın işi fitrətdə nizam ilə idi,
Lakin etmişdi onu zülm binadən bərhəm.

Ədl bildikdə bunu gəldi xüruşə dərhal,
Dedi ki, düşməlidir nəzmə ümuri-aləm.

Ölkəni salmaq üçün qaidəvü qanunə,
Əl atıb tutdu sənin damənini ol möhkəm.

Mənbə'i-fəzlü hünər məzhəri-asari-qəbul,
Asəfi-saniyi-dərgahi-Süleymani-kərəm.

Nöqteyi-daireyi-dövlətü din Cəfər bəy
Ki, o qoymuş belə bir payeyi-ə'layə qədəm.

O əqil sahibinin məsləhəti ilə budur,
Bərqərar oldu cahan millətü dinlə bahəm.

O ədalətli vücudun əməli, rəftarı,
Etdi qanunları bu ölkədə çox müstəhkəm.

O olan yerdə pozulmaz daha qanun, qayda,
Ölkəyə sədr olur şər'ə imami-ə'zəm.

O zaman kim, düzəlir kari tamam, qanunun*,
Çəng edər ar neçün olmuş onun qaməti xəm.

Adəmizadədir, amma mələkə bənzəri var.
Az verər böylə səmər dəhrdə nəsli-adəm.

Bundan əvvəl kömək etməzdi bu xəlq bir-birinə,
Sanki heç bir-birinə xəlq deyildi məhrəm.

Gör necə yüksək olub qədri ki, xəlq ruzi üçün,
Qələmindən aparır məhzəri-gərdunə rəqəm.

---

* Qanun – eyni zamanda çalğı alətinin adıdır.

Ey qılıncdan qələmi dövlət işində bürran,
Bu şücaətlə sənə söyləyir əhsən Rüstəm.

Bu səxavət ki, sənin var, yayılıb dünyayə,
Bil eşitcək adını öldü həsəddən Hatəm.

Qədrinin mürğü uçub göydə nəşimən saldı,
Onu gördükdə qəmin ovçusu tutdu matəm.

Bir davat tək qələmi-xəlqə verirsən ruzi,
Düşmənin qəddini lakin eləyirsən də qələm.

Verir iqbal əlinə xaməni dəhrin anası,
Edir hər anda səni feyzi-nicatə həmdəm.

Sən verirsən yazığa, bikəsə aləmdə qida,
Necə xurma ağacından yedi ruzi Məryəm.

Qələminlə elədi bəhs qılınc, söylədi ki:
Sən kimi mən də ümurati nizamə çəkərəm.

Dilə gəldi qələmin, söylədi sus şəmşirə,
Sən kədər alətisən, şadlığa alətsə mənəm.

Kimə çatsan ürəyə, canə vurursan neştər,
Qoyuram mən isə hər yarəyə dərman, məlhəm.

Əqldən bir də soruşdum qələmin sirrini mən,
Dedi: Mənim bilmədiyim şey yoxdur.

Sənsən ol sərvi-xuraman ki, vücud bağında
Əkməmişdir belə bir sərvi-xuramani ədəm.

Ölkəni gülşənə döndərdi bu ədlin axir,
Edəcək ölkəni bir cənnəti-gülzari-Irəm.

Hər dil ilə danışıb incə fikirlər deyərək,
Olmusan hər diləyə, hər ürəyə sən məhrəm.

Sən ki, bir fitnə deyilsən, sənin üstündə fəqət,
Bir-birilə vuruşur bax ərəbü türkü əcəm!

Sərvərim, söylə rəvamı belə bir xoş dəmdə,
Etməsin çərx mənim qəlbimi şadü xürrəm?

Rumdən bəhr çatır indi Iraqi-Ərəbə,
Bəhrdən düşməyir amma bu dodaq üstünə nəm.

Bu Füzuli nə füzulluq eləmiş ki, indi,
Ona layiq də görünmür azacıq lütfü kərəm.

Ver ümidim ki, bu dünya dolanıb durduqca,
Olmasın xali bu feyzü kərəmindən aləm.

* * *

Edəndə çəng kimi pərdələrdə razi nihan,
Fəğan ki, nalələrim etdi gizli sirri əyan.

Bu qürbət eldə məni inlədir qəmim ney tək,
Görünməyir mənə həmdəm, bu yerdə dərdə qalan.

Dolub gözəllər həvasilə sinə qanun tək,
Sədamı mən boğuram ta ki, duymasın düşman.

Nolar ki, lütf edərək bir soraydılar halım,
Cəvabə hər damarımdan qopardı bir əfqan.

Gözəllərin salaraq zövqi-bəzmini yadə,
Gözüm dəfində salar qanlı göz yaşım tufan.

Cahanı etmək üçün gözlərimdə bir zülmət,
Bəbəklərim qaralıb göz yaşımdan etdi duman.

Bəlavü dərd məni tutdu hər tərəfdən, ah,
Bıçaq qoyub da kəsir ruzigar rişteyi-can.

Nəhayət iş o yerə çatdı ki, fəğanimdən
Gəlib də canə uçub getdi can quşum yuvadan.

Fələk qulağımı bir ud tək burur, dözürəm
Ki, bəlkə rəhmə gəlib sonra oxşaya bir an.

Ona ümid yoxumdur ki, dövri-çərxi-fələk
Bu xəstə könlümə bir gün edər dəva, dərman.

Bu dərdü qəm özü xoşdur mənə cahan içrə,
Onun kimi yaşayırkən bir Asəfi-dövran,

Əzizü möhtərəmü lütfü mərhəmət kani,
Onunla qiymət alır dəhrdə ədəb, ərkan.

Ona itaət edənlər çatar hər istəyinə,
Bu hikmətiylə onun tez çıxar təmə' aradan.

Onun hər istəyi bir borc kimi ödənməlidir,
Ona ürəklə gərək xidmət eyləsin insan.

Nə həddi vardır edə lütfünü qələm təhrif,
Onun kimi bir adam görməyibdi çeşmi-zaman.

Məhi-süpehri-lətafət cənab Cəfər bəy,
Onun kəraməti açmış hamıya babi-əman.

Tutub cahanı sərasər onun bu dəbdəbəsi,
Zəmanənin özü qalmış cəlalinə heyran.

Qırıldı qol-qanadı cümlə zülm qartalının,
Qızıl quş ilə göyərçinlər eylədi cövlan.

Nizamə saldı cahanı onun qəvi qələmi,
Savadi-naməsi etdi bu mülkü abadan.

Onun nəzərləri etdi bu torpağı cənnət,
Onunla oldu Hicazdan Iraq daha abadan.

Onun ki, pənceyi-insafi və ədalət əli
Ucaltdı məzlumu aləmdə, tutdu zalimə divan.

Onun məhabəti dörd ünsürə düşərsə, yəqin
Əlaqələr pozulub məhv olar nizami-cahan.

Fəsadü fitnəyə gər salsa bir nəzər, dərhal
Fəsadü fitnə təbəddül edib çıxar aradan.

Bu mülkə vermək üçün bir həyat Isa tək,
Sehirli xaməsi min mö'cüz eyləyər hər an.

Ədalətinlə bu dünya tapar nizam sənin,
Siyasətinlə olar bağrı düşmənin al qan.

Həsardır sənin ədlin mətinü müstəhkəm,
Sənin cəlalına yoxdur zəval ilə nöqsan.

Sənin məqamını tə'rif edər bu gün Məhmud,
Tutar da güzgü sənin hilminə Əyazi-zaman.

Sənin şüuruna yoxdur nəzir dünyadə,
Ağıl cəhanı sənindir şəriksiz, əl'an.

Görüb sənin qələmin düz yazır, bu çərxi-fələk
Buraxdı hiyləsini, oldu düz yol ilə rəvan.

Sənə fələk deyirəm, bu sözüm həqiqətdir,
Sənə mələk deyirəm, bu sözüm deyil də yalan.

Şəhim, Füzuliyi-zarəm, vəfaliyəm sənə mən,
Mənimlə tay ola bilməz qapında hər üryan.

Nə qədr var bu tənim, atmaram sənin qapını
Ki, mən söz ustasıyam, sən isə sözü tanıyan.

Ümidimiz onadır, afitabi-aləmtab,
Qovub qaranlığı, etdikcə nurini rəxşan,

Qəza dəbiri sənin hökmünü rəvan yazsın,
Bütün cahanı edə fəth verdiyin fərman.

* * *

Həzar şükr ki, yar oldu ruzigarə qəza
Ki, qalmamış onun islahə ehtiyaci daha.

O kəs ki, eyb tutardı həmişə, xar oldu,
Işində çəmxəm edən çərxin halı oldu fəna.

Səadətin ətəyindən yapışdı yə'sin əli,
Aman selində tamah atəşi tapıb mə'va.

O dövr keçdi ki, bu hoqqabaz fələk hər gün
Min hoqqanı açaraq, əlli min oyun çıxara.

Təbəddülat qapısı öylə kim, qıfıllanmış,
Çətin zəmanə təqazasının kilidi aça.

Kələklər hoqqasını eylə ki, fələk qapamış,
Çətin ki, hadisələr bir xələl yetirsin ona.

Silindi fitnə tozu güzgüsündən afaqın,
Fəsadü şərridən asudə oldu bu dünya.

O dəm yetişdi ki, dövran muradına çatsın,
Bəzəndi, oldu bu dünya behişt tək ziyba.

Dünən bu fikrilə kim, şübhəmi edim zail,
Zəmanə halını oldum bu tərz ilə cuya

Ki, ey zəmanə, rəvacın yox idi keçmişdə,
Nizamının neyi saz eyləməzdi böylə nəva.

Sənin ki, müşkül idi ruzigarın, ey dövran,
Kimin kəraməti bu mö'cüzü edib peyda?

Kimin ədalətinin nəqşi aləmi bəzədi,
Hanı o nur ki, vermiş çirağı-ədlə ziya?

Cəvab verdi ki: bu, sayəsindədir o kəsin
Ki, hər cəhətdən olub fəzli, rütbəsi vala.

Xuda vücudunu hifz eyləsin Əyas paşanın
Ki, xəlqə lütf, cəhanə abadlıq etmiş əta.

Cəmali-bəxti veribdir bu ölkəyə rövnəq,
Necə ki, Qəznəyə vermiş Ayaz hüsnü səfa.

O kəs ki, izzət ilə asitanın öpmək üçün,
Hicaz yolçuları mənzil eyləmiş orada.

O asitanını öpmək, özü ibadətdir,
Kim öpməmişsə, namaz tərkinə verib fitva.

Düzülmüş astanasında bəzəkli düymə kimi
O başları ki, qoyub xaki-payinə nücəba.

Həqiqət əhlidir əhvalının bəyanində,
Məcaz əhli ola rə'y söyləməz əsla.

Kəfil olub o qədər ruziyə onun kərəmi
Ki, əl çalışmaq üçün düşməz heç kəsin yadına.

Əl ondan ötrüdür hər sübhü şam xaliqdən,
Uzun ömür diləsinlər ona, edəndə dua.

Zəfər həmişə sənin qul kimi dalınca gedər,
Hüdudsuz kərəmin hökmünü edər icra.

Salınca heybətini yadə düşmənin qəlbi
Kül oldu sinədə, bir qəlp pul kimi butada.

Həlaki cövşəninin halqasındadır xəsmin,
Qızıl quşun döşü xatırladır ölüm turaca.

Çəkibsə bayrağını hansı ölkəyə rə'yin,
Zəmanə tabe edibdir o mülkü bayrağına.

Fələk nədir ki, edə e'tiraz bir anlıq
O hökmə kim, sən onu görmürsən bir işdə rəva.

Səfər səməndinə sən əzm ilə yəhər qoycaq,
Yetişdi xəsm qulağinə çərxdən bu səda:

Ki, ey gəzib dolanan vəhşilər kimi qafil,
Yetər ki, keçdi sizin kamınızca bu dünya,

Qaçın, çıxın aradan, seyd üçün gəzər şahin,
Görünməyin gözə, şəhpər açıb uçar ənqa.

Mənim gözümdə sənin düşmənin zəif bir quş,
Sən isə ərseyi-qüdrətdə şahbazi-qəza.

Məqamı yüksək ağam, ol Füzuliyi-zarəm
Ki, daima yazaram mədhlər sənin adına.

Bəyanə hacəti yoxdur bu gizli qəmlərimin,
Gözüm yaşı üzümə dərdimi edib inşa.

Yəqin ki, lütfünü məndən əsirgəməzsən sən,
Vəli, nə fayda, yarandım əzəldə bəxti qara.

Mən arizu edərəm ki, zəmanə ötdükcə,
Ömür ipini kəsib doğradıqca sübhü məsa,

Zəval axşamı qaçsın kəmal sübhündən,
Səadətin əbədi olsun, ey Əyas paşa!

* * *

Dərgəhindən özgə yox dərd əhlinə darüş-şəfa,
Kim şəfa tapmazsa ondan, dərdinə olmaz dəva.

Dərdsiz idim, zövqi-vəslindən sənin məhrum idim,
Dərdə düşdüm, vəslə yetdim, böylə dərdə mən fəda.

Dərdinə dərman tapar səndən hamı, bizdən səva,
Bəs nədən biz dərdiməndə eyləməzsən e’tina?

Bizlərin dərdinə dərman eyləyir lə’li-ləbin,
Yoxsa hikmətdə Ərəstuyə edibdir iqtida?

Hikmətin xilqət ümurinə dəxalət eyləsə,
Yerdə, göydə qalmaz iflicə, cüzamə mübtəla.

Elmi-hikmətdə əgər etsə özünü imtahan,
Təb’ini elmi-təbabət sahəsində yoxlasa,

Zə’fidən qalmaz saman cismində əsla bir əsər,
Qurtarar təb’indəki səfra qəmindən kəhrəba.

Tibb fənnində bütün qanunlara rəhbər olan,
Bu Əli Sina, Ərəstu rəylisən, Loğman liqa.

Ey işıqlı qəlbi həqqin feyzinə ayinədar,
Qüdrətin asarı tutmuş zati-pakinlə bina.

Mən sənə Loğman deyərdim tibb elmində, əgər
Çarə bilsəydi ölüm dərdinə sən kimi o da.

Gəlməz Isanın əlindən gördüyün hikmətli iş,
Hikmətinin qarşısında neyləyər tək bir dua?

Dərdləri eylə sağaltdın ki, tapılmaz bir məriz,
Şux sənəmlər gözlərindən başqa bu aləm ara.

Olmasaydı zalim, olsaydı əgər insanlığı,
O da feyzin sürmədanindən alardı tutiya.

Bircə an öz e’tiqadında təbiət filməsəl,
Hikmətin qəlbi sənin ayinənə versə riza,

Odda, torpaqda hərarətdən tapılmaz bir əsər,
Həm rütubətsiz qalar bir ləhzə içrə su, həva.

Xizr səndən məsləhət alsa, qəbul etməz yəqin
Minnəti dirilik suyundan, çün tapar onsuz bəqa.

Torpağa dönmüşdü Yunanın böyük alimləri,
Palçığından onların tapdı sənin cismin bina.

Xəlq olub aləm ki, xəlq etsin ibadət xaliqə,
Səhhəti bir şərt qoymuşdur ibadətdə xuda.

Səhhəti xəlqin sənin tədbirin ilə bağlıdır.
Varmıdır bu xəlqə bir qəmxar olan səndən səva.

Aləmi nəzmə salırsa rə'yi ilə padişah,
Sən verirsən hikmətinlə nəzm şahın zatına.

Dövlətinlə çün olur tə'min bəqasi aləmin,
Dövlətinə fərzdir aləm sənin etsin dua.

Hikmətin, rə'yin dəxalət eyləyir hər ölkəyə
Qüdrətinlə oldu təshih ləfzü mə'nadən xəta.

Sərf qəlbində gərək bir zərrə illət qalmasın,
Cümlə tərkibi rəvadır zə'fdən azad ola.

Izzətü, iqbalü Rüknəddin olub ismin sənin,
Olmamışdır başqa rüknü ölkənin səndən səva.

Yox səfayi-batinindən gizli bir hikmət sənin,
Başlamazdan, dərdi sən tə'yin edib verdin şəfa.

Xəstələr əttar dükanından bu gün asudədir,
Nüsxənin ətri kifayətdir sənin sağlamlığa.

Sərvərim, nagəh həva təb'imə tə'sir eylədi,
Ruzigarın daminə düşdüm, başım çəkdi bəla.

Canıma eşq od salıb yandırdı, cismimdə mənim
Aşdı sevda həddini əz bəs ki, tandı e'tila.

Coşdu qan qəlbimdə, sevda cismimə qalib gəlib,
Həmdəmim oldu mənim baş ağrısı, malxuliya.

Laxtalanmış qan vurunca hər damarda yüz düyün,
Yüz çadır qurdu bədən mülkündə sultani-bəla.

Dərdimi tə’yin üçün nəbzimi bir kəs tutmadı,
Duymadı qarurədən bir kəs nədir bu macəra.

Zə’fimi artırdı təndə çoxları pəhriz ilə,
Mə’dəmi pozdu çoxu etməklə tə’yini-qida.

Bilmirəm, cismimdə yoxdurmu sağalmaq qüdrəti,
Ya təbabət elmi boş sözdür, necə ki, kimiya.

Zə’f qüvvət tapdı qüvvət zə’f canımda mənim,
Ruhum az qalmışdır olsun xəstə cismimdən cüda.

Bəxt səndən müjdə verdi bu pərişan könlümə,
Səhhət ümmidi verib könlüm də xövfə intiha.

Istərəm şərbət alam hikmət əlindən içməyə,
Bir dəlildir səhhətin bərpasına bu iştəha.

Söyləsən, dirilik suyundan eylərəm pəhriz mən,
Zəhri-qatil içməyə amadəyəm, görsən rəva.

Qoyma, Allah eşqinə, salsın mərəz əldən məni,
Qoyma sarsıtsın vücudimi bu dərdi-bidəva.

Sə’yü hümmətlə əlac eylə Füzuli dərdinə,
Bir sənə qalmış ümidi xəstənin, bir Allaha.

Istərəm Allahdan ömrün, izzətin, qədrin sənin
Bərqərar olsun cahan durduqca, ey sahib-səxa.

Hər qədər göydən yağış yağdıqca yer məmnun qalar,
Hər qədər ki, ay günəşdən kəsb edər nurü ziya.

Hər qədər dəhrin məzacini pozar fitnə, fəsad,
Hər qədər ki, sarsıdır dərdin binasını dəva,

Xəlqə çatsın hikmətin feyzilə səhhət ne’məti,
Lütfün ilə həll olunsun xəlq üçün hər müddəa.

* * *

Mənəm ki, görməmişəm əhli-ruzigarda vəfa,
Nəsib olub mənə min dürlü dərd, cövr, cəfa,

Zəmanə əhli əlindən içib kədər zəhəri,
Ölüb də istəmədim kimsədən təbib, dəva.

Mənəm ki, dəhrdə göz çəkmişəm azadlıqdan,
Əsirəm, əl-qolumu bağlayıb tənabi-bəla.

Ağır günümdə mənə yar təkcə kölgəm idi,
Vücudum ol qədər incəldi, gözdən itdi o da.

Mənim də ney kimi nəğməm fəğan idi ancaq,
Qırıldı ney kimi qəddim, sinəmdə söndü nəva.

Nə yar var, nə müsahib, nə mehriban bir dost
Ki, dinləsin məni, dərdi-dilimi açsam ona.

Cahanda təkcə mənim cismimi hədəf seçmiş,
Kəmanə hər nə qədər ox qoyub atarsa qəza.

Mənim dilək yolumu öylə bağlamış ki, fələk,
Qəbula yetməz, edərsəm yüz illər ilə dua.

Təbibim oldu fəlakət, mənim əlacım olan
Səadətin şişəsi içrə qaldı şəhdi-şəfa.

Gözüm yaşında məni zə’f istəyir boğsun,
“Bizimlə qal” – deyə, mane olur qəm ilə bəla.

Azı çoxun sözünə tabe oldu düşmənimin,
Gər olmasaydı belə, mən hara, həyat hara?

Murad meyvəsi verməz ümid qönçələri,
Könüldə qövr eləyib qaldı həsrət ilə yara.

Tutuşdu qəm oduna, yandı binəva könlüm,
Mənə muradi ilə göstərərkən istiğna.

Tükəndi göz yaşımın incisi, gözüm qurudu,
Gözəl sənəmlərə nə sərf edim, xudavənda?

Həlak edər məni yoxsulluğun ağır dərdi,
Necə dözüm ki, bilib yoxsulam o mahliqa.

Nə qalmaq həqqi varımdır, nə getməyə hünərim,
Nə inzivayə ümid var, nə e’tibari-fəna.

Könül qəmilə gecə sızlayıb, qan ağlardım
Ki, qeybdən mənə nagəh yetişdi böylə nida

Ki, ey düçar olan zülmə, naümid olma,
Fəqirlərin köməyi gəldi, eylə şükri-xuda.

Odur səni götürən hümmətilə torpaqdan,
Odur sənə yetirən minlər ilə feyzü əta.

Səadətin gülüdür gülşəni-kəramətdə,
Ədəb bağında çiçəkdir, həya bağında səfa.

Geniş ürəkli, uca rütbəli o Əlvənd bəy
Ki, rəhbər oldu, apardı bizi o doğru yola.

Səadəti əbədidir, ətası sarsılmaz,
Cəlalı tutmuş onun elmü mə’rifətlə bina.

Əziz vücudi olub gah Yusifi-Misri,
Gəhi o şah edib əzmi-Yəsribü Bətha.

Cəlalü bəxti onun özgələrdən üstündür,
Ona bu izzəti bəxş eyləmiş ata və ana.

Təsadüfi deyil ondan səvab işlər, çün
Onun əlindən hələ çıxmamışdır əmri-xəta.

Sən ey vücudu hünər asimaninin günəşi,
Hüzur müjdən ilə qəlb tapdı zövqü səfa.

Xudayə şükr ki, bir də o sərv qəddindən
Dübarə sayə düşər biz fəqirlərin başına.

Xudayə şükr ki, bir də camalının nuri,
Yetirdi dostlarının gözlərinə feyzi-ziya.

Qəsəm ona ki, məni mənbəi-sədaqət edib,
Qəsəm ona ki, səni xəlq edibdi kani-səxa.

Qəsəm ona ki, məni xəlq edib fəqir, həqir,
Qəsəm ona ki, səni etdi xəlqə hökmü rəva.

O vəqtdən ki, pəri tək gözümdən oldun iraq,
Həqiqi insan üzü görməmiş gözüm, əbəda.

Başımdan əql sənin getməyinlə getmiş idi,
Sən indi gəldin, o da oldu nagahan peyda.

Əziz adın gecə-gündüz dilimdə əzbər idi,
Yeganə munisim idi qalanda mən tənha.

Könüldə təkcə sənə yer verib, yaşatdım mən,
Bununla borcumu həq qarşısında etdim əda.

Qapından ayrı düşərkən, şəha, Füzuliyi-zar
Gözündə dönmüş idi məhbəsə bütün dünya.

Silindi bu gəlişinlə məlal könlümdən,
Kədər yox oldu, qəmin ruzigari geydi qara.

Necə fələklərə baş vurmasın ki, çiynindən
Ələm yükü götürüldü, düzəldi qədd, şəha!

Bahar gəldi, xəzan köçdü bəxt bağından,
Yetirdi bülbülə gül müjdəsini badi-səba.

Bir arizum budur, ey sərvərim ki, aləmdə,
Nə qədr dövrə vurur asiman yerin başına,

Muradına çatasan hər iki cahanda, fələk
Cəlal qəsrini etsin səfalı bir mə'va.

* * *

Nobahar oldu, cahanın yenə xoş dəmləri var,
Bağın al hüsnü gözəl, lalə kimi dilbəri var.

Göy çəmənlərdə çiçəklər verir insanə fərəh,
Belə ne'mətlər ilə fəxr eləsən, çox yeri var.

Gülün eşqilə budaqlar ucalır əflakə,
Öyünür, qürrələnir, çünki belə ziyvəri var.

Gül gülür, tə'nə vurur bax ona sübhün küləyi
Ki, nədən aləmə tə'n etməyə gül kim, zəri var.

Bu təbiətlə nə xoş saziş edir gül ağacı,
Ona xəl'ət verilib, başda yaşıl məcməri var.

Nərgis istər ola baş güllərə gülşəndə bu gün,
Bu məram ilə onun başda qızıl əfsəri var.

Yenə cansız ota can verdi təbiət təzədən,
Səfheyi-səhni-çəmən aləminin məhşəri var.

Səbəb ol səbzəyə gülşəndə bu olmuşdur kim,
Çərxin ayineyi-bağ içrə yaşıl peykəri var.

Yenə şəbnəmlə yaşıl ot bəzəmiş yer üzünü,
Sanki yerdə fələyin əncəmü əxtərləri var.

Quru çör-çöplər içində təzə gül zahir olur,
Xilqətin sirrinə bax, gör nə əcəb məzhəri var.

Hələ bəh-bəh, nə ətirlər saçır ətrafa hava,
Lütf bağında onun şər'ilə barü bəri var.

Yaşarıq valiyi-şər'in belə xoş dövründə
Ki, onun pak zəmirində nəbi gohəri var.

Gülər üz, qəlbi geniş, qazilərin qazisi,
Aləmə nur verən surəti-xoşmənzəri var.

O sifətlər ki, bu gün xeyrxah insanda olar,
Yüz qat artıq əməli, xeyri, kəramətləri var.

Ne'mətullah ki, olur elmə pənah aləmdə,
Elm dəryası olub, sinədə min dəftəri var.

Gövhəri-elmi gömübdür yerə sabiq üləma,
O tapa qaldıra yerdən ki, onun gövhəri var.

Qoyacaq övci-fələk başına əlbəttə qədəm,
Qapının torpağı üstündə kimin bəstəri var.

Ta ki, fəhm eyləyə idrak sənin varlığını,
Elm tək əldə onun vasitəsi, rəhbəri var.

Səndədir elmi-şərəf, övci-səadət, bilirəm,
Ey xoş ol kimsə ki, sidqilə qapında yeri var.

Nə qədr ki, qələmin şər'ə verir izzü rəvac,
Ətri-ədli yaya ətrafə, onun ziyvəri var.

Belə bir dövrdə ki, ədlin olubdur məşhur,
Nə üçün qəlbdə bəs dövri-zaman qəmləri var?

Gərdişi-çərx ədəbin səmtinə heç meyl etməz,
Yaxşılıq eyləməz, amma bizə dərdi-səri var.

Sərvərim, lütf edərək bax da Füzuli tərəfə,
Axı çox hali-pərişani, dili-müztəri var.

Var ümidim ki, bu varlıq nə qədr mövcuddur,
Nə qədər ki, fələyin nur saçan əxtəri var.

Çərx əysin başını hökmünə hər bir anda,
Bəxtin olsun əbədi, ta ki, onun məzhəri var.

Xəlqə xaliq qeybdən ne'mət verib qıldıqda şad,
Həqqə şükr etmək gərək ta kim ola ne'mət ziyad.

Şükr ola Allaha kim, salmış ziya xurşidi-din,
Göz bəbəkdən nur alan tək, nur alır ondan həyat.

Var yeri, ta ki, nəzər sahibləri bu nur üçün
Söyləsinlər Bağdada indən belə: Eynül-Bilad*.

Tazə bir rövnəq verib şər'ə o ali rütbə kim,
Açdı rəhmət babını, bu ölkəyə verdi nicat.

Bax giribani-qəzadən bir sədir qaldırdı baş,
Çatdı fürsət kim, ola dərd əhlinə hasil murad.

Bir sənəd gəldi cahana feyzi-rəhmətdən bu gün,
Dərk edilməz hər kəsə bu feyz, olsa bisəvad.

Doğmamış torpaq, hava, su, atəş heç bir dövrdə,
Bir belə fərzanə fərzəndi, belə fərxəndə zat.

Hər bir elmə vaqif olmuş, hər sözü dərk eyləyər,
Qəlbinə bəlli olar sözsüz də hər şey, hər bir ad.

Istəsə təfriq edə gər birləşən ünsürləri,
Bircə anda məhv olar rəbti, sübut eylər məvad.

Odla su əmrilə bağlar ülfəti hər bir zaman,
Dost olar bir ləhzədə, əlbir olar xak ilə bad.

Hər kəsə bir əl tutar Ne'mətullahi-Təqi,
Kim onu görsə qılır Ne'manı tez qəlbində yad.

Mərhəba, ey hər sözün məcmueyi-fəzlü hünər,
Mərhəba, ey hər yazın sərvi-riyazi-ədlü dad.

Sübh tezdən məclisindən feyz alar mehri-səxa,
Payeyi-əvvəl kəmalində olubdur ictihad.

Öz dilin xəncər tək eylər məhv hər bir kafəri,
Afərin, ey qaziyi-ğazi, budur əsli-cihad.

---

* Şəhərlərin gözü

Göstərirsən hamıya tək sən hidayət rahini,
Bir ibadətdir sənə hər kim edərsə e'tiqad.

Aləmi nəzmə salan sənsən belə tədbir ilə,
Sayən ilə ölkədə olmaz bir an fitnə, fəsad.

Şükr ola kim, harda sənsən, orda var şadlıq, fərəh,
Düşməni məhzun edərsən, dostları fərxəndə, şad.

Yol cəfası çəkmədən yetdim vüsali-Kə'bənə,
Var yeri, öz bəxtinə etsin Füzuli e'timad.

Ta nə qədri var bu aləm, dövr edən çərxi-fələk,
Olmasın sayən bizim başdan kəm, ey ali sifat!

* * *

Gəldi bayram ki, ola dəf' qəmü dərdü məlal,
Aça şadlıq qapısın ta ki, kilid ilə hilal.

Çatıb ol vəqt ki, cahan xürrəm olub şadlıq edə,
Açıla əhli-dilin ruyinə bir babi-cəlal.

Əməlin Xizri, məhəbbət çölünün təşnəsinə,
Içirə dəsti-kəramati ilə abi-zülal.

Aça bu dövr təvəkkül yolunun aclarına,
Müxtəlif ne'mət ilə dolmuş olan süfreyi-hal.

Çatdıra dövri-fələk məqsədə hər möhtacı,
Pərdeyi-hicrə daha düşməyə bir dəm də vüsal.

Ortada hökm sürən bunca məlamət yığışa,
Qaça qəm, şadlıq isə tapmaya aləmdə zəval.

Keçə günlər belə şadlıqla, kədərsiz, qəmsiz,
Əqlü idraka isə tapmaya yol nəqsü xəlal.

Pak olan qətrəsi gər düşsə onun bir səmtə,
Allahın mərhəmətindən ora düşməz də vəbal.

Xoş o gün kim, dil ürəklə bir olub əzm eləyə,
Nəki pəjmürdə ola hökm eləyə qeyl ilə qal.

Mə'rifət me'racının mənbəri üstündə xətib,
Dil açıb söyləyə ta mənqəbəti-Heydəri-Al.

Elm dəryası Hüseyn ibn-Əlidir, bunu bil,
Mə'rifət əhli deyir: ondadır hər fəzlü kəmal.

O şəhin gər qəzəbi düşsə çahar ərkanə,
Məhv olar cümləsinin nəzmü nizami dərhal.

Qeyz ilə baxsa əgər gərdiş edən dövranə,
Dağılar nəzmi-fələk, nəcmi-səma, mah ilə sal,

Olmasa eşqi onun, xəlqə nicat ümmidi yox,
Düşmənin isə xilas olması bir əmri-məhal.

Iki aləm qapısın açdı rəqibin üzünə,
Kim qalıb düşməninin halına bir o minval.

Lakin o, qeyzə gəlib düşməninə əl açsa,
Şığıyar sanki şikar üstünə birdən qartal.

Yararaq bağrını bir həmlədə məhv eylər onu,
Eyləyər qanını hər yırtıcı heyvanə həlal.

Gər fələk istər isə dərk eləyə xeyri şəri,
Bir onun təsbihi üstündə açar sidq ilə fal.

Dərgəhində quluna qibtə edər Rizvan da,
Cənnətə bənzər onun dərgəhi firdövs misal.

Qapısında qul olar xidmətinə amadə,
Ona tə'zimə düşər cümlə mələklər dərhal.

Olmasaydı ona xidmət həvəsi, ömründə
Heç açarmıdı səma içrə məlayik pərü bal?

Qorxuram yadə salım kim, tökülüb qanı nahaq,
Qorxuram qərq eləyə canımı bu əşki-məlal.

Gər çatarsa nəzəri göydəki səyyarələrə,
Nəhs olarmı o sitarə ki, deyir hər rəmmal.

Mərhəmət əbri onun atsa yerə bir qətrə,
Əl açıb bəhri-mühitlər edəcək onu sual.

Yolu üstündə tozu qalxsa göyə, hər ulduz
Sürtəcək gözlərinə ol tozu bir sürmə misal.

Bircə sənsən bu cahan içrə belə aliqədr,
Yoxdur aləmdə sənin tək belə fərxəndə xisal.

Kim cəsarətlə baxar səndə olan idrakə,
Kim açar rütbən üçün qibtə ilə çeşmi-xəyal?

Səbri bitmiş bu Füzuli diləməz, ey şahim,
Səndən özgə birinə söyləyə, o hal-əhval.

Olmasa mədhin əgər, bağlaya özləblərini,
Hərzə sözdən çəkinib də qala bir guşədə lal.

Lütfünə vardır ümidim, ona bel bağlamışam,
Gəl məni – xəstəni sən lütf edərək yadına sal!

Var ümidim, nə qədər dövr edəcək çərxi-fələk,
Duracaqdır bulud altında vüqar ilə cibal,

Başımız üstünə sayə sala feyzi-nəzəri,
Sorasan lütf ilə hər dəm bu zəifdən əhval.

* * *

Çəmən bəzəndi çiçəklə gəlincə fəsli-bahar,
Xəzan qəmindən ağaclarda qalmadı asar.

Tilismi batil olub şaxtanın, düşüb təxtdən,
Gətirdi yoxsa xəzanı yaman gözə ruzgar.

Niqab hazırladı dövran əli qızılgüldən,
Nəhan qıldı kədər ol niqabdə rüxsar.

Ağac axar suya tökdü gümüş kimi çiçəyi,
Axar su sail, ağac isə oldu sərvətdar.

Hədiqə Misrinə gül Yusifi rəvan oldu,
Çəmən təvafinə gəldi bulud qətar-qətar.

Qalırsa güzgüdə pasdan küdurətin əsəri,
Cahanda qalmadı qəmdən bir iz, olunca bahar.

Həva gətirdi işə, sehrinin kəmalı ilə,
Cahanı zümrüdə qərq eylədi yaşıllıqlar.

Çəkər gül üzlüləri gülşənə könül eşqi
Ki, sərv meyl edər sərvə, dilbərə dildar.

Gülün lətafəti ilə bəzəndi səhni-çəmən,
Necə ki, ölkəyə ziynət verər böyük sərdar.

Ədalətin gülü, din bağının bahar çiçəyi,
Tapar vücudu ilə məmləkət nizamü qərar.

Mühiti-ədli əhatə edən Məhəmməd bəy,
Sənin kərəm dənizində nə həd, nə sahil var.

Zəmanə qalib iradəndən istəyir yardım,
Yenilməz əzmin olub həlli-müşkülatə açar.

Onun məhəbbəti hər cür bəlayə mane'dir,
Səxası hadisəni etdi durmağa vadar.

Onun sədaqəti hər külli, cüz'i havidir,
Himayəsində onun xasü amm şən yaşayar.

Günəş kimi bütün afaqı nurə qərq etdin,
Vücudun ilə yayıldı yerə, göyə ənvar.

Dirildi mə'rifətinlə şəriət əhkamı,
Hücumun ilə sənin öldü zümreyi-əşrar.

Nicat tapdı sənin lütfün ilə hər alim,
Müdam qəhrin edib cahili bəlayə düçar.

Həmişə düşməninə feyzi-rahət oldu həram,
Sənin yolunla gedənlər olub səadətə yar.

Itaətindən o kəs ki, boyun qaçırdı sənin,
Cəza verər ona qəhr ilə xaliqi-qəhhar.

Ədalətindən olar bəhrəmənd o kəslər ki,
Xeyirli işlər ilə ədlinə edər iqrar.

Vücudun ölkəyə, ey sərvərim, qənimətdir
Ki, adil hakimi lütfi-ilahi saymışlar.

Şəha, yazıq bu Füzulini asitanında
Unutma, lütf ilə ol halinə özün qəmxar.

Yanında olmasa da, olsa da o, dostundur,
Yaman da, yaxşı da olsa, qulundur, eyləmə xar.

Belə ümid edirəm ki, nə qədr çərxi-fələk,
Bu sabit aləmin ətrafına dönüb-dolanar,

Səadətin əbədi olsun asitanında,
Üstündən sayəni kəm görməsin Füzuliyi-zar.

* * *

Bu vəfasız dəhrdə biz dərdə olduq mübtəla,
Dərdə adət etmişik, axtarmarıq hərgiz dəva.

Könlümüz dərdə tutuldu, bir təbibə açmadıq,
Sildik hər bir nüsxədən gördükdə var xətti-şəfa.

Tapmadıq bir iz vəfadən ruzigar əhlində biz,
Biz vəfa gözlərdik, onlardan yetişdi yüz cəfa,

Xəlqdən qaçdıq cahanda, qılmadıq yad özgəni,
Olmadıq can ilə də təklik evində aşina.

Biz həmin insanlarıq ki, gərdişilə çərxi-dun.
Təfriqə salmış arayə, min cəfa görmüş rəva.

Göz yaşi cari edib müjganımızdan sel kimi,
Şam kimi kəsdik dili kim, gizli qalsın macəra.

Biz pərişanlar su üstündə hübabə oxşarıq,
Heç zaman birləşməyi dövran bizə görməz rəva.

Hadisə tufani daim döndərər viranəyə,
Hər yerində aləmin min binəva tiksək bina.

Biz fələk dövründə axtardıq vəfa rəsmi, vəli,
Hər zaman ol ayinə göstərdi əksi-müddəa,

Çox dolandıq dövrünə bu aləmin pərgar tək,
Başımız düşdü ayağə, olmadıq şə'ni uca.

Çox tərəddüd eylədik, aləmdə hərgiz tapmadıq
Bir məqamdan qeyri kim, hər şeydə oldur ibtida,

Qətrələr tək yer üzündən ayrılıb xeyli zaman,
Meyl qıldıq, yüksəlib biz də edək seyri-həva,

Aləmi-ülviyyətin seyrinə əvvəl üz qoyub,
Etdik axirdə öz alçaq təb'imizə iqtida.

Biz bu varlıq güzgüsündə oxşarıq bir əksə kim,
Bilmədən öz eybini, insanda nöqsan axtara.

Nə yaranmaq, nə fəsadın sirrini dərk etmişik,
Nə fəna dərdindəyik, nə eylərik fikri-bəqa.

Zati-kamilçün bəqa keyfiyyətidir bir dəlil,
Zatımız hardan edər böylə məqama iqtiza?

Yoxdur aləmdə fənanın şərti varlıqdan səvay,
Bizdə ol varlıq hanı kim, yoxluğa qabil ola?

Yetməyir xəlqin qulağına dilimdən neyləyim,
Bir səda kim, xəlqi şənləndirsin, olsun canfəza.

Məndə öylə qəlb də yoxdur ki, dərdi dərk edib,
Zövq alım, xoşhal olum dərd əhli etdikcə nəva.

Küfrdəndir kim, bu mənasız vücudim büt kimi,
Bir bəzək olmuş riya bütxanəsinə daima.

Tə'n edər aləm mənə, mən öz-özümdən qafiləm,
Qəlbimin sirrini heyrətdən edə bilməm əda.

Öz sərəncamınla, xəlqin tə'ninin tədbirini
Kim məni xəlq eyləmişsə böylə tapşırdım ona.

Od vurub yaxdım libasi-e'tibarı büsbütün,
Olmadı çərxin əlindən damənim hərgiz rəha.

Bir kələf tək yüz düyün salmış işimdə ruzigar,
Acizəm müşküllərin həllində, yox müşgülgüşa.

Bircə ümmidim ona qalmış ki, sübhün fəcri tək,
Həll edə bu müşkülü mehrilə şahi-lafəta.

Böylə bir sultan ki, yüz il keçsə də bir qönçənin
Etmədən yad adını, asan aça bilməz səba.

Öylə bir sultan ki, izni olmadan açmaz fələk
Pərdə sübhün çöhrəsindən, nurə qərq olmaz fəza.

Öylə sultan ki, kərəm gül şaxəsi fəqr əhlinə,
Hər nəfəsdə yüz tükənməz ne'mət etmişdir əta.

Iltifatilə geyinmiş fəqr sərvət paltarı,
Bir baxışla verdi gövhər qiyməti sadə daşa.

Həq vəlisidir, vilayət təxtinin şahənşəhi,
Din sultanı, imami-həqq, şahi-övliya.

Küfrdən ayrıldı şər'i-Müstəfa, bais odur,
Əhmədi-Muxtar onunla oldu fəxri-ənbiya.

Zati-pakilə sədəf gövhərlə doldu Kə'bədə,
Türbəsi feyzindən olmuş yer üzü fəxri-səma.

Bir dəlildir hörmətinə kim, şəbi me'racdə,
Gördü Əhməd kim, Əlidir sakini-əşri-xuda.

Əhli-beyti laləzarindən nümunə istəsən,
Gör necə əlvan olub qan ilə dəşti Kərbəla.

Qəbrinin feyzilə qumları Nəcəf səhrasının
Qiymətə minmiş, olub xalqın gözündə tutiya.

Bir səadət mənbəi kim, asimani-feyzidən
Mərhəmət xurşidi salsa aləmə zərrə ziya,

Ol ziyayə sayə salmaqdır fəlakətdən nişan,
Olsa bu sayə salan aləmdə hətta bir hüma.

Kə’beyi-dərgahi ol şahın bir hacətgahdır,
Hacət üçün kimsəyə lazım deyil orda dua.

Ey olan dərgahi hacət Kə’bəsi insanlara,
Xəlqə hacət Kə’bəsi yoxdur o dərgəhdən səva.

Hansı bir hikmət ki, gizlənmiş hicabi-qeybidə,
Rə’yin ilə çıxmış ol hikmət əyanə mütləqa.

Gər qəza qəlbində bir iş bağlasa min il düyün,
Rə’y versə ol işə min dəf’ə təqdiri-qəza,

Ol işin əncaminə imkan tapılmaz dəhrdə,
Gər qəza təqdirinə olmazsa rə’yindən riza.

Xilqətindən adəmin məqsəd itaətdir, fəqət
Yoxdur həqq əmrinə tabe’likdən özgə müddəa.

Hər qədər ki, rəhnümalıq etməmişdin Adəmə,
Baş verərdi taətində Adəmin hər gün xəta.

Indi çoxdandır Nəcəfdə iqtida etmiş sənə,
Taətində hər xəta kim var idi, qılmış qəza.

Çıxdı müşriklik pasından şər’i-həqq ayinəsi,
Verdi ol ayinəyə hər ayinə tiğin cila.

Dinə tabe’dir o kəs kim, tabe’ olmuş hökmünə,
Küfrdür olmaq sənin fərmanına bie’tina.

Hansı bir kəs ki, çəkər dünya ilə üqba qəmi,
Sözdə sultan olsa da, sən bil həqiqətdə gəda.

Hər iki aləmdə çün hiss eyləməzsən ehtiyac,
Səndən özgə padişəh yoxdur iki aləm ara.

Hansı ordu qarşısında getsə sən tək bir imam,
Sayə tək izlər onu hər ləhzə nüstər mütləqa.

Hansı bayraq sayəsində olsa sən tək pak-nur,
Ayla gün səcdə qılar, təslim olar ol bayrağa.

Hər kimin vardır, əlində mehrinin sərriştəsi,
Heç nədən xof eyləməz, düşmənlə dünya dolsa da.

Təkcə sənsən hər yerə getsək pənahi bizlərin.
Səndən özgə yox pənahım, ya Əliyyəl-Mürtəza.

Səndən özgə bir kəsə bizlərdə olmaz e’timad,
Səndən özgə kimsəyə üz tutmarıq biz binəva.

Vermişik mehrin kimi yaxşı əməldə imtəhan,
Cümlə əhli-cənnətik, həqq ədlilə versə cəza.

Bəxş edərsə bizlərə ümmid öz amalımız,
Bais oldur, söykərik arxa sənin dərgahına.

Asitanın türbəsinə meyl edən rüxsarımız
Bir samandır kim, onu cəzb eyləmişdir kəhrəba.

Dərgəhin torpağinə düşdü saralmış çöhrəmiz,
Yə’ni ol qiymətli torpağə nisar etdik tila.

Xidmətində biz sənin tam bir ömür sərf etmişik,
Yaxşı olmaz eyləsək bu xidmət ilə iktifa.

Bir bükülmüş qamət ilə natəvan bu cismi biz,
Layiq olsaydı edərdik dərgəhində buriya.

Dərgahində bu iki qat qəddimizdən tağ vurub,
Göz kəsib dostdan, ona biganə olmuş əqrəba.

Bu Füzuli kimsəsizdir, çarəsizdir, ya Əli,
Göz kəsib dostdan, ona biganə olmuş əqrəba.

Müxtəlif bir xəlq içində doğru yoldan azmamış,
Sanki xətti-üstüvadır, meyl qılmaz sağ-sola.

Çatmış artıq ol zaman kim, nail olsun lütfünə,
Bu bəladən ol əlili-dərdimənd olsun rəha.

Tutiyi-şəkkər şikəndir, vəsfini vird eyləmiş,
Istəməz övsafını zağü zəğən etsin əda.

Üns baği, qüds gülzarində bir bülbüldür o,
Dar qəfəs küncündə layiqdirmi ki, məhbus ola?

Bir neçə fir'on məkrin riştəsini sehr ilə,
Bəsdir etmişlər onun sadə gözündə əjdəha.

Asitinindən yədi-beyza çıxarmaq vaxtıdır,
Ya Əli, sahirlərin meydaninə at bir əsa.

E'tiqad etməzlər e'cazinə Musanın, vəli
Cümləsi cöngəpərəst olmuş bu qovmi-bihəya.

Dəm o dəmdir ki, qırıb çatmaq üçün kafirləri,
Zülfüqar əldə edəydin, ya Əli, əzmi-ğəza.

Din yolunda adətin üzrə bizə mə'lumdir
Kim, edibdir hüsni-sə'yin həqqi batildən cida.

Təb'imin tutisi dil açmış fəsahətlə mənim,
Hüsn gülzarında kamımca edər şurü nəva.

Istərəm vəsf eyləyim ancaq Əli övladini,
Etməyim biganə bir şəxsi təvəqqö'lə sənа.

Tövbə qıldıq ömrümüzdə kimsəni mədh etməyək,
Bir Əli, bir də onun övladi-pakindən səva.

* * *

Ey üzü, qəddi, ləbi, xətti cahanə şur salan,
Sərv qədsən, lalə üz, reyhan xətü, qönçə dəhan.

Nəqşü xəttü xalü şövqü zövq ilə dolmuş bu gün,
Qəlb lövhü, göz kitabı, cism dürcü, gənci-can.

Göydə Ay, dəryadə dür, Çində sənəm, gülşəndə gül,
Oldu zibü ziynətü hüsnü cəmalından nəhan.

Qoymamış rəftarü nazın, şiyvə həm qəmzən sənin:
Təndə can, başda ağıl, qəlbimdə tab, canda təvan.

Rəngü rüxsarınla zülfü kakilindən borc alıb:
Iy bənövşə, tab sünbül, ətr gül, rəng ərğəvan.

Xəttü rəftarü dişinlə ləblərinə rəşk edər:
Müşk Çində, sərv bağda, dür dənizdə, lə’li-kan.

Olmamış lə’li-ləbin, ağzın, saçın, qəddin kimi
Lə’l şirin, dürc xəndan, müşk tər, sərvi-rəvan.

Rəhm qıl kim, dağü dərdü zülmü cövründən olub
Iş-peşəm fəryadü nalə, həmdəmim ahü fəğan.

Çıxdı canım, başda, gözdə, qəlbdə, canda durur,
Qəm haman, sevda haman, möhnət haman, həsrət haman.

Neyləyim, çarəm nədir, necə dözüm, həmdərd hanı?
Xəlq yaman, qəlbim dolu, sən yad, fələk namehriban.

Yox səbatü taqətü tabü təvanım kim, çəkəm,
Yar edə naz, çərx edə cövr, xəlq tə’nə, dil fəğan.

Tapdı xəttü xalü rüxsarü gözündən daima:
Göz işıq, qəlbim fərəh, ruhim qida, cismim təvan.

Yaxa xəttü xalü rüxsarü gözünü ol şəhin
Damü divarü qapı, kəndarına sürtdün bir an.

Kim, zühurilə Iraqü, Çində, Rumü Farsdə
Alçalı Xaqan, Qübadü Qeysərü Nuşirəvan.

Lütfü, elmi həm səxası, helmidir peyğəmbərin,
Ram olub vəhşilə quş, aram tapmış insü can.

Sirri-fürqanındadır Tövratü Incülü Zəbur,
Cəm olub ol nüsxədə cahü cəlalü qədrü şan.

Sərvəri, sərdari, sədri, seyyidi insanların,
Mərkəzi-qütbi-cahandır, nüqteyi-dövri-zəman.

Ismü rəsminə, süfatü zatinə mədyun olub,
Əvvəl, axır, aşikar, gizlin o şahın bigüman.

Üç məvalid, iki aləm, on üqul, səkkiz behişt,
Yeddi ulduz, altı səmt, dörd təb', doqquz asiman.

Ədlü ünsürdən, fələkdən nəfsdən əvvəl gəlib
Tutdu ərşü kürsiyü lövhü qələm üstə məkan.

Cəbrəili, Rəfrəfi, Mikaili, Israfili
Etdi meyli, mehri, zövqi, şövqi yolçu hər zaman.

Aləmi-lahutü nasutu, cəhanı, göyləri
Seyr edib, görmüşdür, öyrənmişdir, etmiş imtahan.

Bağlıdır hökminə şimşək, ildırım, yağmur, bulud,
Su, külək, torpaq, oda ol şah olmuş hökmran.

Şərqdə, qərbdə, şimal ilə cənubda hər nə var,
Il və ay, gündüz, gecə quldur o sultanə, inan.

Tapdı meylü təb'ü rə'yinə mizacından nizam,
E'tidal ilə keçər yay, qış, bahar ilə xəzan.

Feyzü lütfü xeyrü hüsnündən onun hasil olar:
Istilik, şaxta, quraqlıqla rütubət eyni an.

Zülmü, cövrü, büğzu kini məhv qılmaq istəsə,
Dərk edər vəhşilər ədlü, mərhəmət, əmnü aman.

Fil, ilan, aslan gözündə, sərv şaxində tutar:
Milçək ev, qarışqa yer, ahu vətən, bayquş məkan.

Müslimü cəbrü yəhudi ya məcus olsun, bilir,
Mö'cizini ol şəhin övrət, kişi, pirü cəvan.

Fikri, zikri, həm xəyalü mədhi iman əhlinə
Ruh verər, nəş'ə verər, asudə eylər, kamran.

Münhəsirdir təl'ətü xülqinə, lütfü qəlbinə:
Sürət hüsnü, xülq lütfü, incə qəlb, şirin zəban.

Açdı Musayə, Xəlilə, Isəvü Davud üçün
Lütfü ehsanü kərəm lütf ilə bir süfrə haman.

Izzəti, qədri, məqamı, e'tibarı bəzminə,
Adəmi, Idrisi, Nuhi, Xizri etdi mihman.

Sevgini, tə'zimi, lütfü, ülfəti, qəlbə səfa,
Büğzü, kini, nifrəti, ikrahidir cismə ziyan.

Sirdə, sözdə, gedişdə, seyrdə dörd yar ona
Yoldaş olmuş, həmnişindir, həmüzəngi həminan.

Sülh, də'va, əzmü təmkinə odur surət verən,
Ömrü nəhyin, həllü əqdin nüktəsinə, tərcüman.

Qabilü məqbul, təqva, paklığın dörd qütbüdür,
Elm, dinü, şər'ü adət xəznəsinə pasiban.

Huriyə, qilmanə, qəsrə, cənnətin gülzarinə,
Rəhbər olmuş, həm bələdçi, həm dəlil, həm yol tapan.

Zatının mədhi, sifatın şə'ninə sığmaz sənin
Nə rəqəmlər, nə hesabü, nə qiyasü, nə güman.

Xəlq ədlü lütfü cudu rəhni saxlar, necə kim
Bəbəyi göz, gözü baş, başı bədən, cismisə can.

Dövlətin, cahü cəlalü qədr qəsri damına
Əqlü nəfs, ünsür və göylərdən gərəkdir nərdivan.

Küfrü şirkü məkrü hiylə əhli qarşında sənin,
Hər ələ alsa kəməndü, gürzü peykanü kəman,

Onları qırmaq, dağıtmaq, susdurub əzmək üçün,
Hökmünə tabedir Ay, Ulduz, Günəşlə Kəhkəşan.

Şükr kim, qəlbində şövqü zövqü mehrin, dostluğun,
Baqidir, həm də silinməz, sabit olmuş cavidan.

Sayəsində lütfü mehrü şəfqətinlə, bəxşişin,
Kamə yetdim, kamım aldım, kamiranəm, kamiran.

Ay və il, axşam, səhər ta var, Füzuli xəstədə
Qəlbdən, dildən əsər, ya cism ilə candan nişan,

Şövqü eşqü fikrü mədhin daima olsun ona,
Ruh qidası, baş tacı, can mərhəmi, virdi-zəban.

* * *

Yenə ətrafə ətir saçmadadır badi-səhər.
Açdı gülşəndə gülün qönçəsini pərdeyi-zər.

Əndəlib naləsini dinləyirəm, yoxsa yenə,
Yaz gəlib, bərgi-gül öz pərdəsini atdı məyər?

Bülbülün nəğməsinə gül də verir nazla cavab,
Sanki bu nəğmə ilə ruh çağırır əfsungər.

Bir otaq etdi həva, sanki hübabi özünə,
Dincələ bəlkə bir az arx kənarında səhər.

Jalə isə çalışır ol evi viran etsin,
Ah necə bərkdir üzü, ah necə nacins gühər!

Su hübabilə salarkən havanı zəncirə,
Səbəbi bu ki, havadan törəyir çoxlu xətər.

Kim ziyan versə görər axiri aləmdə ziyan,
Kim zərər verməsə görməz bu cahan içrə zərər.

Belə bir fəsldə kim, gül atıb öz pərdəsini,
Korlar ancaq çəməni seyr eləməz, guşə sevər.

Vay mənə yox xəbərim səbzəvü güldən, eyvah,
Qalmışam kor kimi bir guşədə zarü müztər.

Nə qədər qönçə kimi bağlanacaqdır qapımız
Ömrümüz badə gedib qan olacaqdır bu cigər?

Yaxşı olmazmı səba tək uçaraq mən özümü,
Yetirim bir bağa kim orda xəzandan yox əsər.

Taparaq ta ki görəm məclisini daxil olum
Ki, onunla eləyir fəxr bütün noi-bəşər.

O, zəkavət ağası, əqlü şüur sahibidir,
Bütün ehkamı o şəxsin sayılır fəzlü hünər.

Mələkayinü fələkmərtəbə Əbdürrəhman,
Misli yoxdur şəm ilə aləmi gəzsən nə qədər,

Ey olan cümlə fünun üzrə qabaqcıl alim,
Hər hünər sahibi qarşında sənin səcdə edər.

Görməmiş mislini heç çərxi-fələk aləmdə,
Sən kimi bir günəşi görməmiş heç dövri-Qəmər.

Mədh edərkən səni mən taəti atdım çünki,
Şe’rimə müxtəsəri taət olurdu ləngər.

Yola düşdükdə sənin kuyinə, atdım namazı,
Çünki taət eləməz bir kişi etdikdə səfər.

Sərvərim, dərgəhinə çatmağa can atdı könül,
Yolu göstərdi qəza, saldı Füzuliyə nəzər.

Var ümidim nə qədər bitsə nihali-qələmin,
Nə qədər lütf yerində o qələm bəhrə verər,

Səni həqq hifz eləsin, sən də bizə mərhəmət et,
Nə qədər dəhrdə var feyzi-xudayi-davər.

* * *

Lütfə bax, gör nə gözəl mənzəreyi-xəzradır?!
Yenə sübhün küləyi gör necə ruhəfzadır!

Bu bahar fəsli, lətafətlə əsən badi-səba,
Hər yerə feyz aparan qasidi-xoşsimadır.

İldırım bərqi tökür dürr çiçək yarpağına,
Küləyin titrəyişi gülşənə ənbərsadır.

Qəlbinin varsa gözü, gəl çəməni seyr eylə,
Hoqei-qönçəni al gör nə dolu səhbadır.

Çölləri seyr eləmək dövlətidir dünyanın,
Buludun kölgəsi nə sayei-istiğnadır.

Qönçənin nitqi əgər yoxsa, dəhanı vardır,
O da bu ne'mət üçün şükr eləyən rə'nadır.

Bu yaşıl ot da əgər sakit isə bir dili var,
Onun hər nüktəsi bir nəğmeyi-müstəsnadır.

Mən dünən getmiş idim gülşənə seyr etmək üçün,
Gördüm hər bitkidə asari-fərəh peydadır.

Qönçələri doldurur hey şəbnəm ilə peymanə,
Lalə də badə yuyur, öz işinə daradır.

Gül odu orda kəbab etmədə bülbül ürəyin,
Hər tərəf qumri, göyərçin dil açıb guyadır.

İstədim orda qalam, qəlb dedi: tərk eylə!
İstədim bəzmə gedəm, təb' dedi: bicadır

Ki, neçün fani olan bəzmə könül verməlisən,
Bu vəline'mət üçün dərd gətirən mə'nadır.

O qələm sahibi xoşxülq vəline'mətimiz
Ki, meyi-məclisi bir mərhəməti-üzmadır.

Odur əl'an ki ona xəlq eləyir raz-niyaz,
O bu gün cümlə fünun üzrə düri-yektadır.

Namə tək hər kəs onun tə'zim edir dərgəhinə,
Bir qələm tək hamının arzusu ondan sadir.

Allahın rəhmətidir ərzdə Əbdürrəhman,
O vəfa bağinə bir zivəri-bihəmtadır.

Ey səadət dənizindən yaranan mirvari,
Hər kəsin istəyinə xaki-dərin məlcadır!

Lalə tək öz qanına qərq olan aləmdə mənəm,
Məclisinsə çəməni-eyşü fərəhbəxşadır.

Qəlbimin dağinə bax, çaki-giribanimi gör,
Məni bu halə salan, bil, sitəmi-dünyadır.

İki-üç gün mənə öz feyzi-nəmindən pay ver
Ki, hər ildə iki-üç gün əməlim bərpadır.

Sərvərim, xəstə Füzulini əzir dərdü ələm,
Qəm kimi səndən uzaqdır o da, bil, rüsvadır.

Can atır məclisinə çünki bilir, hər nəfəsin
Qəlbinin dərdinə misli-nəfəsi-Isadır.

Var ümidim ki, cahan gülşənini süsləməyə,
Ta ki, bu sünbülü nəsrinü səmən zibadır,

Müttəsil feyzi-duan ilə çatan məqsədinə,
Mən kimi kimsə duaguyi-səri-valadır.

* * *

Gözdə rüxsarın durur, könlümdə mehrin hər qədər,
Könlüm olmuş həm əsiri, gözlərim qan-yaş tökər.

Könlümün al qanına, göz yaşıma bax, bil mənim
Gözdə bir başqa qəmim, könlümdə var başqa kədər.

Yandırıb xakistərə döndərdi qəmlər cismimi,
Mə’rifət əhli gülümdən gözlərə sürmə çəkər.

Eyş odundan bir əsər vardır könüldə mütləqa,
Sürmə olduqda külüm gözlərdə parlar bu əsər.

Hasilim hüsnün təmənnasında olmuş ey pəri,
Kirpiyimin hər ucunda qətreyi-xuni-cigər.

Qəlb odundan bir şərərdirmi cigər qanım mənim
Bunca şəm’i yandırıb yan-yanə düzmüş ol şərər.

Yüz qapı açmış sinəmdə ox kimi kirpiklərin,
Ta görünsün harda sakindir bu qəlbi-dərbədər.

Yağdırır hərdəm fələk bağrına təb’in ah oxu,
İllət oldur kim, fələkdən eyləyir, canım həzər.

Çərxi incitməkdən hasil yox əziyyətdən səvay,
Şişəni qırsan olar hər parəsi bir niştər.

Kimsə baxmazmı saman rəngi alan rüxsarıma,
Düşdü xaki-payinə oldu qızıltək mö'təbər.

Kimyagər asitanımdan gərəkdir dərs ala,
Çün samandan saf qızıl hazırlamaqdır bir hünər.

Mən məlamət bəzminin bir şəm'iyəm, fərq eyləməz,
Ya məni yandır və ya kəs başımı ey simbər.

Şiveyi-eşqi gərək öyrənsin aşiq şəm'dən,
Badə getdikdə başı dirçəlsin, olsun xuncigər.

Heyf kim, bir ləhzə könlüm qəmdən azad olmadı,
Izlədi bu köhnə dünyada onu min fitnə, şər.

Kütləşib artıq qılınc tək doğrayan kəskin dilim,
Tə'n oxuna bihünərlər cismimi etmiş sipər.

Göz yaşımın gövhərinə yoxdur artıq müştəri,
Toplanıb qalmış bəbəklərdə o qiymətli göhər.

Qorxudan göz yummuşam didarına dilbərlərin,
Hər pəri ardınca bu dünyada yüz şeytan gəzər.

Qoymayırlar əhli-zövqü kamə çatsın dəhrdə,
Bu inad əhli mənə hər anda vermiş min zərər.

Yə's vadisində kami-dil təmənna eyləmə,
Bu şoranlıq çöldə ümmid ağacı verməz səmər.

Yar yoxumdur ki, ona əğyar zülmündən deyim,
Qalmışam naçar edim bu ölkədən meyli-səfər.

Qəlbimin sirrini, şərhi-halımı ərz etməyə,
E'tibarlı dost çox gəzdim, tapılmaz bir nəfər.

Cümləsi kordur, pərişan halımı kimlər görər,
Cümləsi kardır mənim fəryadımı kim dinləyər?

Təkcə o, həşmətli sərvərdir ki, sabit rə’ylə,
Pak qəlbilə olubdur bir günəş tək cilvəgər.

Lütfü ehsanü səxavətdə elə şöhrət tapıb,
Kimsə bilməz kim, mələkdir, yoxsa övladi-bəşər.

Cilvə saçmış, feyz vermiş aləmə lütfü onun,
Təb’inin qüvvət quşu açmış bütün dünyadə pər.

Əbdürrəhman ki, fələk-şövkət, mələk-qüdrətlidir,
Dərgəhini səcdəgah etmiş onun Şəmsü Qəmər.

Sayeyi-lütfündə şe’rin artdı qədrü qiyməti,
Şe’r qədrini necə zər qədrini zərgər bilər.

Mərkəzi-idrakdə bir qütbsən, ey sərvərim,
Qərq olar nurə kimə lütfilə salsan bir nəzər.

Bəxtin imdadiylə şəhpər açsa idrakın quşu,
Xidmətinə, sərvərim, çərxi-fələk bağlar kəmər.

Bu Füzuli dərgəhin xadimlərindəndir sənin,
Hali-zarından onun, lütf eylə, olma bixəbər,

Əhd qılmışdı ki, vardır hər qədər cismində can,
Qarşına söz süfrəsi açsın öz imkanı qədər.

Məqsədim könlümdəki dərdə təsəllidir mənim,
Yoxsa verməzdim sənə bu sözlərimlə dərdi-sər.

Istərəm ki, hər qədər dövri-fələk xidmətçisi,
Hər gecə məclis düzəldib yandıra şamü səhər.

Heç zaman bağlanmasın ehsan yolun bu dəhrdə,
Mən və yüz mən kimi yolçu olsun ondan bəhrəvər.

* * *

Ey Asəfi-zəmanə, bu ovzai-halimi,
Bir dinlə kim, kəlami-hesabi edim əda.

Bir cəm’ vurmuş idi mənim nəqdi-ömrümə,
Əvvəl hesabda, hasibi-müstövfiyi-qəza.

Əsl ilə cəm’ məbləğini yoxlayan zaman,
Etdi əbəs hesabını boşluqla ibtida.

Fazillərin kəraməti etdi kömək mənə,
Xərcim tamam oldu mənim mədhi-Mürtəza.

Hər bir qəsidəmin də böyük e’tibarı var.
Vermiş iki hədiyyə ona xəlq ilə xuda.

Əblaqini xəyal varımdır yarı böləm,
Sərf eyləyəm yolunda: deyəm mədhilə səna,

Bir bax, bu cəm’ü xərcdə hər şey yerindədir,
Təfsilim aydın oldu, müxtəsərim də fərəhfəza.

Əmr eylədi fələk yer əkim mən ömür boyu,
Mən həm onun bu əmrini də eylədim rəva.

Göz yaşlarım gücüylə yaratdım hesabsız arx,
Danə kimi səpildi sirişkim də torpağa.

Ol danələr bəla buludundan güc aldılar,
Ta kim hüsulə gəldi belə xərməni-vəfa.

Tutdum onun əyarını mizani-şe’r ilə,
Ondan gəlib pay aldı, budur cümlə övliya.

Böylə yekun vuruldu mənim kiştü karimə,
Böylə verildi şe’rimə də qiymətü bəha.

Gəl sən özün bu halimə qal, Allah eşqinə,
Mənsəblilər yolunda mənə vermə çox bəla.

Rəbbim həmişə qul eləsin bəxti qoy sənə,
Qoy gözləsin həmişə qapından cahan əta.

* * *

Ey olan parlaq zəkası kainatın aynası,
Öylə sirr yox ki, şüurundan tuta gizlin hicab.

Ənbər iyli bir niqab içrə o xamən dilbəri,
Yüz gözəl əsrar üzündən qaldırar hərdəm niqab.

Surətinlə tapdı surət mə'rifət mülkü tamam,
Etdi mə'na gəncini miftahi-kilkin fəthi-bab.

Sərvərim! Bir ömrdür ruhum bədəndə titrəyir,
Ölmək üçün xaki-payindən çəkir hey iztirab.

Səndən ayrı, dərdə düşdüm üzrümü gəl et qəbul,
Bu zəif tənlə, nə etmək, çəkməli oldum əzab.

Mən uzaq qalsam da, səndən qalmaram qəflətdə, bil,
Var sənin dərgahinə ərzi-niyazım bihesab.

Yazmışam hali-dilim, amma kim, etmir bir əsər,
Şərhi-dil göndərmişəm, amma ki, yoxdur bir cəvab.

Nə qədər xaki-dərindən duymayım xidmət iyi,
Olmayır qarşında neyçün bu dualər müstəcab?

Xoş olar yazsa mənim ünvanımı mişkin qələm,
Ya dilin mən barədə bir söz desə, eylər səvab.

Dəryadə adət budur uzaq, yaxın fərq qoymadan,
Lütf ilə hər möhtacı, feyzindən eylər kamyab.

Kim yaxınsa bəxş edər dürrü sədəf, ikram ilə,
Kim uzaqsa göndərər həm öz suyundan bir səhab.

Çeşmeyi-xurşiddə də vardır bu adət kim verər;
Həm uzaq, həm də yaxın əşyayə surət, abü tab.

Göydə nurindən alır öz payını dövri-qəmər,
Yerdə də ondan alır öz rəngi-alın lə'li-nab.

Ey səxavətdə olan yüksək, Günəşdən, dəryadan,
Qoy sənə ehsanda olsun qul bu dərya, Aftab.

Mən uzaqda qalmışam yaxından artıq lütf qıl,
Bu uzaqlıq təqsirin əfv eylə, gəl etmə itab.

Mən uzaqda olduğumçun lütfünə çox möhtacam,
Ay Günəşdən dur olarkən nurlanar çox, mahtab.

Sən mənə lütf eylə bir fərmanla şad et könlümü,
Çünki göydən hər zaman nazil olar ərzə kitab.

Ta nə qədri yerdə vardır böylə təmkinü sübat,
Ta fələkdə adət olmuş böylə dövrü inqilab.

Dönməsin bir qəm qapından bəxtü iqbalın üzü,
Yüksəlişlər etməsinlər taleyindən ictinab.

Hey dua eylər Füzuli gecə-gündüz bəxtinə,
Başqa iş bilməz deyər: vəllahu ə'ləm bissəvab.

# Tərkibbənd

Necə xoş günlər idi bilməz idim yaxşı, yaman,
Yar qəmi çəkməz idim, qorxmaz idim düşmandan.
Eşq sevdasinə, aşiqliyə biganə idim,
Könlüm asudə idi dərddən, həm dərmandan,
Olmamışdı gözümün pərdəsi qanla rəngin,
Ürəyimdə yox idi xar o güli-xəndandan.
Dəyməmişdi gözümə surəti-eşq ayinədə,
Çıxmamışdı üzə hüsnün gözəli pünhandan.
Hələ pabənd deyildim hərəmi-eşqidə mən,
Qəflət azad eləmişdi məni ol zindandan.

Mənim asayişimə qibtə ilə baxdı fələk,
Bu cəhanə gətirib, dərd oduna yaxdı fələk.

* * *

Canım aşüftə, əsiri-dili-şeyda oldu,
Cismim avarə, düçari-qəmi-dünya oldu.
Ruhumu vəsvəseyi-şövqi-bədən sarsıtdı,
Gözdə görmək həvəsi get-gedə peyda oldu.
Möhnət atəşkədəsi şö'lələnib sinəmdə,
Başımın ağrısının illəti sevda oldu.
Fitrətimdən doğulan pərdənişin bir dilbər,
Pərdəni atdı, açıb sirrini, rüsva oldu.
Cismü can ilə könül meyl elədi dünyayə,
Söz uzandı aramızda, sonu qövğa oldu.

Gördülər bikəsü məğlubü günü tirə məni,
Hər üçü bağladılar zülm ilə zəncirə məni.

* * *

Cismü canü dili-şeydayə itaət etdim,
Mən də bu aləmə izhari-məhəbbət etdim.
Cism aram, könül kam tapa, can rahət
Deyə, öz həmdəmimi dərd ilə möhnət etdim.
Mənim aləmdə pərişanlığıma oldu səbəb,
Hansı təqdir ilə cəmi'iyyətə xidmət etdim,

Düşdüm asudə ikən cövrü məşəqqət yoluna,
Rahət ikən həyəcanə, qəmə adət etdim.
Qılmadı müşkülümü həll mənim sevda də,
Tərki-sevdayə odur əzmlə himmət etdim.

Eşq gəldi, dedi: bu yolda mənəm yar sənə,
Cismü can ilə könül yandı, bir od vurdu mənə.

* * *

Bir gülün eşq oduna qıldı giriftar məni,
Saldı heyrət oduna, yaxdı o xunkar məni.
Gah gözəl qəddini qarşımda nümayan etdi,
Gah əyib qatladı ol türreyi-tərrar məni.
Gah mənə saldı nəzər nərgisi-şəhlası ilə,
Gah qara zülf kəməndinə salıb xar məni.
Sinəmə çəkdi qəmü möhnət odundan min dağ,
Eylədi şamü səhər gözləri xunbar məni.
Qaməti sərv, üzü lalə, gümüş əndamlı,
Dilbərim etdi cəfa çəkməyə vadar məni.

Hər qədər sızlayıram mən, o gözəl şad olur,
Rəhm qılmaz mənə, könlüm evi bərbad olur.

* * *

Düşmədən qeydinə yetməzdi mənə azari,
Dərdə salmazdı cəfa ilə dili-bimari,
Mərhəmət hissi duyardım baxışından o zaman,
Qan axıtmazdı onun mərdüməki-xunxari.
Yad edib, halimi hər gün soruşardı məndən,
Tərk qılmazdı, unutmazdı bu biqəmxari.
Etməmişdi hələ əğyar ona tə'limi-cəfa,
Şən vüsal bəzminə qoymazdı qəmi-əğyari.
Söhbətindən onun artırdı fərəh qəlbimdə,
Gülünün xari yox idi, meyinin xümmari.

Lütfü zülmün yoluna getmək imiş, bilməz idim,
Məqsədi könlümü seyd etmək imiş, bilməz idim.

* * *

Könlümü ovladı, məndən üzünü etdi nəhan,
Qıldı min çövrü cəfa ilə məni sərgərdan.

Baxdı bədxah rəqibin sözünə, mən yazığa,
Nə qədər istədi zülm eylədi, tutdu divan.
Şərhə gəlməz ki, fəraqilə nələr etdi mənə,
Mən idim dözdüm, onun zülmünə dözməz insan.
Könlüm ümmidi-vəfa ilə ona bənd oldu,
Etdi ümmid evini cövrü cəfası viran.
Həmdəm olmaq da çətindir, onu tərk etmək də,
Nə edim, çarə nədir, dərdimə qaldım heyran.

Bir gecə atdım həya pərdəsini mən üzdən,
Fürsət əldə edib, açdım ona öz qəlbimi mən.

* * *

Dedim: ey qəlbimə hər dəm verən azar qəmin,
Xəm edib qaməti-mövzunumi bari-sitəmin.
Yetər hər ləhzə mənim könlümə səndən qəmlər,
Nə qədər tab qılım cövrünə, bitməz sitəmin.
Bir zamanlar mənə lütfün var idi, olmuş idi
Mənim ağlar gözümün sürməsi xaki-qədəmin.
Nə xəta çıxdı əlimdən, nə günahım var kim,
Məni – biçarəni tərk eylədi lütfün, kərəmin?
Bundan artıq mənə cövr eyləmə ki, bitabəm,
Təndə yoxdur o təvan ki, çəkə bari-ələmin.

Dedi: biz dilbərik, axtarma məhəbbət bizdən,
Yerini bil sözünün, etmə şikayət bizdən.

* * *

Dedim: ey sərvqəddim, simbərim, laləüzar,
Yazığam, gəl mənə zülm eyləmə, olma qəddar.
Rəhm qıl, rəhm ki, ta kam alasan ömründən,
Mehrsiz olma, olar mehrsizin axiri xar.
Mərdümi-çeşmimi qərq eyləmə qan içrə mənim,
Mərdümazar olan kəslərə olma dildar.

Doğruçu dostlara yar olmağını vacib bil,
Dinləmə, bil ki, yalandır nə deyirsə əğyar,
Hüsnünə qürrələnib çıxma yolundan, bil kim,
Hüsn tez zayil olar, qalmaz üzündə asar.

Ağarar zülfün, olar tirə o gül rüxsarın,
Tüstü qalxar ocağından, soyuyar bazarın.

* * *

Kimsə gəlməz yanına ta ki, ola qəmxarın,
Mayil olmaz görə bir kəs o solan gülzarın.
Həvəsi-vəslin ilə bir də könül çırpınmaz,
Çıxarar hövsələdən xəlqi qaba rəftarın.
Tük qədər kimsədə qalmaz həvəs o kakilinə,
Hər tükün bir tor olar, xəlqə yetər azarın,
Qurtarar canla könül meylü həvəs qeydindən,
Müşgü ənbər qoxusu versə belə rüxsarın,
Səndən üz döndərər hər bir kəsə üz döndərsən.
Meyli düşməz sənə nə yar, nə də əğyarın.

Öylə rəftar elə xəlq ilə ki, çatdıqda o gün,
Tə’nəsilə səni sarsıtmasın üşşaq bütün.

* * *

Sözlərim etmədi, əfsus, onun qəlbinə kar,
Qorxmadan könlümə hər ləhzə yetirdi azar.
Qılmadı rəhm mənim halıma, bidad etdi,
Mərhəmət istədim, o zülmdə qıldı israr.
Mən deyildim daş ürəkli o cəfakar kimi,
Qılmadı tab cəfasına onun bu dili-zar.
Etmədi dərdimə dərman o, məni-bimarın,
Tərk qıldım səri-kuyini o şuxün naçar.
Bağlanıb silsileyi-qürbətə qaldım neçə il,
Şövqi-dildarı ilə oldum ağır dərdə düçar.

Könlümün qapını gözdən mən axıtdım hər an,
Ağlayıb, göz yaşı tökdüm, edərək ahü fəğan.

Könlümün müşkülünü açmadı qürbətdə haman,
Yada saldıqca onu qəmlərim etdi tüğyan.
Ağladım, səbrimi göz yaşım axıb verdi selə,
Ahımın badinə getməkdə idi tabü təvan.
Dərdim artdı, ürəyimdə qəmü möhnət artdı,
Qılmadı tərk məni həsrəti-vəsli-canan,
Qürbət eldə başıma düşdü vətən sevdası,
Qalmadı səbrdən avarə bu könlümdə nişan.
Vətənə çatdım, onun kuyinə oldum azim,
Canıma od vuran o dilbərə baxdım pünhan.

Gördüm artıq gülünə xar dəyib, etmiş xar,
Gül solubdur, yabani otla dolubdur gülzar.

* * *

Alnını ay kimi çin pərdədə pünhan etmiş,
Hər əsir qəlb onu azadlığa ünvan etmiş.
Tərk qılmış onu həsrətlə yanan aşiqlər,
Sanki quşlar, qış olub, tərki-gülüstan etmiş.
Intizarini çəkənlər üzünə baxmaz onun,
Hali dildadələri hali pərişan etmiş,
Qalmamış onda daha badeyi-qəflət əsəri,
Sərxoş imiş, oyanıb, dərdinə dərman etmiş,
Sanki rö’yadə gədapişə görübdür, tale’,
Çıxarıb təxtə onu, ölkəyə sultan etmiş.

Həsrətindən, oyanırkən ürəyi qanə dönüb,
Hamı aşiqləri bir cəm’i-pərişanə dönüb.

* * *

Qəmli gördükdə onu, könlüm açıldı kəm-kəm,
Hali qəlbimdə olan dağlara qoydu məlhəm.
Yaralı könlümü tərk etdi az-az, eşq qəmi,
Get-gedə xatiri-qəmpərvərim oldu xürrəm,
O pərişan görünüb, xatiri olduqca məlul,
Mən unutdum kədəri, qüssəni, oldum biqəm,

Can ki, məhrum idi eyşü fərəhü işrətdən,
Eyşü işrət hərəminə yenə oldu məhrəm.
Aləmin zövqünü, şövqini unutmuş könlüm,
Yenidən anladı kim, şövq evidir bu aləm.

Mən onu qəmli görərkən özüm oldum xoşhal,
Dözmədim, verdim ona tə'n ilə bir böylə sual.

* * *

Dedim: ey sərvi-rəvan, şiveyi-rəftarın hanı?
Ay kimi parlaq üzün, bal kimi göftarın hanı?
Əyilən ruyinə sevdalı o qaşlar nə olub?
Eşq zəncirinə yüzlərcə giriftarın hanı?
Noldu qeydindən əsirlər hamı azad oldu,
Mey kimi məst edən o lə'li-şəkərbarın hanı?
Nə səbəbdən səni tərk eylədi dildadələrin?
Onları bəndə çəkən türreyi-tərrarın hanı?
Dedi: tə'nə oxuna tutma məni, söylə sənin
Noldu sevdalı başın, dideyi-xunbarın hanı?

Surəti-zahirə bənd olma, o fanidir, bil,
Əbədiyyət ara, ver surəti-mə'nayə könül!

* * *

Bu nəsihət meyli çün etdi məni məstü xumar,
Qırdım hər qeydi ki, insani cəhanə bağlar,
Dənizə batdım, önümdən çəkilib getdi sərab,
Büt mənim öz bütüm idi, o bütü qıldım xar.
Batili tərk edərək, Həq yolunu tutdum mən,
Ölü ikən dirilib, aləmə gəldim təkrar.
Yaşamaqçın mən o eşqin ətəyindən tutdum
Ki, əlim getsə də, daim o ətək əldə qalar.
Fani aləmdədir hər qüssə, yəqin oldu mənə,
Talibəm mülki-bəqayə, nə qədər ömrüm var.

Yarəb, et, müşkilini həll Füzulinin sən,
Sal rəhi-həqqə, xilas eylə xəta rahindən.

# Ənis ül-qəlb

* * *

Mənim könlüm sədəfdir, sözlərimdir dürri-qəltani.
Dənizdir elmim, Allah feyzidir neysan barani.

Təaləllah, nə incə incilərdir kim, bəzək vurmuş,
Qulaqla boynuna onlarla dəhrin əhli-ürfani.

Dilin guya bu dəryayə, bu dürcə bir yolu vardır
Ki, hər saət səxavətlə bəzər dürr ilə dünyani.

Əgər heyvan danışmazsa, ona insan deyən olmaz,
Könül əhli dil ilə eyləyir bilməz təşxis insani.

Nədir illət ki, heç kəs öz dilinin qədrini bilməz,
Təbiidir ki, lə'lin qədrini bilməz onun kani.

Sözün şə'ni o əndazə böyükdür ki, müəllimlər,
Sözün məhsulu bilmişlər düani, vəhyi, Qur'ani.

Sən ey söz dilbərinə ziynətü ziyvər verən insan,
Libasi-mə'rifətdən qılma gəl məhrum o canani.

Kifayətlənmə səslə, hərflə, mə'nada feyz axtar
Ki, Davudi nübüvvətdir əziz etmiş, nə əlhani.

Rəva görmə canın çıxsın bədəndən kəsbi-ürfansız
Ki, irfan kəsbinə canın bədən olmuş dəbistani.

Demə bir zərrə torpaqdır bədən, diqqətlə seyr etsən,
Görərsən eyləmiş yüz Xizri avarə biyabani.

Çalış ürfan qazan, ta əql olsun hökmünə tabe,
Büsati bərhəm ustadın əlində olmaz imkani.

Demə can boş qəfəsdir, bir düşün, əslini tədqiq et,
Bəsirət əhlini gör kim, bu sirrin olmuş heyrani.

Biliksiz olduğuna e'tiraf et, alim olsan da
Ki, nadandır demişlər görcəyin məğrur danani.

Riyakarlıq gətirsə zöhdi təqlid etmə, qıl nifrət,
Təkəbbür artırarsa elm, yeydir məncə nisyani.

Deyil Allah üçün zahid edirsə məscidi tə'mir,
Təşəxxüs satmağa istər işə salsın o dükkani.

Çevirsə barmağı təsbih, aldanma, riya bil sən,
Sayır görsün çatırmı almağa dünyani, imani.

Əgər peymanəsi dolsa həmişə meylə bir rindin,
O, şeyxdən yaxşıdır ki, xaliq ilə süsdü peymani.

Əgər bir kəs vurarsa elmdən dəm, bil ki, cahildir,
O hardan anlayır hikmətdəki əsrari-pünhani?

Elə gizlənməmişdir ki, həqiqət sirri gözlərdən
Ki, açsın hikmət əhli əql üzündən bu müəmmani.

Güman etmə ki, hikmətdən xəbərdar idi Əflatun,
Həqiqət elmdən agah alim sanma Loğmani.

Yaranmış sə'd ilə, ya nəhs ilə hər şəkl fitrətdə,
Çətindir uğrasın təğyirə dövr etməklə dövrani.

Cəhalətdir səbəb rəmmal hər yerdə məkan salsa,
Bütün işlərdə hakim zənn edər ənkisü Ləhyani.

Münəccim əqlinin naqisliyindən iddia eylər
Ki, hər işdə müqəssir tutmalı Bərcisü Keyvani.

Gözəl, ya çirkin olsun hikmətin hər hökmü baqidir,
Xələl yetməz ona çərxin yerindən qopsa ərkani.

Həris axmaqlığından zənn edər tənbəl həris olmuş,
Və ya öz sə'yi sərvət sahibi etmiş çalışqani.

Təbib nadanlığından iddia eylər ki, hər dərdə
Səbəb pəhrizi pozmaqdır, bilər pəhrizi dərmani.

Gözü doymaz hərisin dəhrdə, çünki həris insan
Olarsa şahi-Iran, tutmaq istər mülki-Turani.

Tamahla odlanan bir qəlbin heç vaxt atəşi sönməz,
Qızıldan ötrü şiddət kəsb edər hər ləhzə böhrani.

Cahan asayişi təkmilinə bir kəsdə yox qüdrət,
Odur sonsuz yola salmış tamah aləmdə insani.

O kəs ki, arzular xəlqin malından hər saat, hər gün
Bəzəkli süfrədə olsun kəbabi, həm də büryani,

Onun qəlbi yanarmı zülmdən büryan olan qəlbə,
O rəhm eylərmi görsə xəlq udur qəmdən cigər qani.

Olarsa şah zalim, xəlq xoş gün görməz aləmdə,
Xilas olmaz bəladən bir qoyun, qurd olsa çobani.

Sənin xeyrin üçün kəndli ağac əkmişdir, ey hakim,
Kəsib təxt qurma ondan, eyləmə mə'yus dehqani.

Ləbi qəlbindəki daği sağaldan bir güləndamın,
Ləbini dişləmə, ey bimürüvvət, olma gəl cani.

Nə lazımdır sənə bir təxt kim, qayıq kimi axsın
O göz yaşı selində kim, tökər məzlum müjgani.

Şərik tək pay alırsan kəndlinin daim qazancından,
Sənin borcundur olmaq kəndli malının nigəhbani.

Onun malı talandıqda cərimə çəkməli sənsən,
Cərimə kim çəkər, indi ki, sən etdin bu talani?

Kim istər şahlara olsun yaxın, mətləb gülü dərsin,
Görər yolda tikan düzmüş çomaqdan şah dərbani.

Xəzinə tapmaq ümmidilə bir insan rəvadırmı,
Zəhərli əjdəhalar çənginə salsın şirin cani?

Gədani gözləyərsə təhlükə şahlar hüzurunda,
Gərək tövbə edib, nə şahi görsün o, nə dərbani.

Gəda öpsün gərək hacıblərin hər gün çomağından
Ki, hifz etmiş bəladən, mən' qılmış qürbi-sultani.

Belə bir qayda var, insan qaçar divlər məkanından,
Demək insan deyil onlar ki, məskən etdi divani.

Deyilsən şahların halından agah, dərk qılmazsan
Ki, şah xəlqi soyar, ancaq verər ə'yanə ehsani.

Zərurət qarşısında verdiyi ehsan səxavətmi?
Məgər şah xeyrinə xəlqi çalıb çapmazmı ə'yani?

Səxavət əhlidir ancaq o kəslər ki, riya bilməz
Görər bir gözlə ehsan süfrəsində dostla düşmani.

Qızıldandır, gümüşdəndir kərimin atdığı hər ox,
Sağaldar yarəsini düşmənin dəydikdə peykani.

Fəqirin olsa idraki, bu sadə əmri dərk etsə
Ki, ta sağdır, ona ruzi verər tə'yidi-sübhani.

Nədən ötrü gərək fəğfur ilə xaqanə baş əysin?
Nədən ötrü gərək tə'rif etsin Keylə Kəsrani?

Xudadən qeyrinə könlün evində vermə yer, zinhar,
Əmini-Kə'bədən bütxanə gəl etmə o mə'vani.

Varınsa əql, özün tək qafili mürşid qəbul etmə,
Büt anlarmı gətirmişdir ona iman röhbani.

Sədaqətlə yapışma damənindən ol kəsin, ey dost
Ki, qalmışdır təəllüq pəncəsində öz giribani.

Çıxarsa qarşına hər şey onu iynə kimi deş, keç
Ki, iynə saxlamış yoldan göyə qalxan Məsihani.

Bir arif aləmə nifrət edərsə, var yeri, çünki
Onun hümmət səməndinə gəlir dar dəhr meydani.

Bu alçaq ruzigarə bağlanarmı bir dilavər ki,
Vurar doqquz fələk fövqündə idrak ilə cövlani.

Əsasi qəflət olmuşdur həyatın, yoxsa kim istər
Bina tiksin, fələk yıxsın, aparsın sellər eyvani?

Tikər eyvanı Kəsra, qaldırar Keyvanə, bilməz ki,
Onun hər kərpici təmsil edər bir başqa Kəsrani.

Könül vermə cahanə, varlığı təşvişdir canə,
Zəvali bağrı qan eylər, qılar mə'yus insani.

Çəkil, üzlətdə yer tut, kimsəsiz qaldıqda bir insan,
Mələklər qorxulu gündə olar ənsarü ə'vani.

Fəna bir mülkdür, asudədir xəlqi hər afətdən,
Xilas olmaq dilərsən fitnədən, gəl fani ol, fani.

O kəslər ki, yeməz dünya qəmi, qorxmaz qiyamətdən,
Siratin dərdini çəkməz, düşünməz və'zi-mizani.

Malın varsa, onu sərf et, əgər sən kamil insansan,
Çatarsan bil kəmalə sərvətin tapdıqda nöqsani.

Deyilsən kəm qəmərdən, keç özündən, vəsli-canandır
Ki, ay incəlmək ilə tez tapar xurşidi-tabani.

Fəqir olsan da şad ol, şam kimi gül, odda yansan da,
Ki, odla canlanan şəm'in alovdur abi-heyvani.

Ölüm haqdırsa öl üsrətdə, ne'mət dərdinə qalma,
Ölüm üsrətdən azad olmağı ne'mət kimi tani.

Olan bir dərdə adətkərdə dərman dərdinə qalmaz,
Dəyişməz bir cəhənnəm maliki rizvanə niyrani.

Behişti hər kəsin bir zövqdür, körpə uşaqlarçün
Ana ağuşu cənnətdir, bal arxı dayə püstani.

Kəmali-eşqdən dəm vurmağa ol kimsə layiqdir
Ki, cananın qəminə nəzr edib qurban edə cani.

Deyil canana aşiq, mütləq öz caninə aşiqdir
O aşiqlər ki, can dərdindən istər vəsli-canani.

Ayırsın yaxşını pisdən bəni-adəm – deyə xaliq
Nəsihətnamə şəklində bizə göndərdi füqrani.

Fəqət tutsun deyə üstün dəvadən xəlq bu dərdi,
Ələm hərfilə hikmət katibi yazdı bu ünvani.

Qəmi olmazsa, heç vəqt xaliqi yad eyləməz bir kəs,
Kim Allahi sevər, istər ki, qəmlə keçsin hər ani,

Varın artanda kibr ilə fəqirə az şəmadət qıl,
Onunla tez səni yeksan edər bu çərx dövrani.

Gözündən yaş axıt kim, hər muradın cabəca olsun,
Yağış feyzilə torpaq bəsləyər sünbüllə reyhani.

Tədarük gər o dünyayə, bu dünyada ki, xoş keçməz
Qışı ol kəslərin ki, yayda yad etməz zimistani.

Zəmanə əhlinə bel bağlama hüsni-cəmalınla
Ki, Yusif hüsnünə qıldı həsəd namərd ixvani.

Güvənmə qüvvənə, laqeyd baxma məkri-dünyayə
Ki, salmışdır tora yüz Rüstəmi bir Zal dastani.

Əgər aqilsən olma hiyləsindən düşmənin qafil,
Unutma Adəmi yoldan çıxardan məkri-şeytani.

Düşün, hər danəsi bir zərrə əlvan torpaq olmuşdur,
Bu şahlar tacinə ziynət verən lə’li-Bədəxşani.

Zəmanə şahların başına tədriclə səpər torpaq,
Uşaq tək aldanar onlar görüncə şəkli-əlvani.

Fələk tərsinə dövr etsə, sən olma əmrinə mayil,
Qonaqçın olsa qatil, qaç evindən, olma mehmani.

Başında şur vardırsa, onu hər zövqlə pozma,
Ucuz bir qiymətə vermə əlindən gənci-sultani.

Ürəkdə vermə yer dərdinə hər bir lalərüxsarin,
Saqın, hər zülfü ənbər dilbərin olma pərişani.

Şoranlıq torpağa səpmə səfa toxmu, olar zaye,
Samanda ətr axtarma, gülə oxşatma yovşani.

Sənin tək çoxları dəm vurdular eşqü məhəbbətdən,
Dəyişcək surət, oldu eşqinin cümlə peşimani.

Şirin hər vəslin ardınca acı bir ayrılıq vardır,
O vəsli istəməz bir kəs düşünsə dərdi-hicrani.

Fəqih Allaha doğru axtarır yol masəvəllahdan,
Əcəb naqisdir onlar ki, bilər mürşüd o nadani.

Tapar həqq axtaranlar həqqi fir'onun cəlalından,
Bu işdə mö'cüzə vadar edər fir'on Musani.

Əgər bir kəs xudanın varlığına istəyir isbat,
Bütün varlıqdır Allah varlığının əsl bürhani.

Rəhimdən başlamış əqlə dolunca hər bir insanın
Yetər ruzisi Həqdən lazım olmaz sə'yi tavani.

Vurarkən əqldən dəm, o qədər əqli olar naqis,
Sanar ki, sə'yinin məhsulu olmuşdur əti, qani.

Nədən bilməm təkəbbürlə özündən dəm vurar Nəmrud
Ki, yox bir milçəyin şərrini dəf etməkçün imkani.

Xudadən qeyri acizdir hamı, fərz et, Süleymandan,
O torpaq uddu kim, daim ona cariydi-fərmani.

Əgər bir şəxs insandır, yetər qorxsa bir Allahdan,
Əgər divdirsə qorxmaz toplasan da yüz Süleymani.

Fəsadi-küfrdə görmüş səlahi sahibi-hikmət,
Onunçun yoxsa hər bir batilin asandı bütlani.

Gül istər bəsləsin dehqan, onu hifz etmək istərkən
Tikan divarla hər yandan gərək hörsün gülüstani.

Zəmanə zalimi zalim əlilə məhv edər bil kim,
Düyümlü taxtanı həmvar edər nəccar suhani.

Çox iman küfrə mədyundur, bu həqdə Yusifi yad et
Ki, büt qaytardı pis yoldan onu, dəf etdi üsyani.

Sən ey Allahın əmrinə itaət etməyən qafil,
Sənə layiq deyil, fərq et onu firdövsü rizvani.

Çalış olma o əndazə cəhənnəmdə üzü qarə
Ki, nifrət eyləsin səndən cəhənnəm qiri, qətrani.

Soyarkən kafəri hər dəm deyərsən ki, həlal işdir,
Sözün indi nədir bəs kim, soyursan hər müsəlmani.

Bu dünya dalğalı dəryadır, ondan bir kiçik qətrə
Göründü Nuh dövründə, dedilər Nuh tufani.

Boğulmaq qorxusundan bu dənizdə hər bir avarə,
Atar əl-qol, üzər, lakin keçə bilməz bu dəryani.

Muradə çatsın aşiq, qoy cahan ziri-zəbər olsun,
Boğulmaq bilməz ördək, dalğa qoy titrətsin ümmani.

Deyil mümkün ola mə’yus bir kəs xaliq əffindən,
Deyilsənsə yalançı, naümid olma, onu tani.

Əgər həqq feyzinə müqbil ola qabil, ümidim var
Ki, müdbirdə dəxi zahir olar asari-ğüfrani.

Xuda gər əcr versə, hər kəsə əmali qədrincə,
Behiştdə görməz heç bir kəs nə hurini, nə qılmani.

Əgər bir səhv üçün məhrum olarsa xəlq cənnətdən,
Behişt əhli bilək onda gərək biz təkcə Rizvani.

Çalış xəlqə xeyir ver, xoş sifətlərlə qazan hörmət,
Arı bal vermək ilə əldə etmiş şöhrəti, şani.

Bəzərsən cismini bica yerə əlvan libas ilə,
Gəlibsən lüt cəhanə, lüt edərsən tərk dünyani.

Muradın hər iki dünyadə səbr ilə olar hasil,
Çalış səbr eylə, tə’min eylə dünyani, həm üqbani.

Iki dünya işi öhdəndədir, sən isə acizsən,
Qəribə bir işə düşdün, çətindir məncə səhmani.

Məgər Peyğəmbərin pak ruhu lütfən dadına çatsın,
Iki dünyada tapsın hər çətinlik rahi-asani.

Nəbidir, haşimidir, əbtəhi, ümmi və məkkidir,
Əli din xəznəsinə bir açardır, mərhəmət kani.

Yüz Ibrahim olubdur qəndili şəm'inə pərvanə,
Üzü bir eydi-əkbərdir, yüz Ismayil qurbani.

Süleyman mülkünün son sahibidir xacəyi-Səlman,
Onun Səlmaninə xidmətçi bilmişlər Süleymani.

Deyil Musa ona tay, Vadeyi-eymənsə Bədhayə,
Nə Yusifdir onun misli, nə Kə'bə misli-Kən'ani.

Xudaya, şükr, asayişdən ötrü bir bina tikdim,
Ki, səbrü elmü hilmin mayəsindən oldu bünyani.

Bu qəsri tikmədim tək mən, əsasın qoydu üç kamil,
Tanıtdı aləmə Şirvani, Dehlini, Xorasani.

Evin üç küncünü Xaqani, Xosrov, Cami tikmişdi,
Mən isə eylədim Bağdaddə təkmil ərkani.

Füzuli kamiyab olmazdı öz sə'yilə bu işdə,
Yaratdı onların ruhu onunçün böylə imkani.

Ilahi, rəhm qıl avarə bir insanə aləmdə
Ki, ömrünü edib zaye, yazar bu hərzə-hədyani.

Xeyr, hədyan deyil, aləm bilir qiymətlidir şe'rim,
Odur dərya olan bu qəlbimin dürr ilə mərcani.

Ilahi, könlümə hər elmdən pay ver, bilirsən ki,
"Mənim könlüm müəllimdir, mənəm tifli-dəbistani"*.

---

* Bu misra Xaqaninin "Qəsideyi-şiniyyə"sində ilk misradır.

Çıxardı təb'i kanindən polad bir nəzm Xaqani,
Səfa ayinəsində aləmə göstərdi Şirvani.

Ona Xosrov ziya verdi, Xorasanə rəvan etdi,
Gəzib əldən-ələ xeyli zaman Dehliylə Məltani.

Cila verdi ona Cami, alıb göndərdi Bağdadə,
Bu töhfə şad qıldı xadimani-Şahi-mərdani.

Mənim kor tə'bim ondan bixəbərdi bir zaman, əmma
Mən ariflər əlindən qapdım ol yaquti-rəxşani.

Mənim nəzmimlə ol ayinə bir ziynət qazanmış kim,
Baxan olmuş camalında kəmali-hüsnün heyrani.

"Ənis ül-qəlb" adı verdim o məhbubə, budur arzum
Ki, olsun mə'rifət əhli olan məclisdə cövlani.

Yetər bunca cəmali gizli qaldı pərdə altında,
Qoy olsun indi də ariflərin şəm'i-şəbistani.

Onu Iran zəmindən Darül-ədli-Rumə göndərdim
Bu ümmid ilə kim, olsun əmin əllər nigəhbani.

Ona tə'sir qılsın dövləti Sultan Süleymanın
Ki, ta fəth eyləsin öz şöhrətilə külli-dünyani.

# Ərəbcə qəsidələr

Etməmişdir zövqümün şəhdini aludə həva,
Arizu etməz könül şə'nim ucalsın bir daha.

Hər kədər yetdi, könül min şövq ilə etdi qəbul,
Keçdi ömrüm qəmdə, oldu qismətim dərdü bəla.

Səbr möhnətdən ağırdır, mən çox etdim imtahan,
Artdı dərdim, möhnətim, etdikcə səbrə iltica.

Xilqətim xəlqin rizasını qəbul etmiş mənim,
Vay o kəsdən kim, həyatında işi olmuş riya.

Xeyrxah insanlara verməz həsəd əhli aman,
Yağdırar tə'nə oxu xeyr işlərə, qılmaz həya.

Istərəm pünhan olam gözdən, məzəmmət etməyin,
Dəhrdə darül-əmandır, təkcə künci-inziva.

Mən həyasızlar əlindən qaçdım üzlət mülkünə,
Bu alınmaz qəl'əni onlar mənə etmiş əta.

E'tibar əhlinə tə'nə dərd olur, təhqir olur,
Tə'nəyə tab eyləyən kəslər gərək rüsvay ola.

E'tibarı at, qəbul et dəhrdə rüsvaylığı,
E'tibar insanları min dərdə eylər mübtəla,

Hər acı möhnət mənim bir sağəri-səhba kimi,
Könlümə ləzzət verər, həm ruhuma zövqü səfa.

Əql üzündən vadiyi-heyrətdə sərgərdan ikən
Eşq çatdı dadimə, oldu mənə bir rəhnüma.

Bir qədəh içdikdə eşqin saf meyindən, anladım
Mən kiməm, hansı məqamə layiqəm bu dəhr ara.

Zayil oldu lövhəsindən qəlbimin qəm izləri,
Yetdi şadlıq dəmləri, oldu qəmin hali fəna.

Aşiq oldum qaməti sərvi-rəvan bir dilbərə,
Göydəki aydan gözəldir sevdiyim ol məhliqa.

Qəlbimin mülkündə eşqi bir ulu sultan olub,
Başqa bir hissə könüldə qalmamışdır yer daha.

Əks edib hüsnün kəmali ay cəmalında onun,
Bu məqamin sahibi yox hüsndə səndən səva.

Sən'ətimlə xəlq olunmuş eşqimin ülviyyəti,
Şövq ilə, vəcd ilə hər bir qəlb mədyundur ona.

Cilvəgər oldu cəmali, nuri tə'sir etdi kim,
Eşqi məskən tutdu qəlbimdə, gözüm tapdı ziya.

Alnı hüsnün mülkünün təxtində tutmuşdur qərar,
Qaşları dərban olubdur ol böyük şahənşaha.

Qaşları mehrabə oxşar, qarşısında diz çöküb
Məqsədə çatmaq ümidilə hamı eylər dua.

Səf çəkib kirpikləri, sanki müəzzin səsləmiş,
Hüsnünə səcdə üçün qalxın namaza bir daha.

Mən "təşəhhüd" söyləyirkən, bu qara barmaqlarım
Xətt kimi bir sayə salmış səfheyi-rüxsarına.

Hüsnünün vəsfində insanlar elə aciz qalıb
Kim, zəka əhli onun təhqiqini gərmüş rəva.

Söyləyər bə'ziləri: xalilə o, şöhrət tapıb,
Xal ilə aşiqləri məftun edib rüxsarına.

Başqası söylər: çəkərkən hüsnünün təsvirini,
Xətt gözəl düşsün deyə, ol nöqtəni qoymuş qəza.

Qəddi ruhin bağçasında ətrli bir şaxədir,
Göz yaşilə aşiqin daim tapar nəşvü nəma.

Başinə döndüm onun ömrüm boyu pərvanə tək,
Hasili oldu fəqət bu sə'yimin cövrü cəfa.

Qaməti-mövzununa könlüm vuruldu, bilmədi
Kim, o nəxlin meyvəsini nəhy qılmışdır xuda.

Kim onun gül cismini oxşatsa ruhə, səhv edir,
Kim belə təşbihə yol versə olar əhli-xəta.

Fikrini görmək olardı saf qəlbində, əgər
Olmasaydı cisminə pərdə kimi hayil qəba.

Bu lətafət kim, onun cismində var, idrak ilə
Bir nəzər sal, hisslərdən qüvvələr olmuş cüda.

Vəhmlə saldım nəzər, gördüm lətafətdə onun
Paltar altında bərabərdir vücudi yoxluğa.

Paltarı altında cismi incəlikdən qeyb olub,
Sanki bir qətrə sudur, çökmüş yağışdan torpağa.

Nail olmaq vəslinə əl çatmayan bir qayədir,
Vəslinə talib olanlar dərdə olmuş aşina.

Hər qədər əhli-vəfa var, hüsnünə olmuş əsir,
Bir əsirə meyl qılmaz, ehtiyacı yox ona.

Gəl məni öldür!– dedim, susdu, sevindim, çünki mən
Bu sükutunda onun dərk eylədim rəmzi-riza,

Qəlbimə bir cür'ə damdı saf suyundan eşqinin,
Yə'simi ümmidə təbdil eylədi ol kimiya.

Nə nəsihət dinlədi könlüm, nə söz etdi qəbul,
Mane oldum, baxmadı, şurə gəlib etdi nəva.

Istəməz qəlbim kədərdən, qüssədən olsun xilas,
Hər qədər çox olsa da, dərdilə etməz iktifa.

Ol qədər düşmüş zəif qəlbim ki, incə fikr ilə,
Yoxluğundan varlığı təcrid edilməz mütləqa.

Rədd qıldı hər öyüd verdimsə, düşdüm heyrətə,
Mən susarkən ağladı, qəm şö'lə saldı canıma.

İstiqamətdən uzaqdır məndəki həssas ürək,
Səbr ilə, təşviş ilə olmuş bəlayə mübtəla.

Olsa hər kəs mübtəla aləmdə hicran dərdinə,
Çox çətindir çarəsi, vəsli-ruxi-yar olmasa.

Sevgilimdən ayrı düşdükdə qəmim tüğyan edər,
Vəslinə talib olarkən can olur təndən cüda.

Iczimə tədbiri-dərmanımda, etdim e'tiraf,
Vəsli də, hicranı da tə'sir qılmaz halına.

Hər təbibə dərdimi açdım, mənə verdi cəvab:
Bir elə dərdə düşübsən kim, ona yoxdur dəva.

Bəlkə Allah lütf edə, sən tək günahkar bəndənin
Dərdinə öz iltifatilə edə dərman əta.

Ol rəhimin əfvidir hər bir günahı məhv edən,
Hər ağır dərdə onun əfvində sən axtar şəfa.

Ol kərəmi-mültəqin vacib olubdur bizlərə,
Fəzlinə həmdü səna vird eyləyək sübhü məsa.

Hikməti elmi-kəmalın həddini aşmış onun,
Hansı dil qadirdir etsin vəsfini sözdə əda?

Vəslinə müştaq olan bimar olur, dilbərlərin
Vəslilə hicranda aşiqlər duyar xovfü rica.

Qəlbi hüsnə müştəri olmuş bütün aşiqlərin,
Vasitə olsun bu sevdadə gərək əhdü vəfa.

Hər bəlayə aşiqin təb'i, şüuru meyl edər,
Ol səbəbdən hüsni-bazari qızışmışdır daha.

Barilahi, meylimi artır mənim dilbərlərə,
Qeydi-təqvadən məni lütfünlə sən eylə rəha.

Qəlbimin amalı tək mə'şuqimin didaridir,
Qoy məni aləmdə məşhur eyləsin bu macəra.

Ol qədər düşmən kəsilmiş kim, həsəd əhli mənə,
Eşqimi nöqsan sayıb, haqqımda söylər iftira.

Surəti-halimdə görsən də cünundan bir əsər,
Qəlbimə ziynət verər ancaq mənim sidqü səfa.

Fəzlim ilə mən bütün dünyada şöhrət tapmışam,
Heç füzulluq bilmərəm adım Füzuli olsa da.

Əhli-şərrin iftirasından məni eylə xilas,
Barilahi, sən bihəqqi-əhli-beyti-Mustəfa.

Sən cəmal əhlində qıldın aşikar öz hüsnünü,
Tapdı təqva əhlinin çeşmi gözəllərdən ziya.

Kim fəsad ilə qıyas eylər gözəllər eşqini,
Xoşdurur böylə fəsad üçün verilsə hər cəza.

Mən gözəl surət görəndə şövq üzündən hər zaman,
Söylərəm: səlli əla bər itrəti-Ali-əba.

* * *

O dəm yetişdi ki, hər ləhzə möhnətim artar,
Könül də istər olam möhnətə, bəlayə düçar.

Müsibət aşiqiyəm, tərk qılsa dərd məni,
Bəlalı canıma bu ən böyük bəla sayılar.

Mənim ki, qədrimi tə'yin edər bəla qədəri,
Bəla nə qədrsə, olmuş məqamın ol miqdar.

Bəlasız heç kəsə xoşbəxtlik nəsib olmaz,
Səadət axtaran hər kəs bəlayə talib olar.

Bəla nə qədr hücum etsə, olmaram dilgir,
Məqamı yüksək olar kim bəlanı etsə şüar.

Zəmanə cövrünə dözdüm ki, məqsədə yetişim,
Dözər rəqib cəfasinə axtaran dildar.

Muradə yetməz o kəslər ki, şövqi naqisdir,
Səlah şövqdədir, düşmə şövqdən, zinhar.

Qürur ulduzuna vermə yol qürub etsin,
Əyilmə düşmənə, bir möhnətin olarsa həzar.

Şərəf dilərsən əgər, əhli-fəqrə ol həmdəm
Ki, hər kəs öz şərəfin fəqr ilə edər izhar.

Həzər qıl eşqdən aləmdə, qaç məlamətdən,
Məlamətə dözə aşiq olan gərək naçar.

Zəmanə eyb tutar arifin əməllərinə,
Fəzilət əhli deyə, cahilə, edər israr,

Bu rəsmdir ki, durar nəhs sə’ddən ucada,
Bu rəsmə vəz’i-kəvakib də eyləyir iqrar.

Rəzil öndə gedərsə, əziz qalar geridə,
Yalançı sübh həqiqi səhərdən ön açılar.

Bu qaydadır ki, qaranlıq zəfər çalar işığa,
Necə ki, sayə salar məh cəbinə türreyi-tar.

Hər arzu maneələr arxasında pünhandır,
Necə ki, pərdədədir sevdiyin o gülrüxsar.

Həris olan bu cahan mülkünə əyilməlidir,
Hesab vaxtı bölər tamı kəsrə dəftərdar.

Xeyirlə şər əməlin fərqinə əgər varsan,
Bu imtiyaz ilə başın fələklərə ucalar.

Bu fani aləmə bel bağlama, cahandan keç
Ki, fani şeydən ümid gözləməz olan huşyar.

Mənim fəlakətimə sə’y edərsə düşmən əgər,
Onu zəlil edəcək tezlik ilə bu ruzgar.

Necə deyim ki, mənə ruzigar düşməndir?
Onun əlilə olub düşmənim fələkzədə, xar.

Rəzillərin əməlindən xeyir çox axtardım,
Yəqinim oldu ki, sə'yim bir əmrdir, düşvar.

Oyundur aləmin hər bir işi, yəqin etdim,
Bir eşqdir ki, onun varlığında mə'na var.

Məhəbbət ilə yaşar mə'rifətli insanlar,
Könüldə hasil olar hüsni-eşqdən ənvar.

Məhəbbət hər qəmə, hər möhnətə gələr qalib,
Sevənlərin ürəyində nə dərd olar, nə qubar.

Məqamı hər kəsin eşq ilə çün olur tə'yin,
Eyibdir hər kəs üçün eşqi eyləmək inkar.

Mənəm ki, heyrətə saldım cahanı eşqim ilə,
Içincə bəzmi-məhəbbətdə sağəri-sərşar.

Hədər yerə mənə tə'n etməyin, deyil mümkün
Hörümçəyin toru olsun şərari-eşqə hasar.

Deyirlər əzmli ol, əqlə iqtida eylə,
Ağıl da eşqə olub bəndeyi-itaətkar.

Murad yollarıma zə'fdən çəkilmiş sədd,
Bu sədd içində mənəm, sanki nöqteyi-pərgar.

Vücudim incələrək göz yaşımda məhv olmuş,
Fəna mən aşiqin olmuş həyatinə me'yar.

Varam, dəlalət edər zə'fi-cism yoxluğuma,
Yoxam, dəlalət edər varlığıma naleyi-zar.

Dəmi-fəraqdə bikəsliyim mənə munis,
Kədər dəmində mənə vəhşətim olub qəmxar.

Yanarkən halimə biganələr, nədir səbəbi,
Bu hali-zari görən dostlarım olub bizar?

Məzəmmət ilə mənə eşqi tutmayın irad
Ki, aşiqin hər işində böyük fəzilət var.

Hücum edər mənə hər səmtdən qəmü qüssə,
Sıxar məni köməyinə sığındığım əşrar.

Yoxumdur özgə pənahım, xilas üçün qəmdən
Ümid o padişəhə bəsləyir dili-bimar.

O padişah ki, onun qüdrətinə yox miqyas,
Bütün bu aləmi xəlq eyləmiş o, sən'ətkar.

Onun iradəsi hər şeydə aşikar olmuş,
Kim ondan özgəsinə göz dikərsə, yoldan azar.

Qəribəliklər onun hikmətilə xəlq edilib,
Odur bədayei-xilqətdə mənbəi-əsrar.

Bu əqlü hüsn, bu qüvvət ki, bizdə vardır, onun
Kəramətü hünərindəndürür birər asar.

O, mübhəm elmlərin cümləsinə vaqifdir,
O, əqlə, ruhə olub qüdrətilə ayinədar.

O, eşq zövqünü qılmış könüllərə ehsan,
Bu zövqü anlamayanlar deyil yəqin bidar.

İlahi, könlümüzü hüsn eşqi cəzb etmiş
Ki, sün'i-həqdən olub bir nişanə hüsni-nigar.

Könülləri sən edibsən gözəlliyə mayil,
Bu meyli bizlərə çox görmə, qadiri-qəhhar.

İlahi, eşqə məni mübtəla edən sənsən,
Odur ki, qoymadı könlümdə eşq səbrü qərar.

Düşüncə eşq oduna aləmi unutdum mən,
Bu od mənə kərəmindən sayıldı bir gülzar.

Könül qiyamət əzabından eyləməz pərva,
Ümidi tək sənədir, ey xudayi-leylü nəhar,

Mənim bu cismimə, bu qəlbimə tərəhhüm qıl,
Düşüncə yadıma məhşər günü saçım ağarar.

İlahi, qəlbim olub qorxu atəşində kəbab,
Bağışla cürmümü, ol mən fəqirə lütflə yar.

Füzuli, oldu sənə yar həqq tovfiqi,
O qoymadı yetirə düşmənin sənə azar.

Bizi hidayət edər düz yola rəsuli-xuda,
Edək səlamimizi biz Məhəmmədə iysar.

* * *

Hüsnünə ol sərvərin eşqimi artır, ey xuda,
Rəbbəna, səlli əla övladi-xətmül-ənbiya.

Müshəfi-rüxsari içrə onun bir ayədir,
Sən onunla şadlığı hər qəlbə etmişsən əta.

Bədrdə yoxdur cəmalində olan nuri-kəmal,
Hüsndə etmiş kəmalinə cəmali iqtida.

Bir baxışda aşiqin başdan aparmış əqlini,
Qəddi, xətti, xali etmiş xəlqi dərdə mübtəla.

Qaməti-mövzunini gördükdə vəhm aciz qalıb,
Tapmayıb təşbih üçün söz, vəsfini qılsın əda.

Hüsnü bayram şənliyi bəxş eyləmiş aşiqlərə,
Surəti bayramdır, olmuş qaşı bir aypara.

Bizlərə hüsni-məqali oldu bayram xütbəsi,
Könlümüz hüsni-cəmalından tapar zövqü səfa.

Həm cənubə, həm şimalə sayə salmış qaməti,
Bir belə sərvi-rəvan yoxdur bu gün gülşən ara.

Kim itaətdən çıxıb, yoldan azıbsa bir zaman,
Düz yola dönsün gərək, tə’xir ona olmaz rəva.

Qəlbini bir qəmzə ilə ovlamış aşiqlərin,
Ol nigarın sən’əti qəlb ovlamaqdır daima.

Lütfüdür ancaq səbəb, artar rəqibi hər zaman,
Hüsni-rəftari səbəbdir, olmuşam məftun ona.

Hər zaman aşiqlərindən qorxaram üz döndərər,
Məncə bu təsdiq edər kim, onda var sonsuz həya.

Başına illər boyu dönmüş günəş, əl tapmamış
Bir ayağından öpüb, aləmdə çatsın kamına.

Ey səxavətdə olan Cudi dağı, feyzinlə sən
Lütfünü şamil qılıbsan hər zaman əhbabına.

Ey mənim qeyb afitabim, qəbrdən baş qaldırıb,
Istəyirlər sayənə düşmənlər etsin iltica.

Könlüm istər səcdə etsin ay üzündə atəşə,
Ox kimi kirpiklərin çəkmiş çəpər ruxsarına.

Qəlbimi atəşpərəst bilmiş məgər kirpiklərin,
Səf çəkib əsgər kimi, etmiş cəhad e’lan ona.

Bəs ki qan tökmüş, onun qana boyanmış əlləri,
Rəsmdir sərvət üçün hiylə qurarlar əğniya.

Vəslinin ümmidi qəlbimdə uzaq bir arzudur,
Aşiqə məncə təsəllidir belə bir arzu da.

Çatmağı guyi-vüsalinə mənə etmiş həram,
Leyk bilmişdir həlal etsin mənə hər an cəfa.

Üç üsuli eşq qanunundan əzbər etmişəm,
Bunlar ilə eylərəm mən həqqi batildə cüda.

Sevgisi aşiqlərə qəmdən, kədərdən pay verər,
Sanki öz övladına təqsim edər ruzi ata.

Çırpınan hər qəlbə min cövrü cəfa vəqf eyləmiş,
Hər könül kim, valeh olmuşdur ona, çəkmiş bəla.

Bir bərabərlik yaranmış qismətində onların,
Hər şərik öz qismətiçin eyləyir şükrü səna.

Əmrinə mümkünmü ol şahin itaət etməyim?
Istəsə can, hər qədəmdə eylərəm cani fəda.

Mən necə ol hakimin rə'yinə tabe olmayım
Kim, onun qəlbi kədərlənsə tutar matəm həva!

Qamətilə, həşmətü dərrakəsindən aldığım
Qaf, ha, dal hərflərinə and ola, peyman ola

Kim, onun eşqi mənim könlümdə salmışdır məkan,
Qəlbimə, həm canıma təkcə odur fərmanrəva.

Ruhum ardınca sürünməkdən yorulmaz heç zaman,
Qorxusundan qəlbimi titrətmə tutmuş daima.

Eşqinin zəncirinə bağlandı, qaldı gəncliyim,
Bu ağır zəncirdən can istəməz olsun rəha.

Eşqdə sabitqədəm olmuş könül, sə'y eyləməz
Həlledilməz işdə bir tədbirə qılsan iltica.

Iştiyaqında oda atdım, əritdim ruhumu,
Iztirabında yanar qəlbim, nicat etməz rica.

Istərəm əhli-məzəmmət söyləsin: – Bu aşiqin
Rütbəsi eşq aləmində olmuş hər kəsdən uca.

Bu odur kim, axtarırdı eşqdə ülviyyəti,
Indi çatmışdır muradə, mətləbi olmuş rəva.

Ey qərəz əhli, məlamət etməyin aşiqləri,
Eşqdə tapmış məhəbbət əhli hüsni-müddəa.

Yandırar pis fikri qəlb içrə məhəbbət atəşi,
Eşq olan bir yerdə heç mümkünmüdür pislik qala.

Bəndeyi-eşqə sayılmaz çəkdiyi möhnət, əzab,
Şövqi-didarində var eşqin böyük zövqü səfa.

Vermə yol, yetsin Füzulidə olan eşqə zəval,
Mehrini artır onun, ey xaliqi-ərzü səma.

Aç üzünə xəzinəsini himmətin, imdad qıl,
Aç dilini, incəlik bəxş et onun göftarına.

Bir ağanın xatirinə kim, bəlağət kanidir,
Həm cəlali, həm cəmali, həm kəmalidir uca.

Bir ağa kim, həm kərimdir, həm kəramət mənbəyi,
Bir ağa kim, haqqin əmrinə olubdur rəhnüma.

Bir ağa kim, sözlərində əks edir qanuni-həqq,
Şər'i-həqq tutmuş onun əhkami üstündə bina.

Yüksələrkən göylərə həqqin özü nazil edib,
Vəhyini hər nüktənin həllində istiqbalına.

Yüksələr vəsvü sənasindən məqamü qədrimiz,
Min səlam olsun ona, övladına sübhü məsa!

* * *

Əritdi cismimi möhnət, nəsibim oldu fəna,
Zəfər qazandı məhəbbət, çoxaldı dərdü bəla.

Dedim ki, əql məni qurtarar bu möhnətdən,
Tutuşdu eşq oduna yandı, zail oldu o da.

Könül ki, talibi-dərdü qəmü-məhəbbətdir,
Çətin ki, onda nəsihət əsər edə peyda.

Səbati-eşqimə yetməz xələl məlamətdən
Ki, dərdü qəmlə olar aşiqin məqami uca.

Səlam ola o mübarək cəmalə kim, hər an
Məhəbbət aləminin bədridir o mahliqa.

Bütün könüllər olub sərv qəddinə mail,
Qərar cahani, qoparsa bir anlığa qovğa.

Sən, ey məhəbbəti könlümdə rişələr atmış,
Səbatı ilə edən qəlbimi qərini-səfa.

Mənim yeganə muradım sən oldun aləmdə,
Könül bir özgəsinə meyl eyləməz əsla.

Cahanda başqasına salmaram məhəbbətimi,
Sənə bu ruh, bu canımla, bu mülkü mal fəda.

Əlim yəqin çatacaqdır vüsal damənin ə
Ki, səndən hissü əlaqəm deyil bir an da cida.

Səni sevənlər içində bərabərim yoxdur,
Səninsə hüsndə yox mislin, ey mələksima.

Sənə cahanda verilmiş məlahət ilə camal,
Təbiətinlə yarandın yeganə, müstəsna.

Sənin məhəbbətin ilə könül gələr şövqə,
Adındır əzbər olubdur dilimdə sübhü məsa.

Bu eşq tazələnər, daima coşub artar,
Həqiqidir, əbədidir bu sönməyən sevda.

O qarə xalını məndən gəl etmə pünhan sən
Ki, göz həmişə arar gördüyünü aləmara.

İti baxışlı məni sanma kim, xəyalın ilə
Gözümdə az qala zülmətsəra olub dünya.

Könül, rəqiblərin hiyləsindən olma əmin
Ki, hiylə dostları düşmən edər, salar də’va,

Rəzilə dost olanın hasili rəzalət olur,
Həzər qıl aqibətindən, rəzilə dost olma!

Həqir sanma, mənim hər sözüm nəsihətdir,
Səmimi dostunam, ixlasımı bilir o xuda.

Füzulinin sözünə diqqət ilə sən qulaq as
Ki, həqdir hər nə deyərsə, nə məkrdir, nə riya.

Sığındı bari-təalayə ta ki, hifz etsin,
Zəmanə əhli fəsadindən eyləməz pərva.

* * *

Yol tapmayıram vəslinə yarın məni-nalan,
Təkdir, tayı yox hüsndə, canım ona qurban.

Sə’y eyləmədi, istəmədi vəsl əzəldən,
Həsrət odu yaxdı məni, zövq aldı o canan.

Vəslindən əlim çıxdı; fəqət himmətin ilə,
Tə’qib elədin vəslimi, əl çəkmədin ondan.

Sevdim, diləyim, arzum idi məqsədə çatmaq,
Əfsus ki, bu işlər yenə də oldu pərişan.

Artdıqca məhəbbət ürəyimdə, qəmim artdı,
Cismimdə tavan qalmadı, qəm eylədi tüğyan.

Aşiqlərin aləmdə işi dərdü bəladır,
Kim istəsə az dərd, yetər eşqinə nöqsan.

Ey eşqi bizə mən’ qılan, tə’nədən əl çək,
Müşküldür edə müşkül işi sözlərin asan.

Zənn etmə ki, asib yetişər eşqə bəladən,
Təbdilinə, təğyirinə yoxdur onun imkan.

Yox misli gözəllikdə mənim dilbərimin kim,
Çıxmaz üzə ay, çıxsa üzə ol məhi-taban.

Bədrə şərəfi, şöhrəti bəxş etmiş o dilbər,
Bir zərrəcə hüsnündən edibdir Aya ehsan.

Bir ulduza oxşar ki, onun şə’ninə layiq,
Göydən yerə nazil edilib ayeyi-Qur’an.

Hüsnün nəyi vardırsa, hamı toplanıb onda,
Bir böylə gözəl görməmiş aləm yaranandan.

Kim salsa nəzər ay üzünə, heyrət üzündən,
Təkbir ilə təsbihi bilər ol bütə şayan.

Vacibdir ona baş əyə ruhlar, edə tə'zim,
Yüksəkdir onun şə'ni, deyil sadə bir insan.

Ruhül-qüdüs olmuş üzünün nuru, yazılmış
Xətt ilə onun çöhrəsinə müshəfi-yəzdan.

Atəşdir onun surəti, təşbihə gəlincə,
Xal isə Xəlildir ki, xətər görməyir oddan.

Qəddinə tikilmişdir onun hüsn libasi,
Qəddi kimi yox dəhrdə bir sərvi-gülüstan.

Bazari məhəbbətdə cəmalini görənlər,
Hərracə durublar hamısı əldə tutub can.

Vəslinə onun müştəri oldum uzun illər,
Yüzlərlə rəqib çıxdı mənim qarşıma hər an.

Can nəqdini əldə tutaraq, eşqimi açdım,
Rədd etdi, dedi: durma, çəkil, get bu bazardan!

Aldatdı, vəfa və'di könlümü aldı,
Yox faydası bu və'din, olub yar peşiman.

Gizlində olan hüsnü-cəmali üzə çıxcaq,
Naqis görünüb, etdi bizi hali-pərişan.

Hüsnündə, kəmalindəki naqislik olur kim,
Aşiqləri bir gözdə görür ol güli-xəndan.

Dünyanı onun eşqinin avazəsi tutmuş,
Eşq aləminə təkcə odur bir ulu sultan.

Ey eşqi tutan yer bu sınıq qəlbim evində,
Sənsiz bu gülüstanda bitər xari-müğilan.

Sabitqədəməm eşqdə, ölsəm də bu yolda,
Aləm deyəcək: öldü, fəqət qılmadı peyman.

Şə’nim ucadırsa, səbəbi sənsən, əzizim,
Sənsən başımı lütf ilə əflakə ucaldan.

Mən taleyimi sən kimi canana inandım,
Ol vasitəçi tutsa zəmanə mənə divan.

Bir qul kimi qarşında durub xar Füzuli,
Acizdir, ona rəhm elə, qıl dərdinə dərman.

Ey fəxri-bəşər, sən yaşa aləm yaşadıqca,
Məqsuduna kamınca yetirsin səni dövran.

* * *

Görürsən halımı, lakin sənə bu etməz əsər,
Rəqiblər səni aldatdı, tutmadınmı xəbər?

Bilincə halımı qorxdunmu, yoxsa fikr etdin?
Ona təsəlli verərsəm, görən məzəmmət edər?

Məzəmmət əhli bizi dəhrdə edər təhqir,
Nə vəsldən bir əsər var, nə rəhmdən bir əsər.

Həbibim, eyləmədin lütf, canımı aldın,
Məhəbbətim sənə, canan, əyan deyilmi məgər?

Həbibim, eylədin amac min bəlayə məni,
Şikayət eyləmərəm, aşiq hər cəfayə dözər.

Məni salıb nəzərindən cahanda xar elədin,
Əyan deyilmi sənə yoxsa çəkdiyim qəmlər?

Bu qədr səbr edirəm cövrünə, yəqin bir gün,
Ədalət ilə məhəbbət özü qəzavət edər.

Ədalət ilə olarsam cərimoyə məhkum,
Onun hökmü malımla, canımla tez ödənər.

Ədalət olmasa hökmündə eşq aşiqinin,
Hüququmu qoruyub, eylərəm şikayətlər.

Şikayətim bu olar ki, tutub da damənini,
Tərəhhüm et! – deyərəm, – əhdinə vəfa göstər.

Çəpər çəkib aramızda yəqin səninlə mənim,
Nə qədr sərt və möhkəmdi, sevgilim, bu çəpər.

Bizi ayırmaq üçün qəsdlə inad əhli,
Mənə yalan yerə min dürlü ittiham verər.

Mürüvvət əhli deyildir, fəsaddır əməli,
Əqidəsi pozulubdur – deyərlər, ey dilbər.

Inamla sözlərinə, bunca sahibi-qərəzin,
Mənə həlali həram etmək istər ol sözlər.

Məni rəqiblərə tay tutub, uzaqlaşma
Ki, eşqim iffətini, vəsfini edib əzbər.

Nəcabətimdi salan dəhşətə rəqibləri,
Mətanətimdi verən eşqdə mənə şəhpər.

Mənə beşikdə ikən eşq türbəsi verilib,
Məsihəm, eşqim isə pak Məryəmə bənzər.

Doğulmağımla zühur etdi eşq aləmdə,
Günəş doğanda qaranlıq, bu rəsmdir, çəkilər.

Məhəbbət əhliyəm, eşqimdəki mətanətlə,
Bütün mələklərə Adəm mənimlə fəxr eylər.

Səfası qəlbimin olmaz bəyan ilə zahir,
Sükutumu görən anlar vəfalıyam nə qədər.

Təvazö'ümlə ucallam məqami-valayə,
Bu yüksəlişdə məzacim, təbiətim dəyişər.

Rəqib sözünə inanma, vəfanı tərk etmə,
Vəfadan olmaz əsər, bil, inanmış olsan əgər.

Deyirsən: eşqi unut, səbr et, na çarə edim?
Min örtü altına alsan da eşqi, tez görünər.

Məhəbbətimlə yaranmış başımdakı sevda,
Səninlə zahir olubdur, səninlə gözdən itər.

Nə səndə hüsnünü gizlətməyə çatar cür'ət,
Nə eşqi pərdələməkçün mənə verilmiş hünər.

Bəyan edib sənə əhvalımı, dözüb dərdə,
Bu dərdi kaş aparaydım özümlə qəbrə qədər.

Açanda dərdimi artır sayı rəqiblərin,
Olaydı kaş dilim lal, susaydı düşmənlər.

Sənin himayənə göz dikmişəm, fəqət sənsən
Rəqib önündə məni xar edən sitəmpərvər.

Həbibim, olsa qələt sözlərimdə, əfv eylə,
Zərif könlünü incitməsin kobud sözlər

Ki, məqsədim yaşamaqdan sənin rizan olmuş,
Könüldə başqa muradım yoxumdur, ey sərvər.

Kəsibdir heyrətimin çoxluğu səlah yolunu,
Bilirsən halımı, canan, səlahə ol rəhbər.

Həyatdır mənə vəslin, ölümdür hicranın,
Hər ixtiyar sənindir, bu baş, bu da xəncər.

Sənə məhəbbətimi cəhlə yozma, mən bilirəm,
Təkamülə çatar eşqə mürid olan kəslər.

O hüsnlə o lətafət ki, səndədir, canan,
Kamal əhlini eşqinlə ərşə yüksəldər.

Sənayə, həm də səzavardır xuda, sonra
Bu vəsf Əhmədi-Muxtar üçün rəva görülər.

O əqli-külldür, onda kəmal kamildir,
Kərimdir və mükərrəm, kəramətə məzhər.

Odur hidayət edən kainatı Haqq yoluna,
Füzuli, hər gün o şahə səlamını göndər!

* * *

Nə xoş ki, vəcdə mənim xatirim olub mə'va,
Bu fəzli-həqdir, edər həqq sevdiyinə əta.

Bu şövq ruhumu oxşar nəsimi-rəhmət tək,
Tapar bu şövq ilə könlüm həmişə zövqü səfa.

Nə qəm, bu şövq ilə ölsəm? Bu şövq ilə ölənin
Nəsibi şənlik olur, eşq onu edər ehya.

Verib də ruhumu, mən eşq zövqini aldım,
Könül də verdi bu sevdayə sidq üzilə riza.

İlahi, saxla məni seyd edən maralı özün
Ki, vurmasın mənə ox od nigardən başqa.

Hanı onun boyu tək sərv hüsn bağində?
İlahi, qoyma bəla görsün ol qədi-rə'na.

Qədəm atanda, könüllərdə eşq cuşə gələr,
Durarsa o, hərəkətdən qalar bütün dünya.

Sayılmasaydı onun xalı nüqteyi-mərkəz,
Nizamə düşməz idi dövri-kainat əsla.

Həyat ləzzəti olsaydı vəslinə məxsus,
Cahanda olmaz idi bir nəfər diri peyda.

Yəqin ki, Xizrin "ətəş" naləsi çıxardı göyə,
O dilbər abi-həyatə olaydı gər səqqa.

Bu aləmi bəzəmişdir camalının nuri,
Şüası gəh tutar afaqı, gah girər buluda.

Salıbdır heyrətə əql əhlini camalı ilə,
Müdam pərdədədir, bəxş edər cahanə ziya.

Düşərsə zərrə qədər sübhə hüsnünün nuri,
O gün səhər gecə olmaz, yəqin qaralmaz həva.

Çəkindirir o məni vəsli-yar meylindən
Ki, düşməsin adı dildən-dilə bu aləm ara,

Nəsibim olmadı vəsli, gərək olam qane,
Təcəssüm etsə xəyalımda ol mələksima.

Ümid ilə qəmə, dərdə, bəlayə səbr edirəm,
Bu iztirabə könül tab eyləməz əmma.

Muradə səbr yoluyla mənim yetişməz əlim,
Səbirsiz olsam əgər üstümə gülər ə'da.

Həbibim, eşqdən özgə işim, peşəm yoxdur,
Təmam işlər onun qarşısındadır bica.

Könüldə hər nə qədər nəqş vardı, məhv etdim,
Çəkəndə qəlbimə təsviri-eşqi dəsti-qəza.

Günahdır eşqdən özgə əməllərin hamısı,
Eyib deyilmi, günah işləyib, olum rüsva?

Kədərlənir ürəyim tə'nələr eşitdikcə,
Odur ki, dinləmirəm tə'ni, vermirəm mə'na.

Könüldə yer salıb eşqin silinməz asari,
Əbəs edər mənə əhli-inad istehza.

Bu feyzi cəhl ilə inkar edənlərə nə deyim
Ki, eşq bəxş qılıb qəlbə, ruhə, əqlə bəqa.

Məqamı, şə'ni uca bir Nəbini vəsf edərəm
Ki, ərş fərşi olubdur, kəmalidir ə'la.

Kərimdir, kərəmü qədrinin budağında
Tutub qərar fələk, yüksəlibdir ərşi-xuda.

Büraqinin nalı me'rac vaxtı nur saçdı,
Qara at oldu ağ at, nura batdı ərzü səma.

Onun səxavəti, ehsanı bir dənizdir kim,
Füzulini özünə mail etmiş ol dərya.

* * *

Onun nəcabətinə, hüsnünə salınca nəzər,
Kamal göyündəki parlaq aya dedim bənzər.

Təmam bədr kimi yüksəlib uca üfüqə,
Cəlal sahibinin qüdrətinədir məzhər.

O qara xal ilə, o qırmızı yanaqi ilə
Kəmali-hüsnü edib cəm özündə ol dilbər.

Nə misl var, nə bərabər ona bu aləmdə,
O qəddü qamətə sərv oxşayırmı zərrə qədər?

Ona bu hüsnü əta eyləmiş böyük yaradan,
Təbarəkallah, onundur bu binəzir hünər.

Yeganədir özünə xas olan məlahətdə,
Onun bərabəri yoxdur cahanda bircə nəfər.

Həmişəlik özünə yer tapıb könüllərdə,
Bu ölkələrdə yox ondan səvay bir sərvər.

O pak ruhu özü hifz eyləsin xaliq
Ki, yetməsin o lətif cismə bədnəzərdən əsər.

Vəbaldən onu Həqq saxlasın, sönər yoxsa
Fəzayi-hüsndə dünyayə nur saçan əxtər.

Kəmali-şövq ilə oldum camalına aşiq,
Malımla canımı qurban dedim ona yeksər.

Ümid edərdim onun vəslinə olam nail,
Tükəndi səbrim, ümidim bu yolda oldu hədər.

Sual edəndə sualım mənim fəqət onadır,
Gözüm görər onu yalnız, könül onu düşünər.

Ömür əzab ilə keçdi onun havasində,
Günüm qaraldı, gecəm görmədi işıqlı səhər.

Xəyalına verərək yer bu saf qəlbimdə,
Vüsal ümidi ilə istədim keçə günlər.

Mən onda gördüm inadkar bir təbiət kim,
Vüsal yollarına daim çəkərdi çəpər.

Onu sevənlərə qarşı kəsildi bir düşmən,
Söz ilə aşiqinin qəlbinə vurar xəncər.

Könül verib ona hər kəs, alıb ağır yaralar,
Baxışlarında var oxdan daha ziyadə kəsər.

Görəndə dostunu üz döndərər inad ilə,
Məhəbbət axtarar, öz düşmənini görsə əgər.

Yaxınlaşar ona kim, hiylədir işi, peşəsi,
Fəsad əhlini dost zənn edər o məhpeykər.

Nəsihət etsən əgər səndən inciyər, lakin
Yamanlıq istəyənin fitnəsindən etməz həzər.

Olub müsahibi ancaq rəzillər, alçaqlar,
Maralla sanki tapıb ixtilat quduz itlər.

Danışdıranda, inadla məni edir inkar,
Qəmində olmuş işim ahü nalə şamü səhər.

Acıqlananda sözümdən kədərlənir qəlbi,
Kədərli könlümə bundan qonur əlavə kədər.

Danışdım hər nə qədər, ol nigar dinləmədi,
Su səpmədi, alışıb yandı eşq odunda ciyər.

Rizasi ziddinə getmək böyük müsibətdir,
Uzatma gəl sözünü, ey Füzuliyi-müztər.

Nə istəsə edəcək, ixtiyar onundur, çün
Əyilmək olmaz o yoldan ki, göstərir rəhbər.

Sevincimin səbəbi hüsnün olmuş, ey canan.
Hər işdə sahibi-qüdrətdir hüsnünü yaradan.

Ağıl çaşıb o qara xalini bilir xaliq,
Könül pərəstiş edər xəttinə, çıxıb yoldan.

Günəş kimi o camalın cahana nur saçar,
Görən o nuri edər zikri-xaliqi hər an.

O kəs ki, hüsnünə heyran deyil bu aləmdə,
Haram olub ona eşqinlə, şən sürər dövran.

Kim etsə hüsnünü inkar küfrdür əməli,
Məhəbbətin qalacaqdır cahanda cavidan.

Üzün ki, xətt hasarındadır, gözəllikdə
Qaranlıq içrə yanan od kimi olub taban.

Səninləyəm, bunu dünya bilir mənə minnət,
Cahandasan, bunu minnət gərək biləydi cahan.

Vüsali-bəzmi bizə olmasaydı bu aləm,
Nəyə təşəkkür edərdi bu dəhrdə yaşayan.

Kim eşq şərbətini nuş edib, yəqin ölməz,
Ölüm piyaləsini nuş edəndə əhli-zaman.

Məgər işarə edib gözlərin cəfayə sənin
Ki, hər müəllim edə zülmdə belə tüğyan,

Səbatü səbr yoxumdur, gözüm yuxu görməz,
Könüldə, gözdə xəyalın salıb özünə məkan.

Alışmaz odda xəyalın, su içrə qərq olmaz,
O sahirin işinə qalmışam özüm heyran.

Məhəbbətin yolu düşsə qəbirlər üstündən
Qəbirdə qalmaz ölü, canlanar məzarıstan.

Qəbirlər oxşar ana bətninə, doğub törədər,
Sığışmaz aləmə, göydə yer axtarar insan.

Sənin xəyalın ilə qəlb evim pərişandır,
Olarsa şah cəfakar, mülk olar viran.

Qiyamın ilə qiyamət bizə əyan oldu,
Cəhanə zəlzələ düşdü sənin qiyamından.

Deyərsən həbs edim, ey gözəl, məhəbbətimi,
Deməк, mənim də yerim olmalı qara zindan.

Təsəvvürümlə mənim heyrətə düşər aləm,
Mənəm ki, aləmi təsvirim eyləmiş heyran.

Dayanmışam hərəkətsiz önündə heykəl tək,
Kor olsa da gözümü çəkmərəm cəmalından.

Bu göz yaşım mənə bir e'tibar xəl'ətidir,
Vücudimi o elər əhli-tə'ndən pünhan.

Qocalmışam, daha yoxdur muradım aləmdə,
Mənə əvəz doğa bilməz qısır qalan dövran.

Cahanda az tapılar pak damən insanlar,
Odur ki, damənini tərk qılmaram bir an.

Necə sənin kimi bir məhliqanı tərk qılım
Ki, yoxdur hüsnünə tay, kainatı axtarsan.

Bu sehr sən'ətinin səndə kim görərsə, deyər:
Yəqin ki, Babil olub yurdun, afəti-dövran.

O ətr rayihəsindən məziyyətin artar,
Sənin təbiətinə, hüsnünə odur şayan.

Vücudun ətr saçar, sanki Şahi-mərdanın
Əziz türbəsinə sən həmişə zəvvarsan.

O xəlq inami, murad rəmzidir, nicat ələmi,
Vəlidir, həm də vəsi, vəsfi-zati bipayan.

O bir həkimdir, hər bir sözü nəsihətdir,
Xəlildir, yer ilə bütləri edib yeksan.

Həlimdir, o qədər qüdrətilə səbr etmiş,
O zülmü zilləti görmüş rəva ona üdvan.

Ona pərəstişə meyl eyləmiş bəşər ruhi,
Fəziləti bu səbəbdən cahanə olmuş əyan.

Odur könüllərə mehr ilə eyləmiş bəşər ruhi,
Fəziləti bu səbəbdən cahanə olmuş əyan.

Odur könüllərə mehr ilə mərhəmət salmış,
Iradəsilə onun xalq olundu kövnü məkan.

O açdı nuri-həqiqətlə gizli sirləri,
Odur verən bizə dərki-həqiqətə imkan.

O zati-mütləqi-həqdir, o Beytül-əqsadır,
Bu kainatda yox ondan özgə məzhər olan.

O, yüksək əqli ilə aləmi edib təhqiq,
Məqami ilə fələklər qazandı şovkətü şan.

Onun əlilə verilməzsə aləmə islah,
Həsəd edərdi cahan mülkünü yəqin viran.

Yox ondan özgə bu aləmdə fəzl dəryası,
Onun yanında hamı qətrədir, odur ümman.

Vəlidir, həm də vəsidir kamali vəsfində
Kəmal sahibi tapmaz özündə hüsni-bəyan.

Ona itaət vacibdir hər müsəlmanə,
Çəkər bu rəsmi pozanlar iki cahanda ziyan.

Onun şəhadəti etmiş nübüvvəti təsdiq,
Onunla tapdı Məhəmməd şəriəti səhman.

Əli ədaləti daim edib şəriətdə,
Odur vəliyyi-xudavənd, sərvəri-mərdan.

Şərəflidir adı, şə'ni o qədər yüksəkdir
Ki, zikr minbəridir ərşi-xaliqi-sübhan.

O hakimi-əbədidir, hər hökmü baqidir,
Zaman dəyişsə də, hökmü olur həmişə rəvan.

O hökm sahibidir kim, şəriət əhkami,
Onun bir hökmü ilə oldu xəlqə nur əfşan.

Ona baş əyməyən hər bir kəsin xətadır işi,
Gərək baş əysin ona həm gəda və həm sultan.

Onun sifatini qəsd etmək əmri-müşküldür,
Mənaqibində bəşər əqli mat olur hər an.

Səlam ola sənə, ey mərhəmət, əta kani,
Sənin əlinlə qoyuldu şəriətə bünyan.

Muradə çatmağa səndən səvay ümidim yox,
Səninlə ancaq olur müşkül işlərim asan.

Bir özgə padişahın mədhi könlümə yatmaz,
Bir özgə sərvəri mədh etmədim cahanda, inan.

Fəqirdir bu Füzuli, yazıq günahkardır,
Bəlayə, möhnətə etmiş onu zəmanə nişan.

Günahı çoxdur, əlindən xəta çıxıb saysız,
Cinayəti çox ağırdır onun bu dağlardan.

Sən, ey xeyirli yolun rəhbəri, özün kömək et,
Şəfaət eylə, ona istə Həqqdən ehsan.

Səlam ola bəşərin fəxri ol Məhəmmədə kim,
Könül də, göz də alar nur onun camalından.

* * *

Gətirdi vəcdə məni qamətin çü sərvi-rəvan,
Sənə könüldəki meylim ziyad olur hər an.

Qürur ilə yeriyərkən, sənin o qamətinə
Kəmalü qədrdə tay yoxdur, ey məhi-taban.

Fənani şərti-məhəbbət sayırsan, ondandır
Fənayi-mütləqə məhkum olubdur əhli-zaman.

Ölər məhəbbətinin zövqünü duyan hər kəs,
Odur ki, xəlqə ölüm həq sayılmış, ey canan.

Ölən bu zövq ilə zövq əhlidir, kim ölməzsə
Bu zövqü bilməz, onun qatili olar hirman.

Sənə baş əyməyə əmvat qalxdı torpaqdan,
Səbəb odur ki, gəlib lərzəyə zəminü zəman.

Ağız açınca səsin asimanə səs saldı,
Mələklər ərşdə oldu kəlamına heyran.

Tutuldu sehrə bütün yer üzü, nəzər saldın,
Dedi: mənəm bu tilismi bütün cahanə yayan.

Sənə baxınca əyan oldu taleyim özümə,
Yəqinim oldu nə ilə işim tapar payan.

Görər nə var geridə güzgüyə baxan kəslər,
Sənin üzündə mənə qarşı səmt oldu əyan.

Yaxınlaşınca sənə möhnətim olur zayil,
Fərağın ilə könül qəmlərim edir tüğyan.

Kəmalə bədr çatınca füzun olar nuri,
Qısalsa mənzili, nuri ayın tapar nöqsan.

Büsati-hüsnü qurub, başladın müamiləyə,
Sənə təmam vəfa əhli can edər qurban.

Bu ruhu al, mənə vəslini iltifat eylə,
Eyib deyil, ağalar etsələr qula ehsan.

Dilin şirindir, o mə'nalı gözlərin sahir,
Vətənmi Babil olubdur sənə, sən halvaçısan?

Otursa hər nə qədər dilbər hüsn təxtində,
Gözəllər içrə sənə tay tapılmaz, ey canan.

Yaxınlaşar sənə əşrar, uzaqlaşarsan sən,
Bu meyldir aranızda çəpər çəkən əl'an.

Məzacın incə yaranmış, təbiətin munis,
Yanında isə qurar hiylə min rəzil şeytan.

Lətafət ilə təmizlikdə saf su kimisən,
Bu rəsmdir ki, su alçaq yerə axar asan.

Təbiətin gözəlim, incə bir gülə oxşar,
Hər incə şey mütəəssir olar, deyil bu yalan.

Zəifdir ürəyim, qorxuram gətirməyə tab,
Üzün çıxarsa günəş tək niqab altından.

Gözəllik, ey sənəmim, səndə bir əmanətdir,
Əmanəti daşıyar, rəsmdir, əmin insan.

O hüsnü yaxşı qoru, qoyma əl toxunsun ona,
Saqın, bu əhli-xətadən yetər həmişə ziyan.

Cahanda görmə rəva zülmü əhli-təqvayə,
Təqilərin şəhi yoxsa tutar sənə divan.

O pak imam ki, təsviri-hikmətinə onun
Müəyyən etməmiş ariflər əqli bir mizan.

Vəlidir, həm də vəsi, vəsfini deyən yerdə
Məarif əhli bu təsvirə tapmamış imkan.

Səvabi-nafilədir cümlə övliya vəsfi,
Və leyk, vacib olub vəsfi-sərvəri-mərdan.

Yaratmış insla cinni xuda bu məqsəd ilə
Ki, zahir olmasına ol şəhin ola imkan.

Əli dəxalət edər kainatın işlərinə,
Buna icazə veribdir o xaliqi-sübhan.

İradəsi bütün işlərdə sanki bir əldir,
O əldə barmağa oxşar təmam kövnü məkan.

Bu varlıq aləmi tutmazdı öz yerində qərar,
Onun vilayətinə bağlı olmasaydı cahan.

Edərdi tərk yerin altını cəvahirlər,
Bədəndə qalmaz idi ruh qorxudan bir an.

O qəhr ilə bu cahana əgər nəzər salsa,
Nizami bərhəm olar varlığın bir anda haman.

Vücudu sülhə dayaqdır, qılıncı düşmən üçün
Bəlayi-həqdir, onu nazil eyləmiş yaradan.

Mən ondan özgəsinə üz tutum necə, varmı
Bir öylə fəzl tapan ki, ola fəzilətə kan?

Müsavi tutmaq olarmı onunla qəl'ələri,
Hanı onun kimi yüksək, onun tək alçaldan?

Xilafətilə müasirləri olub məs'ud,
Kim əvvəl ölmüş idi, onun qisməti xüsran.

Xilafətilə müasirləri olub məs'ud,
Kim əvvəl ölmüş idi, oldu qisməti xüsran.

Cahanda biz hamıdan bəxtiyar bir xəlqik
Ki, görmədən ona əvvəldə bağladıq peyman.

Vəlidir, ancaq hamı övliyadən üstündür,
Əlidir, ali məqamilə olmuş alişan.

O, mö'cizatı ilə həq sözünə verdi rəvac,
Odur həqiqəti-islamə göstərən bürhan.

Həqiqəti deməsəydi o feyz ustadı,
Yəqin qalardı həqiqət uzun zaman pünhan.

Odur ki, həşrə qədər hər işə olub vaqif,
Ona həmişə əyandır təmam sirri-nəhan.

Onun inayəti cümlə-cahanə şamildir,
Odur həqiqəti vermiş tamam xəlqə nişan.

Sədaqət ilə onu kim çağırsa imdadə,
Asan yol ilə çətin işləri tapar səhman.

Onun fəzilətini kim danarsa, cahildir,
O şahi mədh edənin müşkülü olar asan.

Vilayətində xudavənd elmi pünhandır,
Bu elmi bilməyən Allahını unutmuş, inan.

Vilayətində xuda lütfü aşikar olmuş,
Kim olsa qafil, olar qafil həyyi-sübhandan.

İtaətində olan həşrdə nəcat tapar,
Xeyir əməllərilə dostları sürər dövran.

O, şahə düşmən olub harda var zinazadə,
Doğulmayaydı bu əhli-inad kaş anadan.

Salam ola sənə, ey mərhəmət, səxa kani,
Əməllərinə bu dünya sənin olub heyran.

Fəqirü acizü heyran olan Füzulinin,
Ümidi lütfünə bağlanmış, ey şəhi-mərdan.

O, səndən özgəsinə dərdini necə açsın?
Muradə çatdır, özün eylə dərdinə dərman.

* * *

Qəlbimə nur saçdı eşqin, hüsnün olcaq cilvəgər,
Var yeri, aşiqlərin şö'lə çəkib yansa əgər.

Aşiqə abi-həyat olmuş sənin eşqin, bəli,
Kim içər bir qətrə ondan, sağ qalar həşrə qədər.

Hüsndə hər incəlik varsa, camalından doğar,
Səndəki hüsn incəliklər xaliqi olmuş məgər?

Çatmaq olmaz vəslinə cəbr ilə, ey sultan, sənin,
Hər kəsə lütfün füzun olsa, ona feyzin yetər.

Bir baxışda can verib, söylər həyatə əlvida,
Qəddinə zövq əhli salsa həsrət ilə bir nəzər.

Sən gedərkən aşiqin ruhu olar təndən cida,
Bir əmanətdir bədəndə ruh, sənsən ruhbər.

Dövrə vurmuş çevrəsində xalının ruhlar sənin,
Ay üzün olmuş könüllər məclisi, ey simibər.

Görmədən rüxsarini heyran olublar hüsnünə,
Qəlbi üşşaqın odur olmuş belə zirü zəbər.

Tə'nə ilə aşiqi döndərmək olmaz eşqdən,
Aşiqə tə'n eyləyən nasehlər olmuş əhli-şər.

Qəlbdə rişə atan eşqə zəval olmuş məhal,
Eşq dərdinin təbibi daima çəkmiş zərər.

Aləmin ne'mətləri aşiqlərə olmuş həram,
Eşqdən başqa nə varsa, aşiq ondan əl çəkər.

Kainatə yüklənərsə sevginin möhnət yükü,
Bağrı partlar göylərin, qalmaz bu aləmdən əsər.

Eşq dərdi bir ölü qəlbində yer tapsa əgər,
Qəbrdən fəryadi ərşə yüksələr şamü səhər.

Qarnı acgöz ruzigarın tö'mədən asan doyar,
Doymaz aşiq dərdi-möhnətdən, olarsa hər qədər.

Aşiq öz mə’şuqəsindən mərhəmətlər görsə də,
Sanmayın razi qalıb, söylər ki, oldum bəxtəvər.

Kim gülün ətrini duysa, meyl edər görsün onu,
Görcəyin istər ki, üzsün şaxəsindən birtəhər.

Sevginin həzz böyükdür, qoymaq olmaz hədd ona,
Leyk ondan əl çəkər kim əqli tutsa rahbər.

Eşqin həzzindən ağıl sahibləri məhrum ikən,
Hər kəsin başında sevda var, bu həzzi dərk edər.

Eşqdən zövq alsa bir aqil, əcayib görsənər,
Bu ona oxşar ki, bir kor quş şikar üstə gedər.

Ağladıqca mən, cəfani artırırsan, dilbərim,
Ey həbibim, dadına çatsın xudayi-dadivər.

Həqq özü versin o birəhmin cəfasinə xitam,
Zülmünə dözdükcə mən, tüğyan edər ol kinəvər.

Dinləməz kim, eşq dərdini ona izhar edəm,
Qəlbimi təskin üçün sə’yim mənə verməz səmər.

Sevginin düşmənləri hər nə desə, tabe olar,
Diqqət ilə dinləyər, böhtan atarsa əhli-şər.

Bir xəta çıxdı dilimdən, eşqimi açdım ona,
Indi mən üzr istərəm, lütfən günahımdan keçər.

Üzr ilə sönməzsə qəlbində olan qeyz atəşi,
Ağlaram ta kim, şəfaətçim ola bu çeşmi tər.

Öylə bir adil imamın eşqinə verrəm qəsəm
Kim, vicudilə onun düşmüş nizamə bəhrü bər.

Həm validir, həm vəsi, həm kamil, həm sahibkəmal,
Həm təqidir, həm nəqi, həm zahidü, həm mö’təbər.

O, nəmaz üstə fəqirə verdi öz əngüştərin,
Dini-həqq çaldı səxasından onun küfrə zəfər.

Əl atıb gəhvarəsində parə etdi əjdəri,
Görməmişdir böylə bir mö'cüz hələ növ'i-bəşər.

Yoxdur ondan özgə nə şər'in, nə ürfün mərcəi,
Hökmünə tabe olub ol sərvərin şəmsü qəmər.

Dostuna qismət olub nüsrət, kəramət hər zaman,
Sidq ilə kim damənindən tutsa, ərşə yüksələr.

Vəsfü surətdə Əli çünki vəliyullahdır,
Var məqami həqq yanında Yuşə'ü Isa qədər.

Canlanıb dinin fidani çeşməsindən tiğinin,
Əsl odur dini-mübinə, övliyadır şaxü bər.

Hər fəzilət varsa, bu aləmdə o bəzl eyləmiş,
Qüdrətü əzmilə aləmdə bölünmüş xeyrü şər.

Beyrəqi-ülviyyəti ə'la məqamə qaldırıb,
Küfrü xar etmiş, şəriət tapmış ondan izzü fər.

Feyzü idraki onun tapmaz məlamətdən zəval,
Öylə bir dağdır ki, bunlardan ona yetməz xətər.

Nizə vursa düşmənə, rəncidə olmaz xatiri,
Dini ehya eyləmiş vurmaqla şəmşiri-düsər.

Dostluğunda mənfəət, düşmənliyində var ziyan,
Dosta baran qətrəsidir, düşməninə şiri-nər.

Lütfdə, ehsanda üstündür o mövla cümlədən,
Kimsədə yoxdur cahanda ondakı cür'ət, hünər.

Qılmasaydı hikmətinə təkyə şər'i-Mustəfa,
Küfr edərdi xaneyi-dini yəqin zirü zəbər.

Damənindən tutmasaydı sidqlə aləm onun,
Kainatın paltarı parə olardı sərbəsər.

Tiği Musanın əsasi tək zühur etdikdə, bil,
Sehrdə hər cür düyün varsa olar fani, hədər.

Əssəlam, ey mənbəi-təqva sənə, kim, olmusan,
Həqq kəramatinin asarinə nadir bir gühər.

Tərk qılmış cənnəti Adəm ki, öldükdə onun
Türbəsi türbən yanında daim olsun bikədər.

Cənnətin hüsnü böyükdür, vəsfə gəlməz şübhəsiz,
Leyk qəbrin aqilə cənnətdən ə'la görsənər,

Nuh axıtdı göz yaşı ömrü boyu, istərdi kim,
Xidmətində qul kimi fəxr ilə bağlasın kəmər.

Vacib olmuş cümlə məxluqatə sevgin, ya Əli,
Səndən özgə dostluğa layiq görülməz bir nəfər.

Kim sənin düşmənlərini dost tutarsa, məhv olur,
Mənzilə çatmaz kim əyri yoldan eylərsə səfər.

Həq yaratdı bir-birindən əql ilə ruhu cida,
Eşqin ilə birləşib, onlar necə südlə şəkər.

Ya Əli, sənsən vəfanın kani, həqqin məzhəri,
Dərgəhindən bu Füzuli icz ilə hacət dilər.

Mən həsəd əhlindən ey mövla şikayət eylərəm,
Eyləməz göz yaşlarım əhli-inadə çün əsər,

Dəf'inə əhli-fəsadın şərrinin, tə'cil qıl,
Xahişim, arzum budur səndən, qəbul etsən əgər.

* * *

Özü Məhəmmədə haqq eyləmiş kəmali əta,
Fəzilətilə onu rəhbər etdi haqq yoluna.

Bu aləmi yaradarkən o sahibi-hikmət,
Məhəmməd ümmətinin hörmətini tutdu uca.

Xuda həbibidir haqq kim, yaranmadan aləm,
Cəmalının işığıyla cəhanə saçdı ziya.

Vəliyyi-haqdir ol canişini-peyğəmbər
Ki, etdi sə’y ilə hökmi-şəriəti icra.

Müdam puç sözə etmiş təbiətim nifrət,
Yaratmışam sözümün hər birində bir mə’na.

Zəmanə fitnəsinə adət etmişəm, nə edim,
Edər zəmanəyə tabe adamları dünya.

Könül həqiqətə daim cahanda talibdir,
Məcaz qeydinə bağlanmağa verərmi riza?

# Fəzliyə nəsihət

İstərdim aləmin işini etmək imtahan,
Oldum bu məqsəd ilə cahan seyrinə rəvan.

Əvvəlcə düşdü bir bağa nagəh yolum mənim,
Oldu qəribə işlər o bağda mənə əyan.

Gördüm o cümlədən qoca bağban bəhər üçün,
Ümmidlə, qayğı ilə əkib bir cavan fidan.

Sə'y eyləmiş o vəqtə qədər ki, budaq verib,
Yarpaq açıb, şükufə yetirmiş ağac haman.

Meyvə ki, əsl məqsəd idi zahir olcağın,
Əvvəl şükufədən o qida aldı bir zaman.

Ayrıldı bir qədər böyüyüncə şükufədən,
Yarpaqla şaxədən o qidalandı durmadan.

Ə'zasinə ağacdan onun su rəvan idi,
Tamsız, yetişməmiş böyüyüb boy atan zaman.

Həddi-kəmalə çatmadan o, meyvə daima
Üstündə idi ol ağacın şad, kamiran.

Dəydi, ağacla bir-birinin ziddi oldular,
Rəng ilə ətri verdi bu ziddiyyəti nişan.

Meyvə ağacdan incədir, ətri ziyadədir,
Olmaz ağacda meyvədəki ətr bigüman.

Ayrılmalıydı meyvə ağacdan dəyən kimi,
Verməz təbiət heç kəsə bu hökmlə aman.

Meyvə dərilməz isə ağacdan, bu qaydadır,
Dövran əlilə hər ikisinə yetər ziyan.

Həm meyvəni əzib, çürüdüb məhv edər hava,
Həm də dəyər ağac başına daş zaman-zaman.

Yoxdursa meyvədə ağaca ehtiyac əgər,
Meyvə ağacda tutmamalı boş yerə məkan.

Dinlə məni, ağıllı balam, diqqət ilə sən,
Bu incə nüktə sirrini ta eyləyim bəyan.

Salsan həqiqət aləminə yaxşı bir nəzər,
Sən meyvəsən, mən isə ağac, dəhr busitan.

Dünya bağında hər ağacı bəsləmək üçün,
Qəddi bükük fələk özüdür piri-bağibani.

Yarpaq, şükufə, şaxə əgər bilməsən nədir,
Arvadla malü mülküm idi, ey əzizi-can.

Qoydun o gün ki, sən bu cahan mülkünə qədəm,
Can şirəsilə cisminə verdi qida anan.

Süddən ayırdı çün səni dövran dayəsi,
Malımla, mülküm ilə tapardı tənin təvan.

Möhtac idin mənə nə qədər ki, həyatda sən,
Məndən səvay bilməz idin yari-mehriban.

Sərf eylədim yolunda bütün ömrümü, bu gün
Qaldırmısan qürur ilə baş göylərə yaman.

Cismim zəifləşincə göründü yüküm ağır,
Məndə bəlanı çəkmək üçün qalmamış o can.

Gənclik üzündən işlədiyin hər əməl üçün
Yetməzmi tə’nə vurdu mənə hər qoca, cavan?

Udsam bu qəmləri, ey oğul, qorxuram öləm,
Rüsvay olaram, qorxuram, etsəm əgər fəğan.

Ey feyzinin kəmali edən qədrimi füzun,
Ey izzəti mənə sayılan şövkət ilə şan!

Səndən səvay yoxsa da candan mənə əziz,
Dırnağı ətdən üzməyə qalmış bu gün güman.

Meyvə ilə ağac bizə də bir nümunədir,
İbrət götür, gözəl deyilibdir bu dasitan.

Yox meyl səndə çün mənə həmdərd olmağa,
Mümkün deyil səninlə olaq yari-həmzəban.

Bəsdir, mənə əzab ilə baş əyməyin yetər,
Bəsdir, məzəmmətimlə mənim bağrın oldu qan.

Tutmaz dəxi səninlə mənim ittifaqımız,
Mən bir ovuc sümük, sən isə tazə gülsitan.

Yoldaşlığım tutarmı səninlə mənim bu gün,
Sən bir çevik cavan, mənəm piri-natəvan.

İstərsən aləmi tutasan bir qılınc kimi,
Qın pərdəsində bəs nə üçün qalmısan nəhan?

Mənsiz yaşa, qazan özünə hörmət, e’tibar,
Mən maneyəm, yoxunsa bu gün nam ilə nişan.

Şahin balasının var əgər seydə qüdrəti,
Əlbəttə, məsləhətdir edə tərki-aşiyan.

Bir lə’l kan içində kəmalə çatıb əgər,
Hökmi-təbiət ilə gərək qalmasın nəhan.

Dünyanı nəzmə salmaq üçün hikmət oldu bil,
Hər söz ki, söyləmiş bu Füzuliyi-natəvan.

# ƏRƏBCƏ MƏTNLƏRİN TƏRCÜMƏSİ

(səh.30)

*25-28-ci beytlərin tərcüməsi:* Sənin qəhr edən qılıncına ümid gözü açdım (ümid bağladım), qəhr edilmiş düşməndən (qurtarmaq üçün) ondan kömək istədim.

Sən hər iki dünyada pənahımızsan, insanlar siratı keçməkdə çətinlik çəkəndə sənə sığınacaqlar.

Ümid edirəm ki, Allahın əmri ilə bütün əmrlər sənə qayıdan gündə (qiyamət günündə) bütün ehtiyacları ödəyəsən.

Hər iki dünyada sənin razılığını istəyib ətəyindən tutdum.

Lütfünə olan ümidimin möhkəmliyi mənə bəsdir.

(səh.49)

*1-3-cü beytlərin tərcüməsi:* Allah din sultanının əbədi dövləti durduqca müsəlmanların əmniyyətini hər yerdə əbədi etsin.

Allah islamda bəqa çırağını yer üzü şahənşahının həşəmətilə işıqlandırsın.

Allah, zəmanənin fəxri olan sultanı əbədi yaşat, onun feyzindən ölkənin fəzası behiştə dönmüşdür.

*6-10-cu beytlərin tərcüməsi:* Onun qədr sarayı qarşısında çərx astana torpağıdır, ədalət onun səadət biləyinə zinətdir.

Səltənət sədarəti əzəl zamandan onundur və məmləkətdə son günə qədər onun olacaq.

O doğru və qüvvətli dinin böyük köməkçisidir, uca və mətin şəriətin böyük köməkçisidir.

O doğulduğu gündən hər an ehsan mənbəyidir, hər zaman şəfqət mənşəyidir.

(səh.50)

*12-15-ci beytlərin tərcüməsi*: Onun ədalətinin nuru Yer üzünü aydınlatdı, dördüncü göyün məclis bəzəyəninə (Günəşə) möhtac olmaqdan qurtardı.

Əsrin padşahları onun dövlətinin astanasında dayanmışlar, ölkə varisləri xərac üçün girovdurlar.

Qədim padşahlar ölkələrində onun heç şeyə ehtiyacı olmayan dərgahında sərf olunmaq üçün xəzinələr dəfn etmişlər.

Gülab təbiətində ətir olduğu kimi, onun da mizacında səxavət var, bal mizacında şirinlik olduğu kimi, onun da təbiətində ədalət var.

*16-cı beytin tərcüməsi:* O su və torpaq cismə ruh verdi.

*17-ci beytin tərcüməsi*: Onun sənasinin zikri bizimçün Quran kimi xeyirlidir.

*19-cu beytin tərcüməsi:* Dənizlərin və quruların padşahı Sultan Süleyman xilafətdə Peyğəmbər canişinlərinin canişinidir.

*20-ci beytin tərcüməsi:* Onlar əshabi-kəhfdirlər, o da möhkəm qaladır.

*21-23-cü beytlərin tərcüməsi*: Gözəl hal uşağın ana qarnındakı halıdır.

Onun əzmi həmişə üzəngisinin yanında olan fəth qasididir.

Onun istəyi həmişə yəhərli ədalət atıdır.

O hansı yerə üz tutsa nicat və rahatlıq sağında, fəth və qalibiyyət solunda, bayrağı altındadır.

(səh.51)

*24-cü beytin tərcüməsi:* Onun əzmi böyük əzmdir, rəyi vüqarlı rəydir.

*25-ci beytin tərcüməsi:* Onun bütün əzmləri müvəffəqiyyətlə qurtarır, bütün rəyləri kömək edən Allahın müvəffəqiyyətidir.

*26-cı beytin tərcüməsi:* Ona kömək etmək üçün mələk dəstələri pusqudadır.

*27-ci beytin tərcüməsi:* Onun astanası alın qoyulmaq (səcdə) üçündür.

*28-29-cu beytlərin tərcüməsi:* Qədr eyvanının qülləsi həmişə dillənərək deyir: Bura ədn cənnətidir, əbədi yaşayış üçün daxil olun.

Behişt və cəhənnəmində lütf və qəhrindən yaxşı və yaman qarşısında qəhri yandırıcı duz, lütfü axar su kimidir.

*32-33-cü beytlərin tərcüməsi:* Ey dünya qalibləri himmətinin əlaltısı olan, fələyin çərxi sənin fərman verən barmağının üzüyüdür. Əgər sənin fərmanının möhrü Süleyman mülkünü (dünyanı) hökmü altına alsa, təəccüblü deyil.

(səh.52)

*36-38-ci beytlərin tərcüməsi:* Sənin hökmünün boyunduruğu altında dövranın boynu bükülmüşdür. Bunu görməyən uzaqgörən əqldən uzaqdır.

Bütün dünya sənin ölkəni bəzəyən ədalətinə sığınmışdır. Afərin, ey ölkə sevən padişah, afərin! Nemətinin tərifini yeniləmək hər kəsin işi deyil, yaxşısı budur ki, Füzuli bundan artıq füzulluq eləməsin.

*40-cı beytin tərcüməsi:* Allah yaxşılıq edənlərin əməyini boşa çıxarmaz.

(səh.54)

*27-38-ci beytlərin tərcüməsi:* Iraq torpağının susuz qaldığı bir zamanda dənizlər kimi buludlar göndərib suvaran Sultanı Allahım əbədi etsin. Ona iqtida

etməsəydik, biz şadlıq səhninə (cənnətə) çatmazdıq, o hidayət etməsəydi, biz qərar beşiyində yatmazdıq.

Onun ədaləti zamanın fəlakətlərindən qorunmaq üçün bir sığınacaqdır, insanlar çətinlik zamanı onunla təskinlik tapırlar.

Qılıncı dövrün hadisələrindən qorunmaq üçün qaladır, insanlar fərar qorxusundan bu qalada aman tapırlar. Onun ədalət şöhrəti islamın intizamının özüdür, onun şöhrəti sələflərinin də iftixarıdır.

(səh.64)

*17-ci beytin tərcüməsi:* Allah, bizə ehsan et, onun taleyini əbədi et.

Allah, onun əyyamında xalqın halını gözəlləşdir.

(səh.71)

30-cu beytin tərcüməsi: Xalq içərisində qalmağınız istənilir.
31-ci beytin tərcüməsi: Sizdən qaranlıqlara hidayət nuri saçıldı.
Qaranlıqları yox edən işığın əsərləri həmişəlik olsun!

(səh.127)

*32-33-cü beytlərin tərcüməsi:* Allah onun uca qədrini böyütsün, Allah onun uca şənini yüksəltsin.
Allah onun şan-şərəfini artırsın, Allah onun hökmünü əbədi eləsin.

(səh.142)

*1-ci beytin tərcüməsi:* Yüksək göyləri yaradan Allaha həmd olsun.
*7-ci beytin tərcüməsi:* Aləmlərin sahibinə sığındıq, nəhy etdiyi şeylərdən çəkindik.

# LÜĞƏT

## A

Aba – atalar
Abi-atəş – od suyu, yəni şərab
Abi-bəqa – dirilik suyu
Abidar – sulu, təzə
Abi-əngur – üzüm suyu, yəni şərab
Abiginə – şüşə
Abigundur günbədi-dəvvar – dövr edən günbəd (göy) mavidir. Su rənglidir
Abi-heyvan – bax: abi-həyat
Abi-həyat – dirilik suyu, qədim mifologiyaya görə, Iskəndərin axtarmağa getdiyi dirilik suyu. Guya bu suyu Xızr içib əbədi həyata çatmışdır
Abinus – ağac adıdır
Abi-rəvan – axar su, çay
Abü danə – su və dən
Abü tab – lətafət; təzəlik
Ac – fil dişi
Afaq – üfüqlər
Afərinəndə – yaradıcı; Allah
Afəriniş – yaradılmış, xilqət
Afət – bəla, gözəl
Afitabi-övci-şərəf – şərəf səmasının günəşi
Afitabi-sübhi-məşhər – qiyamət səhərinin günəşi
Afiyət – sağlamlıq
Ağaz – başlamaq, başlanğıc
Al – qırmızı; hiylə; nəsil
Alam – kədərlər, ələmlər
Aləmara – dünyanı bəzəyən
Aləməfruz – dünyanı işıqlandıran
Aləmsuz – dünyanı yandıran
Ələmtab – dünyaya işıq və hərarət verən
Ali-Əhmədi-Muxtar – Məhəmmədin (s.ə.s.) nəsli

Amac – hədəf
Amacgəh – hədəfin olduğu yer
Amadə – hazır
Amal – əməllər, arzular
Amm – ümum, cümlə, camaat
Ara – bəzəyən
